www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 3 iyul 2015-ci il Cümə № 143 (6171) Qiymətı 40 qəpik

**Xəbər**

## Sumqayıt sələfilərinin liderinə 13 il həbs cəzası verildi

yazısı səh.4-də

**Gündəm**

### Bakı separatçıya görə Britaniyaya nota verdi



Londondan cavab gəldi; Qərblə münasibətlərdəki gərginlik Qarabağı da təhdid edir və separatçı rejimi ruhlandırır

yazısı səh.9-da

### Generalın həbsdəki qardaşı ev dustaqlığına buraxılmayıb

yazısı səh.13-də

### Ziya Məmmədovun qardaşı Qusardakı qətldən ziddiyyətli danışdı

yazısı səh.10-da

### Ev fırıldaqçılarının mühakiməsi başlayır

yazısı səh.13-də

### Kəlbəcərli girovların məsələsi ATƏT PA-da qaldırılacaq

yazısı səh.12-də

### "AST Telman" borca görə torpağını verdi

yazısı səh.5-də

### Ermənistan Rusiyadan aldığı texnikanı Azərbaycanla sərhədə göndərəcək

yazısı səh.8-də

### "Hafka"nın müflis olma prosesi sürətlənir

yazısı səh.8-də

### Bu gün Beynəlxalq Bankda mühüm toplantı olacaq

yazısı səh.4-də

### Almaniyanı Avropa Birliyində güclü edən nədir?

yazısı səh.9-da

**Ramazan ayının 16-cı günü**

İftar 21.31. İmsaq (azan) 4.45 (QMİ)

16-cı günün duası: "İlahi, bu gün məni yaxşı adamlarla dostluq etməyə müvəffəq et! Belə bir gündə məni pis insanlardan uzaqlaşdır! Səni Allahlığına and verirəm, Öz rəhmətinlə məni əbədi məkan olan behiştində məskunlaşdır! Ey aləmləri Yaradan!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

## Avropa və Amerikadakı fiaskoya görə kimlər cavab verəcək?

# İQTİDARIN HƏDƏFİNDƏKİ ÜÇ SOYAD: MƏMMƏD(YAR)OV, İBRAHİMOV...

Rəsmi Bakıya yönəlik anti-təbliğatın arxasında erməni lobbisinin dayanmasının faktlarla sübutu iqtidarı xarici siyasət və diaspora siyasətinə yenidən baxmağa vadar edib; xarici işlər naziri hakimiyyətin sərt qınağı ilə üzləşib; Diaspora Komitəsinin sədri artıq sabiq hesab edilir; Anar Məmmədovdan hesab sorulur: həm də təkcə xərclənmiş pulların deyil, yalanların da...



yazısı səh.5-də

# AXCP-dəki döyülmə faktının şok pərdəarxası...

Ağaşirin Tanrıverdioğlu "Yeni Müsavat"a sensasion faktlar açıqladı; Sahib Kərimli etdiyi zorakılığın səbəbini izah etdi

yazısı səh.10-da



### "Azərbaycanda anti-Qərb ovqatı" - Hikmət Hacızadənin yazısı

yazısı səh.7-də



*Bahar Muradova:*

### "Biz YAP olaraq imkan verməık..."

yazısı səh.6-da



### Rəsul Quliyevdən ateist açıqlamalar

yazısı səh.11-də

# 3 iyul 2015

## Ramil Usubov Polis Akademiyasında çıxış etdi



**“Artıq neçə illərdir ki, Azərbaycan asayişin və əmin-amanlığın qorunması sahəsində dünyanın ən öncül dövlətlərindəndir. Respublikamızda əhalinin hər 100 min nəfərinə düşən cinayətlərin sayı ötən 12 ildə orta hesabla 233 fakt olmaqla əksər dünya ölkələri ilə müqayisədə dəfələrlə azdır. Bu dövrdə cinayətlərin orta illik açılması 88 faiz olub, 4 mindən çox cinayətkar qrup və dəstə zərərsizləşdirilib, axtarışda olan 41 minə yaxın təqsirləndirilən şəxs tutularaq istintaq və məhkəmə orqanlarına təhvil verilib. Əllərdə qanunsuz saxlanılan 13 min odlu silah yığılıb və onların tətbiqi ilə törədilən cinayətlər əhəmiyyətli dərəcədə azalıb”.**

"Trend" xəbər verir ki, bunu daxili işlər naziri, general-polkovnik Ramil Usubov DİN-in Polis Akademiyasında 2 iyul - polis işçilərinin peşə bayramı münasibətilə keçirilən təntənəli tədbirdə deyib.

Daxili işlər nazirinin sözlərinə görə, məqsədyönlü profilaktik tədbirlər sayəsində qeydə alınan hüquqazidd əməllərin 89 faizini böyük ictimai təhlükə törətməyən və az ağır, yalnız 11 faizini ağır və xüsusilə ağır cinayətlər təşkil edir.

R.Usubov qeyd edib ki, 2014-cü il və cari ilin 6 ayı ərzində 65 min ərizə və şikayət araşdırılıb, eləcə də nazirliyin rəhbərliyi və struktur xidmətləri tərəfindən paytaxtda və respublikanın müxtəlif bölgələrində 5 minə yaxın vətəndaş qəbul edilib: “Bütün müraciətlər üzrə qanunvericiliyə uyğun zəruri tədbirlər görülüb, əksəriyyəti yerində həll olunub. Fəaliyətimizin keyfiyyətcə yeni müstəviyə yüksəlməsi, həyata keçirilmiş hərtərəfli islahatlar, innovasiya cinayətkarlığın, onun transmilli mütəşəkkil növlərinin təhdidlərinə möhkəm sipər çəkməyə, vətəndaşlarımızın qanuni mənafelərini etibarlı qorunmasına böyük imkanlar yaradıb”.

## Azay Quliyevin hazırladığı qətnamə layihəsi ATƏT PA-nın sessiyasının gündəliyinə salınıb

**Milli Məclis sədrinin müavini, Azərbaycan parlamentinin ATƏT-in Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Bahar Muradovanın başçılığı ilə deputatlarımız ATƏT PA-nın iyirmi dördüncü illik yay sessiyasında iştirak etmək üçün iyulun 4-də Finlandiyanın Helsinki şəhərinə səfərə yola düşəcəklər.**

Nümayəndə heyətinə Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov, İnsan hüquqları komitəsinin sədri Rəbiyyət Aslanova, Regional məsələlər komitəsinin sədr müavini Fəttah Heydərov, Milli Məclisin deputatı, ATƏT PA-da Siyasi məsələlər və təhlükəsizlik komitəsi sədrinin müavini Azay Quliyev və deputat Ağalar Vəliyev daxildirlər.

Daimi komitənin iclasında ATƏT PA-nın sədri İlkka Kanerva, qurumun baş katibi Spenser Oliver və digər rəsmi şəxslər çıxış edəcəklər. Komitədə qurumun maliyyə hesabatı dinləniləcək, bir sıra təşkilati məsələlərə baxılacaq, o cümlədən prosedura uyğun olaraq ATƏT PA-nın yeni baş katibi seçiləcək.

Plenar iclasda “Helsinki + 40: gələcəyin ATƏT-inin yaradılması” qətnamə layihəsinə baxılacaq, Rusiya Federasiyasının ATƏT çərçivəsindəki öhdəlikləri barədə fikir mübadiləsi aparılacaq.

Sessiya çərçivəsində ATƏT PA-nın Demokratiya, insan hüquqları və humanitar məsələlər, Siyasi məsələlər və təhlükəsizlik, İqtisadi məsələlər, elm, texnika və ətraf mühit üzrə Ümumi komitələrinin iclasları keçiriləcək. Həmin iclaslarda Azay Quliyev müəllifi olduğu “ATƏT regionundakı dövlətlərarası münasibətlərdə Helsinki prinsiplərinə hörmət” qətnamə layihəsini təqdim edəcək, daha sonra ekoloji çağırışlar, təhlükəsizliyin hərbi-siyasi aspektləri, insan alveri ilə mübarizədə cavabdehlik məsələləri müzakirə olunacaq. Silahlı münaqişələr nəticəsində itkin düşənlərin, həmçinin acınacaqlı vəziyyətə düşmüş qadın və qızların məsələsi gündəmə gətiriləcək. ATƏT bölgəsindən olan əcnəbi döyüşçülər-terrorçularla bağlı qanunvericiliyin kompleks islahatına diqqət yönəldiləcək. Beynəlxalq aləmdə neonasizm meyllərinin qarşısının alınmasına dair qurumun üzvləri tərəfindən birgə tədbirlərin hazırlanması və icrası barədə məruzələr dinləniləcək, diskussiya aparılacaq.

Milli Məclisin ATƏT Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Bahar Muradova və nümayəndə heyətimizin üzvləri qurumun bütün iclaslarında iştirak edəcək, komitələrdə müzakirəyə çıxarılan məsələlərə ölkəmizin maraqları mövqeyindən münasibət açıqlayacaq, rəy və təkliflərini bildirəcəklər.

Səfər iyulun 10-da başa çatacaq

“Elm” tədris mərkəzi

MAGIC LANGUAGES

- Ali məktəblər xarici dillər
- kompyuter kursları
- Magistratura - dövlət qulluğu - məntiq
- 1.C. mühasibat - anbar - bank işi
- Məktəbə qədər həftədə 5 dəfə
- Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# Rayon maşınları Bakıya axşam buraxılacaq

**Rayonlardan gələn bütün növ avtomobillər Bakıya saat 24:00-dan səhər saat 7:00-a qədər buraxılacaq.**



“Qafqazinfo” xəbər verir ki, bu barədə APA-ya açıqlamasında Nazirlər Kabinetinin Yol Hərəkətinin Təhlükəsizliyi Komissiyasının sədri Abid Şərifov deyib.

A. Şərifov rayonlardan Bakıya gələn ictimai nəqliyyatın şəhərə daxil olması ilə bağlı isə heç bir məhdudiyyətin olmadığını və olmayacağını söyləyib.

Qeyd edək ki, Bakı 2015 I Avropa Oyunlarında iştirak edən idmançıların, eləcə də tədbirə gəlmiş xarici qonaqların hələ də paytaxtda olmaları ilə əlaqədar Bakı Avropa Oyunları Əməliyyat Komitəsinin müraciətinə əsasən, Oyunlar ərəfəsində yol hərəkətinə tətbiq edilmiş müəyyən məhdudiyyətlərin vaxtı 10 gün müddətinə uzadılıb.

Oyunlar zamanı paytaxtda nəqliyyatın hərəkətinin təşkilindən, eləcə də nəqliyyat sıxlığının aradan qaldırılması nəticəsində yollardakı rahat və fasiləsiz hərəkətdən, habelə bunların şəhərin ekoloji durumuna da müsbət təsirindən məmnun qalan şəhər sakinlərinin çoxsaylı müraciəti əsasında Nazirlər Kabinetinin Yol Hərəkətinin Təhlükəsizliyi Komissiyası tərəfindən paytaxtda nəqliyyat problemlərinin həlli üzrə müvafiq Tədbirlər Planının hazırlanması üçün Komissiya üzvlərinin iştirakı ilə iclaslar keçirilir, müzakirələr aparılır.

A. Şərifov bildirib ki, 10 gün sonra Tədbirlər Planı qəbul ediləcək və bu sahədə digər məsələlər də tənzimlənəcək.

## Əlövsət Əliyev və digərlərinin məhkəməsi davam etdirilib

**Bakı Ağır Cinayətlər Məhkəməsində Azərbaycan Miqrasiya Mərkəzinin sədri Əlövsət Əliyev və digərlərinin cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib.**

APA-nın məlumatına görə, prosesdə təqsirləndirilən şəxslər ifadə veriblər. Onlar özlərini oğurluq ittihamı üzrə təqsirli bilmədiklərini, saxta sənəd hazırlamaqla bağlı isə təqsirli bildiklərini deyiblər.

Proses iyulun 10-da davam etdiriləcək.

İttiham aktına görə, təqsirləndirilən şəxslər Pənah Dadaşov, Namiq Camalov, Raqub İsbəndiyarov, Zeynəb Cəfərova, Şəfiqə Bağırova, Saçlı Həsənova, Pərvin Dadaşov, Rəvanə Dadaşova, Tahir Hüseynov, Günel Hüseynova, Adəm İsgəndərov və Ənnab İsgəndərovadır.

Həmin şəxslər Gülnarə Şəkinskayanın, eləcə də onun övladları - Həmidə, Məryəm, Nadiya və Cəvahir Şəkinskayaların dövlət sərhədini qanunsuz keçmələrinə yardım ediblər və bu məqsədlə cinayət əlaqəsinə giriblər. Bu məqsədlə G.Şəkinskaya keçmiş həyat yoldaşı Emin Şəkinskinin evindəki dəmir seyfdən 60 min manat pulu oğurlayıb.

Təqsirləndirilən şəxslər Cinayət Məcəlləsinin 177.3.2 (oğurluq), 320.1 (rəsmi sənədləri, dövlət təltiflərini, möhürləri, ştampları, blankları saxtalaşdırma, qanunsuz hazırlanma, satma və ya saxta sənədlərdən istifadə etmə) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz keçmə) maddələri ilə ittiham olunurlar.

Sözügedən cinayət işi üzrə təqsirləndirilən şəxslər - Gülnarə Şəkinskaya, onun qardaşı Fərid Yusub və Əlövsət Əliyev istintaqdan gizləndiklərinə görə barələrində axtarış elan olunub.

Qeyd edək ki, təqsirləndirilən Əlövsət Əliyev isə hazırda Almaniyada mühacirətdədir. Ə.ƏliyevVHP sədri, deputat, xalq şairi Sabir Rüstəmxanlının qardaşıdır.

## Yanğına görə tutulan rəisin həbsi uzadılacaq

**“Binəqədi rayonu, 72 saylı mənzil-kommunal istismar sahəsinin sabiq rəisi Nizami Orucovun barəsində açılan cinayət işi ilə bağlı konkret olaraq hər hansı istintaq hərəkatı aparılmır”. Bunu modern.az saytına Nizami Orucovun hüquqlarını müdafiə edən Anar Qasımlı deyib.**

O, Bakı İstintaq Təcridxanasında saxlanan keçmiş rəislə görüşdüyünü bildirib: “Səhhəti, saxlanma şəraiti normaldır, heç bir şikayəti yoxdur. Barəsində 3 aylıq həbs qətimkan tədbiri seçilib. Amma istintaq müddəti uzadıla bilər. Çünki istintaq yekunlaşmağa doğru getmir.

Nazim Orucov özünü bu işdə təqsirli bilmir. Onun nədə təqsiri var ki?! Bu, onun səlahiyyətinə aid olmayan bir məsələdir".

Mayın 19-da paytaxtın Binəqədi rayonu ərazisində çoxmərtəbəli yaşayış binasında ağır nəticələrə səbəb olmuş yanğın hadisəsi ilə bağlı Baş Prokurorluğun Ağır cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində cinayət işi başlanıb.

## Öpüşə görə öldürülən oğlanın sevgilisi danışdı

**Bakıda sevdiyi qızı məhəllədə opdüyünə görə öldürülən gəncin sevgilisi danışıb. “Qafqazinfo” xəbər verir ki, Nərimanov rayonunda öldürülən 25 yaşlı Nazim Ələkbərovun sevgilisi Aysel milli.az-a baş verənlər barədə yazıb:**

“Nazimin sevdiyi qız mənəm və o, məni ötürən zaman öldürülüb. Əzabdan ölürəm. Bizi bu dünyada ayırdılar. İki ay yarım idi ki, bir-birimizi görmürdük. Mənə zəng etdi ki, gəl səni görüm. Bulvarda oturduq, əlimi ürəyinin üstünə qoydu və dedi ki, bax, Aysel sən burdasan. Sonra gətirib evdə düşürdü məni. Dedim ki, sən get, mən özüm gedərəm, amma sözümə baxmadı. Biz blokda öpüşmədik. Yalan deyirlər. Sadəcə, onu qucaqlayıb evə getdim, 20 dəqiqə sonra eşitdim ki, bıçaqlayıblar. Nazimlə bir-birimizi çox sevirdik. Anası qoymur qəbrinə gedim. Dirisindən də ayırdılar, ölüsündən də. Nazim, səni çox sevirəm, o dünyada görüşərik”.

Xatırladaq ki, qətl hadisəsi Nazim Ələkbərov sevgilisi Ayseli evlərinə ötürərkən törədilib.

Bildirilirdi ki, N.Ələkbərov qızı məhəlləsində ötürüb, sağollaşarkən öpüşüblər. Qız gedən kimi həmin məhəllədə yaşayan 24 yaşlı Kamran Həsənzadə onun qarşısını kəsib. Məhəllədə öpüşməyi ona irad bildirərək qətlə yetirib.

## Sabiq şöbə müdirini döyən AXCP yetkilisini nə gözləyir?

### Müzəffər Baxış: “Sillə təsdiq olunarsa...”

**Xəbər verildiyi kimi, iyulun 1-də axşam saatlarında AXCP Rəyasət Heyətinin üzvü Sahib Kərimli qurumun sabiq şöbə müdiri Ağaşirin Tanrıverdioğlunu döyüb. Sabiq şöbə müdiri bununla bağlı polisə şikayət edib. S.Kərimli ona bir sillə vurduğunu bildirərək, baş vermiş hadisəni dolayısı yolla təsdiqləyib.**

2011-ci ilin 2 aprel hadisələrinə görə siyasi məhbus həyatı yaşayan AXCP yetkilisi yenidən həbs təhlükəsi ilə üzləşib. Bizimlə söhbətində Sahib Kərimli həbs olunacağına inanmadığını söylədi: “Həbs olunacağıma inanmıram. Amma hər şey ola bilər. Edilən şikayətlə bağlı mənə müraciət olunmayıb”.

Məsələnin hüququ tərəfini araşdırdıq.

**Hüquqşünas Müzəffər Baxış qanunvericilikdə belə hadisələr olan zaman nəzərdə tutulan cəza müdəaları ilə bağlı bunları dedi:** “Döymə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 38-ci maddəsi ilə tövsif olunan inzibati xətadır. Həmin inzibati xətaya görə, qanunda 500 manatdan 1000 manata qədər cərimə, iki ayadək həbs növündə tənbeh nəzərdə tutulub. Bu, inzibati qaydada olur. Əgər şikayət verəndən sonra tərəflər barışarsa, onda iş üzrə icraata xitam verilir. Sillə təsdiq olunarsa, yenə də İnzibati Xətalar Məcəlləsinin 38-ci maddəsi ilə inzibati həbs nəzərdə tutulur. Əvvəlcə iş məhkəməyə göndəriləcək. Məhkəmə də 500 manatdan 1000 manata qədər cərimə, yaxud iki aylıq inzibati həbs qərarı verə bilər”.

❑ Cavanşir ABBASLI

## Xüsusi istedada malik uşaqların vaxtından əvvəl I sinfə qəbulu başlayıb

**Təhsil nazirinin “Xüsusi istedada malik uşaqların vaxtından əvvəl I sinfə qəbulu Qaydaları”nın təsdiqi barədə 17.07.2013-cü il tarixli, 739 № -li əmrinin tələblərinə müvafiq olaraq Bakı şəhərində yerləşən və Bakı Şəhəri Təhsil İdarəsinin (BŞTİ) tabeliyində olan məktəblərdə 6 yaşı cari ilin sentyabrın 16-dan dekabrın 31-dək tamam olan uşaqların I sinfə qəbulu məqsədilə 1 iyul tarixindən elektron qeydiyyat başlayıb.**

BŞTİ-dən APA-ya verilən xəbərə görə, istedadlı uşaqların müsabiqədə iştirakı üçün qeydiyyat mektebeqebul.edu.az saytında aparılır və iyul ayının 31-dək davam edəcək.

Xüsusi istedada malik uşaqların vaxtından əvvəl I sinfə qəbulu üzrə müsahibələr iyul ayının 21-dən etibarən Bakı şəhəri 42 nömrəli tam orta məktəbdə aparılacaq.

Valideynlər (və ya qanuni nümayəndələr) mektebeqebul.edu.az saytında qeydiyyatdan keçərək, uşaq haqqında məlumatları saytda verilən formada doldurub müsahibəyə buraxılış vərəqini çap edə bilərlər. Buraxılış vərəqində uşağın müsahibəyə dəvət olunduğu tarix və vaxt göstəriləcək.

Təhsil nazirinin müvafiq əmrinə əsasən müəyyən edilmiş məktəblərdə fəaliyyət göstərən məktəbəhazırlıq kursunu bitirmiş şagirdlər isə mektebeqebul.edu.az saytından həmin kursu bitirdiyinə dair sertfikatı çap etməli, eyni zamanda məktəb seçməlidirlər. Kursu müvəffəqiyyətlə bitirərək sertifikat almış xüsusi istedada malik uşaqlar I sinfə müsahibədənkənar qəbul olunacaqlar.

Məktəbə qəbul üçün avqustun 15-dən etibarən valideynlər müvafiq sənədləri təqdim etməklə seçdikləri məktəbdə fəaliyyət göstərən işçi qrupuna müraciət etməlidirlər.

## Bakıda 45 yaşlı kişi intihar edib

**Bakıda intihar hadisəsi baş verib. Sabunçu Rayon Polis İdarəsinin 14-cü polis bölməsindən APA-ya verilən məlumata görə, hadisə Bilgəh qəsəbəsi, Üzeyir Hacıbəyov küçəsi, döngə 3, ev 15 ünvanında qeydə alınıb.**

Bakı şəhər sakini, 1970-ci il təvəllüdlü Firuz Balahüseyn oğlu Dadaşov özünü qaz borusundan asaraq öldürüb.

Faktla bağlı araşdırma aparılır.

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 143 (6171) 3 iyul 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# "Azərbaycanın neft gəlirləri yarıbayarı azalıb"

## İlham Şaban: "Həm OPEK-in, həm bir sıra beynəlxalq enerji agentliklərinin son günlər açıqladığı proqnozlara görə, yaxın müddətdə neftin qiyməti 55-70 dollar arasında dəyişəcək"

**2015-ci ilin ilk 6 ayı əsas gəlirləri neftdən olan Azərbaycan üçün əsl sınaq dönəmi oldu - neft bumu başlayandan ilk dəfədir ki, qiymətlər dünya bazarında bu qədər aşağı düşdü. Ancaq Azərbaycan neft pullarının "fontan vurduğu" dönəmlərdə başlatdığı layihələri dayandırmadı.**

*Təkcə yanvar ayı ərzində dövlət başçısı İlham Əliyev hökumətə iki dəfə neftin aşağı qiymətləri daxilində atılacaq addımlarla bağlı mesajlar verdi. Az sonra isə bəlli oldu ki, Azərbaycanın təbii qaz təchizatı ilə bağlı durum təsəvvür olunduğu kimi deyil - ölkədə təbii qaz qıtlığı var. Son bilgilərə görə, ilin sonunda Azərbaycan sənaye müəssisələrinin ehtiyacı üçün Rusiyadan qaz almağı planlaşdırır.*

*"Caspian Bareel" Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şaban "Yeni Müsavat"a müsahibəsində deyir ki, Azərbaycanda neft bumu artıq tarixə çevrilir, perspektiv planlar təbii qazla bağlıdır.*

***- İlham bəy, neft sektorunda nə baş verir, bu il üçün verilən proqnozlar özünü nə dərəcədə doğruldur?***

- Ötən ilin noyabr-dekabrında 2015-ci il üçün neftin orta qiyməti ilə bağlı müxtəlif ssenarilərdə verilən proqnozlara görə, 1 barelin qiyməti 52-57 dollar arasında dəyişməliydi. İlin başlanğıcı ümumiyyətlə bu proqnozları daha da bədbinləşdirdi - "Brent" markalı neftin orta qiyməti 48 dollardan da aşağı düşdü. Buna görə də artıq ilin əvvəlindən dövlət başçısı İlham Əliyev Azərbaycan hökumətinə xərcləmə siyasətində ehtiyatlı davranmaqla bağlı mesajlar verdi. Bu ilin büdcəsi tərtib olunanda enerji bazarında belə böhran yaranmamışdı və ona görə də xərclər ən yüksək həddə götürülüb - 21,1 milyard manat. I rübün yekunu olaraq "Brent" markalı neftin orta qiyməti 53,69 dollar, II rübün yekunlarına görə - 61,92 dollar olub. Bu ilin I yarımilini "Brent" dünya bazarlarında 57,81 dollarla başa vurub. Azərbaycan neftinin bazara çıxardığı neftin və kondensatın təqribən 85%-ni təşkil edən BTC FOB Ceyhan markası altında satılan neftin orta qiyməti isə təqribən 59 dollar ətrafında olub. Yəni ötən il verilən proqnozların optimist ssenarilərini də üstələyib.

***- Bəs ilin ikinci yarısı üçün proqnozlar necədir?***

- Həm OPEK-in, həm bir sıra beynəlxalq enerji agentliklərinin son günlər açıqladığı proqnozlara görə, yaxın müddətdə neftin qiyməti 55-70 dollar arasında dəyişəcək. Özü də bu dəyişmə ziqzaqvari ola bilər. Çünki Yunanıstandakı hadisələr və İrana qarşı sanksiyaların aradan qaldırılması birjaların durumuna təsir göstərəcək. Ehtimal var ki, bazarlarda bir stabillik ab-havası hökm sürəcək və neftin 1 barelinin orta qiyməti 62-65 dollar arasında dəyişəcək. Yəni neft qiymətlərində kiçik də olsa artım ola bilər.

***- Sizcə, neft qiymətlərinin proqnozları üstələməsi Azərbaycanın itkilərinin yerini doldura biləcəkmi?***

- Bu baxış bucağından asılıdır. Azərbaycan neftinin 2014-cü ilin yekunlarına görə orta ixrac qiyməti 101 dollar idi. Bu, yetərincə yüksək rəqəm idi və ölkəyə ciddi gəlirlər daxil olurdu. Əgər biz optimist proqnozdan çıxış etsək belə, Azərbaycan neftinin illik orta ixrac qiyməti təqribən 63 dollar olacaq. Yəni itkilərin yerinin doldurulması real deyil. 2014-cü ilin neft ixracında 86%-ı xam neft tutur. Çox təəssüf, Azərbaycan neft qiymətlərinin yetərincə yüksək olduğu illərdə xammal ixracını azaltmaq, bazara hazır məhsul çıxarmaq yönündə ciddi addımlar atmadı. Çox güman ki, yaxın illərdə də Azərbaycanın belə bir imkanı olmayacaq. Çünki əvvəlki illərlə müqayisədə Azərbaycanın gəlirləri daha azdır. Proqnozlar isə göstərir ki, neftin qiymətinin dünya bazarlarında artım tempi qarşıdakı illərdə zəif sürətlə baş verəcək.

***- Azərbaycanın neft yataqlarında durum necədir? Hasilatda azalma tendensiyaları varmı?***

- Azərbaycanda neft hasilatı azalır və bu, obyektiv səbəblərdən baş verir. İstənilən yataq ya qocalıq dövrünü yaşayır, ya da ehtiyatları intensiv işlədildiyindən hasilatın pik dövrü çoxdan arxada qalıb. Məsələn, "Azəri-Çıraq-Günəşli" yataqlarından 1997-ci ilin noyabrından indiyə qədər 370 mln. ton neft çıxarılıb. 2010-cu ildən bu yana yataqlarda azalma tendensiyası yaşanır. Azərbaycan geoloqlarının proqnozlarına görə, təkcə 2015-ci il üzrə ACG-də neft hasilatının 700-800 min ton aşağı düşməsi planlaşdırılıb. Hasilatın azalma prosesi bundan sonra hər il davam edəcək. Yəni neftin artan qiymətləri belə əslində azalan həcmləri kompensasiya etmək iqtidarında deyil. Bu bir reallıqdır.

***- Bu tendensiya rəqəmlərdə necə ifadə olunur?***

- 2014-cü ilin yekunlarına görə, Azərbaycan Dövlət Neft Fonduna "Azəri-Çıraq-Günəşli" yatağının işlənməsindən mənfəət şəklində 15,1 milyard vəsait daxil olmuşdu. Onu deyim ki, il ərzində "Şahdəniz" yatağının işlənməsindən gələn gəlirlərin məbləği 523 milyon dollar, Hasilatın Pay Bölgüsü sazişləri çərçivəsində işlənən digər yataqlardan gələn digər gəlirlər isə cəmi 32,1 mln. idi. İndi təsəvvür edin ki, neftin qiymətlərinin düşməsi və hasilatın azalması kimi amillərə görə Dövlət Neft Fonduna 2015-ci ilin 5 ayında "Azəri-Çıraq-Günəşli" yataqlarından daxilolmaların həcmi 3 milyard 71 milyon dollar olub. Bu o deməkdir ki, il ərzində qiymətlər müəyyən qədər artarsa belə, AÇG-dən gələn gəlirlər 7 milyarddan çox olmayacaq. "Şahdəniz" və digər fondun gəlirləri ilə birlikdə 8 milyard dollar proqnoz etmək olar. Ancaq ötən il Neft Fondunun ümumi gəlirləri 16 milyard dollardan çox idi. Yəni bu il Azərbaycanın mənfəəti yarıbayarı azala bilər.

***- Hökumət risklərin azaldılması, yeni itkilərə yol verilməməsi üçün nələr edə bilər?***

- Fikrimcə, hələlik yaxın və orta perspektivdə neft sənayesinin diversifikasiyası - yəni gəlirlərin idarə edilməsi, riskləri azaldılması üçün görülən tədbirlər elə bu sənayenin içərisində gedəcək. Hələ iqtisadiyyatın heç bir qolu neft sənayesi ilə nəinki yanaşı durmağa, heç onun kölgəsi səviyyəsinə belə çatmağa qadir deyil. Nefti qismən qaz əvəzləyəcək, Azərbaycanda tamamən qaz-komya sənayesi ortaya çıxa bilər.

***- Azərbaycanın öz təbii qazını dünya bazarına çıxarması neft qədər siyasi və iqtisadi gəlirlər vəd edirmi?***

***(Davamı növbəti sayımızda)***

❑ **Aygün MURADXANLI**

# Mətanət Əsədova, müxalifət və siyasi məhbus problemi



**Azər RƏŞİDOĞLU**

**Rəsmi Bakı təzyiqlərdən yaxa qurtarmaq istəyirmi? Bu ritorik suala cavab birmənalı olduğu kimi təzyiqlərin səbəbi də müxtəlifdir. Lakin əksər hallarda təzyiqlər "siyasi məhbuslara azadlıq" tezisi ilə yekunlaşır.**

Bu gün həbsdə olan siyasi məhbusların arasında ağır xəstə olanları var. Onların həyatı üçün dövlət cavabdehdir. Digər tərəfdən, dövlət vətəndaşı azadlıqdan məhrum edərkən, öz üzərinə müəyyən öhdəliklər də götürmüş olur. Məsələn, bu halda dövlət vətəndaşın şəxsi həyatına onun özünün razılığı olmadan müdaxilənin qarşısının alınması ilə bağlı da məsuliyyət daşıyır. Yaxşı olardı ki, hakimiyyət bu insanları azad edərdi və baş verə biləcək fəsadlardan indidən özünü sığortalayardı.

Biz əcaib dövrdə yaşayırıq. Haqqında bol-bol, özü də yerli-yersiz boşboğazlıq etdiyimiz milli mentalitet adlanan ənənəvi etik dəyərlər sistemi əslində zibilliyin bir küncünə atılıb. Rəhbərə kölə sədaqətin nümayişi hər şeydən önəmlidir, vacibdir. Dövlət idarələrində də belədir, müxalifət partiyalarında da. Hətta bu anomaliya üçün utanc hissindən belə əsər-əlamət yoxdur. Bir çoxları böyük şərəf və fərəhlə əxlaqsızlıqlarını topluma nümayiş etdirirlər.

Lakin belə davam edə bilməz. Görünən budur ki, iqtidar sərt idarəçiliyi davam etdirmək niyyətindədir. Yəqin ki, bundan sonra da "vintləri sıxmaq"da israrlı olacaq. Siyasi məhbusların azad olunması günbəgün artan sosial narazılıqlar fonunda protest elektoratına əlavə impuls verə bilər. Digər tərəfdən, hakimiyyət, o cümlədən də cəmiyyət üçün siyasi məhbus problemi önəm daşımır. Görünən budur ki, iqtidar özünə arxayındır. Lakin son hadisələr - binada baş verən yanğın, qiymət artımı, bölgələrdəki ayrı-ayrı fərdlərin əsəb partlayışları ciddi problemlər yarada və iqtidarda mərkəzdənqaçma tendensiyalarını gücləndirə bilər. Hiss edilən budur - ölkə böhrana girir. Bu böhranın sonu hər kəs üçün acınacaqlı ola bilər.

Faktiki olaraq bu gün Azərbaycan əhalisini inandırmağa çalışırlar ki, hər şey yaxşıdır, hər şey sizin maraqlarınız üçün edilib, heç bir problem yoxdur və hətta bundan sonra daha yaxşı olacaq. Odur ki, ehtimal etmək olar ki, hansısa siyasi məsələlərdə güzəşt, yumşalma ola bilər. Digər tərəfdən, hakimiyyət məhz bu ərəfədə iqtidar-müxalifət dialoqu təşəbbüsü ilə çıxış edə bilər. Lakin bu addım da effekt verə bilməz. Ən azından ona görə ki, vətəndaş cəmiyyətinin əsas aparıcı şəxsləri həbsxanadadır. Bütün bu detalları nəzərə alaraq, qərara gəlmək olar ki, hakimiyyətin yumşalmaya getmək üçün əsası da yoxdur. Çünki faktiki olaraq, bütün opponent düşərgəni neytrallaşdırıb.

Bu gün insanlarda sabahlarına bir inamsızlıq var. Devolvasiyanın baş verməsi ərəfəsində hakimiyyət insanları inandırırdı ki, heç bir şey baş verməyəcək. Belə olan halda, əlbəttə ki, hakimiyyətə münasibət neqativ olacaq.

Ancaq neqativ münasibətdə olan əhalinin istinad nöqtəsi yoxdur, varsa da çox zəifdir.

Mətbuatdakı və sosial şəbəkələrdəki dinamikaya nəzər yetirək. Toy müğənniləri Mətanət Əsədova və Manaf Ağayevin son efir qalmaqalı ictimai diqqət baxımından müxalifətdən və siyasi dustaq problemindən daha aktual oldu. Deməli, siyasi dustaq məsələsi və ya müxalifətin problemləri bütövlükdə cəmiyyət üçün o qədər də aktual deyil. Çünki cəmiyyətlə siyasi kəsim arasında böyük bir uçurum yaranıb, əlaqələr itib. Cəmiyyət bu məsələlərə nəinki biganədir, onun sadəcə olaraq, bu barədə bilgisi yoxdur. Belə bir boşluğun yaradıldığı şəraitdə, müxalifət düşərgəsinin zəiflədilməsi, vətəndaş cəmiyyətinin sıradan çıxarılması fonunda radikal cərəyanlar meydana çıxa və yoxsullaşmış, narazı əhali arasında daha ciddi dayaqlar əldə edə bilərlər. Bu, artıq Manaf Ağayev və Mətanət Əsədova qalmaqalından daha ciddidir...



YENİ MÜSAVAT
N 143 (6171) 3 iyul 2015

# Əfv ümidləri Ramazan bayramına qaldı

**Son aylar gündəmdə olan məsələlərindən biri də əfv oldu. Hələlik ümidlər özünü doğrultmayıb. May-iyun aylarında əfv sərəncamının veriləcəyi barədə söz-söhbətlər gəzsə də, bu, təsdiqini tapmadı. Çoxları Avropa Oyunları öncəsi bir sıra siyasilərin azad olunacağını düşünürdü. İndi də əfv ümidləri Ramazan bayramına qalıb.**



Heç şübhəsiz ki, siyasi məhbuslar Azərbaycan hakimiyyətinin başağrısına çevrilib. Xüsusilə Avropa Oyunları və yarışmanın keçirildiyi müddətdə AŞ PA-nın yay sessiyasında iqtidar çətin anlar yaşadı. Amma o da bir reallıqdır ki, Azərbaycan hakimiyyəti təzyiqlər olduqda daha çox dirəniş göstərmək yolunu seçir. Bununla bir növ tam müstəqil olduğunu, diktəni qəbul etmədiyini bütün dünyaya nümayiş etdirir...

**İnsan Haqları üzrə Birgə İşçi Qrupunun üzvü Novella Cəfəroğlu da xarici təşkilatların Azərbaycana qarşı olan təzyiqlərinin əleyhinədir. Hüquq müdafiəçisi hesab edir ki, bu cür təzyiqlər məhbusların işini daha da ağırlaşdırır:** “Azərbaycan üçün siyasi məhbus problemi olmaya bilərdi. Amma Avropa ölkələri və təşkilatları Avropa Oyunlarını siyasi məhbuslarla əlaqələndirirlərsə, bu doğru deyil. Neçə illərdir biz bunun şahidi olmuşuq ki, Azərbaycana qarşı nə qədər çox təzyiq olanda, hakimiyyət daha çox sərt qərarlar verir. Hesab edirəm ki, hakimiyyət siyasi məhbus məsələsini çoxdan bitirməli idi. Ölkəmiz üçün bu, uğur gətirməyən məsələdir. Məni narahat edən odur ki, Avropa ölkələri Azərbaycandakı məhbuslar probleminə toxunanda konkret ad çəkirlər. Sözsüz ki, adıçəkilən məhbuslar da azad olunmalıdır. Amma bir dəfə də olsun Tofiq Yaqublu, Yadigar Sadıqov, Fərəc və Sirac Kərimlilərin adları çəkilmir. Bunların hamısı sırf siyasidilər. Pul almayan siyasilərdir. O birilər qrant alan QHT-lər idilər. Bizi çox narahat edən məsələlərdir. Görüşlərimizdə biz bu məsələni daha çox qabardırıq. Siyasi məhbuslar bu günə kimi buraxılmalı idi ki, basqılardan azad olaq. Amma bu cür basqılar düzgün deyil. Elə insanlar təzyiq edir ki, onlara hörmətim yoxdur. Bizə verilən məlumatlara görə, əfv olmalı idi. Oyunlardan əvvəl və sonra deyilirdi. Yenə də gözləyirik. Nə qədər tez olsa, Azərbaycan üçün xeyirli olar”.



**Novella Cəfəroğlu:** “Basqılardan azad olaq”



**Səadət Bənəniyarlı:** “Hər iki tərəfi razı salan addımlar atılmalıdır”

**Hüquq müdafiəçisi əfvin uzanmasında məmurları günahkar çıxardı:** “Burada əsas günah məmurların üzərindədir. Qəsdən uzadırlar. Azərbaycan, ümumiyyətlə, bütün siyasətində müstəqil olduğunu göstərdi. Avropa Oyunları Azərbaycan üçün vacib bir proses idi. Guya Ermənistanda siyasi məhbus yoxdur? Amma Azərbaycana olan təzyiqlər niyə onlara edilmir? Niyə Avropa Şurasında daim Azərbaycana baxırlar? Digər siyasi məhbus olan ölkələrə də təzyiqlər olmur? Bir vətəndaş olaraq, bu mənə ağır təsir edir. Dünyanın əksər yerlərində bu problem var. Bu məsələnin bitməsi üçün siyasi məhbus problemini həll etmək lazımdır. Görək bundan sonra ölkəmizə nə təzyiqlər olacaq. Mən olsaydım, belə addım atardım”.

**Hüquq müdafiəçisi Səadət Bənəniyarlı bu aydan əfv gözləntilərini bildirdi:** “Ramazan ayı hamı üçün müqəddəs aydır. Gözləyirik ki, bu ayda belə bir fərman verilsin. Siyasi məhbuslar təbii ki, bir problemdir. Avropa Şurası ilə Azərbaycan arasında da müəyyən problemlərin yaranmasına səbəb oldu. Hər iki tərəfi razı salan addımlar atılmalıdır. Atılmasa, ölkəmiz üçün elə də xoşagələn hadisə olmayacaq. Siyasi məhbus probleminin həlli bir çox məsələləri yoluna qoyardı. Buna çox ehtiyac var. İşçi Qrupu hazırda fəaliyyətini davam etdirir. Yaxınlarda bir tədbir keçirməyi planlaşdırırıq. Keçirilərsə, mətbuata xəbər ediləcək”.

❑ Cavanşir ABBASLI

## Sumqayıt sələfilərinin liderinə 13 il həbs cəzası verildi



**İyulun 2-də Bakı Ağır Cinayətlər Məhkəməsində Azərbaycanın Sumqayıt şəhərində sələfilərlə xəvariclər arasında baş vermiş silahlı münaqişə ilə bağlı həbs edilən Elşən Musayevin məhkəmə prosesi yekunlaşıb.**

APA-nın məlumatına görə, məhkəmənin hökmü ilə Elşən Musayev 13 il müddətinə azadlıqdan məhrum edilib.

Qeyd edək ki, 2013-cü il, dekabrın 11-də Sumqayıt şəhərində dini baxışları fərqli olan iki qrup arasında dava baş verib. Hadisədə təqsirli bilinən xəvariclərin əmiri, “Mamed” ləqəbli Elçin Əkbərov, sələfilərin lideri, “Hamza” ləqəbli Elşən Musayev, habelə Əhməd Salmanov, Anar Mirzəyev, Zaur Paşayev, Elmar Məmmədli, Murad Məhərrəmov, Anar Rəhimov, Firudin Musayev, Vüqar Abdullayev, Amil Tağıyev, Elçin Mirzəyev, Cəlal Mikayılov, Kənan Mehrəliyev, Elnur Nəzərəliyev və Vüqar Xəlilov həbs olunublar.

Onlar Cinayət Məcəlləsinin 221 (xuliqanlıq), 228 (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 29, 120.2.4 (qəsdən adam öldürməyə cəhd) və 234-cü (qanunsuz olaraq narkotik vasitələr əldə etmə, daşıma, saxlama, göndərmə və ya satma) maddələri ilə ittiham olunublar. Onu da qeyd edə ki, digər təqsirləndirilən şəxslərə bir müddət əvvəl hökm oxunub. Lakin E. Musayevin cinayət işi isə ayrıca icraata verilib.



## Bu gün Beynəlxalq Bankda mühüm toplantı olacaq

**İyulun 3-də Azərbaycan Beynəlxalq Bankının Müşahidə Şurasının iclası keçiriləcək.**

“APA-Economics” xəbər verir ki, bunu jurnalistlərə maliyyə nazirinin müavini, bankın Müşahidə Şurasının sədri Azər Bayramov deyib.

Bankın İdarə Heyəti sədri vəzifəsinə yeni təyinatın nə zaman baş tutacağı ilə bağlı suala Müşahidə Şurasının sədri bu cür cavab verib: “İdarə Heyəti sədrinin kimliyi və onun nə zaman təyin olunacağı əsas məsələ deyil. Əsas olan bankın yaxşı inkişaf etməsidir”.

Onun sözlərinə görə, iclasın yekunları ilə bağlı mətbuata və ictimaiyyətə əlavə məlumat veriləcək.

Bundan başqa, Müşahidə Şurasının sədri qeyd edib ki, bu ay ərzində bankın səhmdarlarının ümumi yığıncağı keçiriləcək. “Həmin yığıncaqda da mühüm qərarlar qəbul olunacaq”, - deyə o qeyd edib.

# YAP-ın namizədlər siyahısı ilə bağlı ilginc xəbərlər

## Hakim partiyanın siyahısının təxminən 70 faizinin yeniləndiyi bildirilir

**“Azadlıq-2015" seçki bloku qarşıdan gələn parlament seçkiləri ilə bağlı deputatlığa namizədlərin müəyyənləşdirilməsinə start verib. İki gün öncə blokun Sədrlər Şurasının iclası olub və iclasda ölkədəki ictimai-siyasi vəziyyət, qarşıdan gələn parlament seçkiləri, qarşıda duran vəzifələr müzakirə edilib. 1 noyabrda keçiriləcək parlament seçkilərini müzakirə edən blokun Sədrlər Şurası "Azadlıq-2015" seçki blokunun deputatlığa namizədlərinin siyahısı üzərində müzakirələr aparıb və müəyyənləşdirilmiş deputatlığa namizədlərlə görüşün keçirilməsi barədə qərar qəbul edilib.**




Sədrlər Şurası eyni zamanda Milli Məclisə seçkilərin bütün mərhələləri üzrə demokratik qüvvələrin vahid monitorinq mərkəzinin yaradılması təşəbbüsü ilə digər siyasi və ictimai sektor təsisatları ilə məsləhətləşmələrin aparılmasını məqsədəuyğun sayıb.

Blok üzvləri həmçinin bu həftə ərzində bir sıra xarici ölkə səfirlikləri ilə keçiriləcək görüşlərlə bağlı fikir mübadiləsi aparıblar.

Qeyd edək ki, “Azadlıq-2015" blokuna KXCP, AXP, Aydınlar, Azadlıq, ALDP, VİP, Böyük Azərbaycan və Azad Demokratlar Partiyası daxildirlər. Blokdakı partiyaların sədrlərinin konkret hansı dairələrdən namizəd olacağı barədə isə hələ ki açıqlama verilmir. Bildirilir ki, partiya sədrlərinin bir neçəsi namizəd olacağı dairəni müəyyənləşdirsə də bəziləri bu istiqamətdə yekun qərara gəlməyiblər.

**Blokun Sədlər Şurasının üzvü, VİP sədri Əli Əliyev bildirdi ki, “Azadlıq-2015" seçki bloku qarşıdakı 10 gün ərzində aktivlik nümayiş etdirəcək:** ”Blokda bir sıra hazırlıq işləri aparılmaqdadır. Artıq seçki qərargahı formalaşdırmışıq. Blokda təmsil olunan partiyalar hazırda əsasən namizədləri müəyyənləşdirməklə məşğuldurlar. Seçki təqviminə uyğun olaraq müvafiq tədbirlərimizi keçirəcəyik. Son aylarda ictimaiyyətin diqqəti Avropa Oyunlarına yönəlmişdi. İndi artıq oyunlar yekunlaşıb. Düşünürəm ki, cəmiyyətdə tədricən seçki ab-havası yaranacaq. Oyunların yaxşı mənada gurultulu təbliğatı fonunda seçki tərəfdarlarının səsi aydın hiss olunmurdu. Biz də bu mühitə uyğunlaşdıq. Çünki Avropa Oyunları iqtidarın tədbiri deyil. Bu bizim dövlətimiz, ümummilli maraqlarımız üçün lazımlı bir layihə idi. Hesab edirəm ki, elə bu cür də olmalı, yəni təbliğatın aparılması lazım idi. Bizim partiyada da namizədlərin müəyyənləşdirilməsi prosesi gedir. Artıq 40-a yaxın namizədimiz təsdiq olunub. Avqust ayının sonunda seçki blokumuzun ümumi siyahısı hazır olacaq".

Bu arada hakim Yeni Azərbaycan Partiyasının da deputatlığa namizədlər siyahısını hazırladığı barədə xəbər yayılıb. İstiqlal.az saytının YAP-dakı mənbəyə istinadən yaydığı xəbərə görə, Azərbaycan prezidenti, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyevin 2015-ci il 1 noyabr parlament seçkilərində hakim partiyanı təmsil edəcək namizədlərin siyahısını hazırlamaq tapşırığı artıq icra edilib. Mənbənin sözlərinə görə, YAP-ın namizədlər siyahısı yeni kriteriyalar üzrə hazırlanıb. Bu kriteriyalar əsasında aşağıdakı qruplar birmənalı olaraq siyahıya düşməyiblər. **1.** Universitet rektorları, eləcə də təsərrüfat fəaliyyəti göstərən müəssisələrin rəhbərləri; **2.** Biznesmenlər, bank rəhbərləri; **3.** 4 dəfə deputat seçilmiş və yaşı 70-dən yuxarı şəxslər; **4.** Seçildiyi dövrdə danışmayan, hakimiyyətin siyasətini müdafiə edə bilməyən şəxslər.

**Saytın yazdığına görə, bu kriteriyalar istisnasız olaraq hamıya tətbiq ediləcək və siyahının təxminən 70 faizi yenilənib:** “YAP rəhbərliyinin monitorinqinə görə, YAP-çı deputatların cəmi 8 nəfəri fəal olub, hakimiyyətin siyasətini təbliğ və müdafiə etməyi bacarıb, qalanlarının fəaliyyəti isə passiv olub və partiyaya heç bir divident gətirməyib. Yeni siyahıda bu şəxslərə yer olmayıb. Ümumilikdə isə hökuməti müdafiə edən 70 deputat siyahıdan kənarda qalıb. Yeni namizədlər əsasən gənclər arasından seçilib. Onların arasında hökuməti müdafiə edən KİV və QHT rəhbərləri, YAP-ın gəncləri də var. Eyni zamanda əyalətlərdə əhali arasında nüfuzu olan şəxslərə üstünlük verilib”.

Sayt öz informasiya mənbəsinə əsaslanaraq qeyd edib ki, YAP-ın deputatlığa namizədlər siyahısı yaxın dövrlərdə rəsmən açıqlanacaq. İndiki parlamentdə komitə sədri və sədr müavinləri postunu tutan xeyli şəxs siyahıdan kənarda qalıb. Kənarda qalan şəxslərin bəzilərinə vəzifə veriləcək.

Eyni zamanda bu yeni siyahının siyasi sistemdə islahatların anonsu olacağı da deyilir.

❑ E.SEYİDAĞA

# Avropa və Amerikadakı fiaskoya görə kimlər cavab verəcək?

**Rusiyada iqtisadi böhran və dünya bazarında neftin qiymətinin sürətlə ucuzlaşmasının Azərbaycana da ciddi təsir edəcəyi ilə bağlı iddialar doğruldu. "Yeni Müsavat" dekabr ayında bu mövzuda bir neçə manşet yazısı dərc etmişdi. Neftin dünya bazarında sürətlə ucuzlaşmasının Azərbaycan hökumətinin arxayın bəyanatlarına baxmayaraq, ölkə iqtisadiyyatına təsirsiz ötüşməyəcəyi aydın idi.**



# İqtidarın hədəfindəki üç soyad: Məmməd(yar)ov, İbrahimov...

Rəsmi Bakıya yönəlik anti-təbliğatın arxasında erməni lobbisinin dayanmasının faktlarla sübutu iqtidarı xarici siyasət və diaspora siyasətinə yenidən baxmağa vadar edib; xarici işlər naziri hakimiyyətin sərt qınağı ilə üzləşib; Diaspora Komitəsinin sədri artıq sabiq hesab edilir; Anar Məmmədovdan hesab sorulur: həm də təkcə xərclənmiş pulların deyil, yalanların da...

Avropa Oyunları ərəfəsi Azərbaycana total hücumların güclənməsi, beynəlxalq QHT-lərin bəzilərinin rəsmi Bakıya yönəlik təşkil etdiyi anti-təbliğatın arxasında erməni lobbisinin dayanmasının faktlarla sübutu iqtidarı xarici siyasət və diaspora siyasətinə yenidən baxmağa vadar edib. Hələ bir neçə il öncə prezident İlham Əliyev xaricdəki səfirlərimizlə Bakıdakı illik toplantısında bəyan etmişdi ki, Azərbaycan diplomatiyası müdafiədən hücum diplomatiyasına keçid etməlidir. Bundan sonra Azərbaycan diplomatiyası həqiqətən uğur qazanmağa başladı, xüsusilə Qarabağ məsələsində Ermənistanküncə sıxışdırıldı.

Rusiya-Qərb münasibətlərinin kəskin pisləşməsi Azərbaycanı öz yanında görmək istəyən beynəlxalq güclərin hədəfinə çevirdi. Azərbaycan Rusiya ilə toqquşmaq siyasətindən imtina etdiyi üçün daha çox Qərblə üz-üzə gəldi ki, bu fürsətdən məkrli erməni lobbisi istifadə etdi, rəsmi Bakıya təzyiqləri tətikləyə bildi. Bu hücumların qarşısını almağa məsul olan Azərbaycanın Xarici İşlər Nazirliyinin və Diasporla İş üzrə Dövlət Komitəsinin üzərinə ciddi məsuliyyət düşür. Amma Avropa Oyunları zamanı iqtidara hücumların artması, yarışların davam etdiyi müddətdə AŞ PA, Almaniya Bundestaqının qətnaməsi, ABŞ Dövlət Departamentinin illik hesabatı bir daha göstərdi ki, rəsmi Bakı xarici siyasətində və diaspora işində təcili dəyişikliklər etməlidir.

***

Xarici işlər naziri Elmar Məmmədyarovun hakimiyyətin sərt qınağı ilə üzləşdiyi barədə ötən saylarımızda məlumat vermişdik. Məlumatlara görə, Azərbaycanı Avropa ölkələrində təmsil edən səfirlərin çoxu yaxın vaxtlarda geri çağırılacaq. Buna səbəb onların etimadı doğrulda bilməməsidir. Adı "qara siyahı"da olan Avropadakı səfirlər sırasında Avropa İttifaqındakı səfir Fuad İsgəndərov, Azərbaycanın Fransadakı səfiri Elçin Əmirbəyov, Azərbaycanın Almaniyadakı səfiri Pərviz Şahbazov və başqalarının adı çəkilir.

"Köhnə qitədəki" bir çox səfirlərin əsas "işi" Azərbaycandan gələn dövlət nümayəndələrini və deputatları mehmanxanada yerləşdirməklə yekunlaşır. Bu isə Ermənistanın səfirlərini və erməni diasporunun əl-qolunu açır, Azərbaycana qarşı qərəzli məqalələr, hesabatlar hazırlanır. Bu işdə nazir kimi təşkilatçılıq bacarığı olmayan E.Məmmədyarovun məsuliyyəti böyükdür. Onun bu ərəfədə də xarici işlər naziri kimi bir etiraz bəyanatı verməməsi də diqqət çəkəndir.

Nazirin əvəzlənəcəyi ilə bağlı xəbərlər son günlər daha da artıb. Amma sırada o tək deyil...

***

Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimovun da başının üzərini qara buludlar alıb. N.İbrahimov 2002-ci ildən Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin, 2008-ci ildən isə Diasporla İş üzrə Dövlət Komitəsinin sədridir.

Azərbaycanın xarici ölkələrdəki diaspora qurumlarına cavabdeh olan, hər il bu işə milyonlarla dövlət vəsaiti xərclənən Diasporla İş üzrə Dövlət Komitəsinin də fiaskosu göz önündədir. Söhbət hakimiyyəti müdafiə etməkdən və ya Avropa Oyunlarının təbliğindən getmir. Bu komitənin işi hökuməti deyil, xaricdə Azərbaycanın maraqlarını müdafiə etməkdir. Qərbin ciddi təzyiqləri, ermənilərin də barmağı olan QHT-lərin anti-Azərbaycan hücumları qarşısında Diasporla Komitəsinin fəaliyyəti görünmədi və bu da iqtidarı ciddi narazı salıb. N.İbrahimovun diaspora təşkilatları ilə dövlət büdcəsindən ayrılan vəsaitlərin "bölüşdürülməsində" olan narazılığa toxunmuruq. Halbuki diaspora işi birbaşa maliyyəyə bağlıdır.

Azərbaycan diasporunun ən geniş təmsil olunduğu Avropa ölkələrindən biri Almaniyadır. Burada onlarla Azərbaycanın diaspora təşkilatları fəaliyyət göstərir, jurnallar, qəzetlər, broşürlər dərc edilir, dövlətin pulu xərclənir. Amma bu qurumların Almaniya hökumətinin və parlamentinin qərarlarına zərrə qədər də təsir imkanları yoxdur. Niyə sualı ətrafında müxtəlif fikirlər ola bilər, hətta Azərbaycan iqtidarının siyasi məhbuslar məsələsində inadkarlığını da söyləmək olar. Amma bu təkcə Azərbaycan iqtidarı məsələsi deyil. Ölkənin maraqlarını da təhdid edilirsə, XİN-də, Diaspora Komitəsi də məsuliyyət daşıyır.

Yeri gəlmişkən, Azərbaycan səfirlərinin bəziləri qonaq qarşılayıb yola saldığı kimi, Diaspora Komitəsinin də bəzi "diaspor təşkilatları"nın xüsusən Avropada bizneslə məşğul olması da yenilik deyil. Şərqi Avropada və Rusiyada meyvə-tərəvəz, Mərkəzi Avropada parfümeriya-geyim biznesində N.İbrahimovun "diaspor təşkilatlarının" ciddi paya sahib olduğu deyilir. Diaspora işinə pul lazımdır, amma dövlətin diasporaya ayırdığı pulu kimlərinsə biznes şəbəkəsinə yönəltmək...

N.İbrahimovun bacarıqlı iş adamı olduğu sirr deyil, onun erməni lobbisinin daha çox "burnunu uzatdığı" Avropada hotel, Londonda daşınmaz əmlak biznesinə sərmayə yatırdığı iddia olunur. Nazim İbrahimovun səsi o qədər də güclü gəlməyən qardaş Türkiyədə də lobbi işini deyil, biznesini daha bacarıqla yürütdüyü iddia edilir.

Xəbərlərə görə, N.İbrahimov kadr dəyişikliyi olacağı təqdirdə işdən çıxarılacaq nazirlər sırasında ilk üçlükdədir, bəlkə də birincidir. Onun başqa bir biznesmen qardaşının - Hacı İbrahimin Beynəlxalq Bankda kredit qalmaqalına görə həbsi *(indi borcların tam qaytaracağı şərti ilə azadlıqdadır)*, qaynının intiharı da komitə sədrinin mövqelərini daha da laxladıb.

İddiaya görə, onun intihar edən qaynının hüzr mərasiminə hökumət üzvləri diqqətsiz yanaşıb, hətta ən xırda məmur belə başsağlığına gəlməyib. Bu barədə xəbər verən istiqlal.az saytı yazıb ki, "Nazim İbrahimov artıq sabiq hesab edilir və məmurlar qələmi qırılmış komitə sədrinin yanında görünmək istəmirlər".

***

Azərbaycanın münasibətlərinin gərgin olduğu ABŞ-dakı səfirliyimizin fəaliyyəti də ciddi müzakirə edilir. Doğrudur, ciddi maliyyə dəstəkləri olan erməni lobbisini ABŞ-da üstələmək çətindir. Bu obyektiv səbəbləri iqtidar da yaxşı bilir. Amma Azərbaycanın Amerikada təbliğinə xərclənən milyonlarına məsul olan daha bir fiqur da var. Azərbaycan-Amerika Alyansının rəhbəri Anar Məmmədov. Son vaxtlar təbliğatı xeyli zəifləyən Alyansın da "gördüyü işlər" tam bir fiasko kimi qiymətləndirilir. Hakimiyyət üçün ABŞ-la münasibətlər hər zaman önəmli olub və daha çox da bunun qeyri-rəsmi tərəflərinə diqqət edilib. İllər uzunu da bu münasibətlərin qeyri-rəsmi səviyyədə nizamlanmasına üstünlük verilib. Amma görünür ki, Ağ Evlə münasibətlər bir yana, heç qeyri-rəsmi münasibətlərdə də ABŞ-dan elə bir real dəstək almaq mümkün olmur. Bu uğursuzluqda isə təkcə səfirliyin və Diaspora Komitəsinin deyil, Amerikada keçirilən yemək-içmək tədbirlərinə milyonlar xərcləyən Azərbaycan-Amerika Alyansının məsuliyyəti də var ki, iqtidar indi bu məsələləri də araşdırır. Məlumata görə, təkcə nazir oğlu deyil, xarici siyasətin bir çox pul yeyənləri də indi çıxılmaz vəziyyətdədir.

Hakimiyyət hesab sorur, təkcə xərclənmiş pulların deyil, həm də yalanların...

❑ **"Yeni Müsavat"**

# "AST Telman" borca görə torpağını verdi

## Biznesmen Moskvada 10 ildir mülkiyyətçisi olduğu ərazini ödəyə bilmədiyi borclarına görə "Luazo Corporation" şirkətinə verib



**Azərbaycan əsilli yəhudi oliqarx Telman İsmayılovun AST şirkətlər qrupuna daxil olan "KBF AST" ASC Moskvanın Nikitsk bulvarı, 6/20 ünvanında hotel inşası layihəsini ləğv edib.**

Virtualaz.org saytı xəbər verir ki, buna səbəb biznesmenin hotel tikintisi üçün aldığı torpaq sahəsini borca görə Kiprdə qeydiyyatdan keçmiş offşor şirkətə verməsidir.

"Vedomosti" qəzetinin Moskva hökumətindəki mənbəyə istinadən yaydığı xəbərə görə, T.İsmayılov 27 min kvadratmetrlik hotel kompleksinin tikintisi üçün nəzərdə tutulan və 10 ildir mülkiyyətçisi olduğu ərazini ödəyə bilmədiyi borclarına görə "Luazo Corporation" şirkətinə verib.

Mənbə deyib ki, 2009-cu ildə "Çerkizovsk" bazarının bağlanmasından sonra AST şirkətlər qrupu üçün vəziyyət dəyişməyə başlayıb və holdinqin maliyyə göstəriciləri durmadan pisləşib.

"Luazo Corporation" şirkəti "AST Group"un partnyorudur. T.İsmayılovun bu şirkət qarşısında nə qədər borc öhdəliklərinin olduğu göstərilməyib. Moskvadakı torpaq sahəsinin borca görə verilməsi sövdələşməsinə əsasən həmin ərazinin 45 faizi "Luazo Corporation"un mülkiyyətinə keçib, 53,5 faizi Moskva meriyasının mülkiyyətində qalıb, cəmi 1 faizini "KBF AST" özündə saxlayır.

"Fortrast Global" şirkətinin saytında yerləşdirilmiş məlumat da T.İsmayılovun həmin torpaq sahəsini yeni investora verdiyini təsdiqləyir. Bu şirkətin minoritar səhmdarlarından biri və rəhbəri İsazadə Zaur Natiq oğludur. Həmin şəxs eyni zamanda "Luazo Corporation" şirkətinin baş direktorudur.

"Fortrast Global"ın saytında göstərilir ki, Moskvanın Nikitsk bulvarında otel kompleksinin inşası layihəsi bu şirkətin investisiya portfelinə daxildir.

T.İsmayılov borclarından birini torpaq sahəsini verməklə bağlasa da başqa borcları hələ qalır. Onun "Bank Moskva" qarşısında 4 milyard rubl məbləğində vaxtı keçmiş kredit borcu öhdəliyi var. T.İsmayılov bu krediti qaytarmaq üçün ona məxsus "Tropikano" biznes-mərkəzini və "İzmaylovsk" ticarət mərkəzini satışa çıxarıb. Əgər satışdan əldə edilən vəsaitlər borcu ödəməyə bəs etməsə, biznesmen ona məxsus məşhur "Praqa" restoranını da satışa çıxaracaq.

T.İsmayılovun Türkiyədə də banklara kredit borcları var. Bu borclar üzündən biznesmenin Antalyadakı "Mardan Palace" otelinə həbs qoyulmuşdu və hərraca çıxarılmışdı. Lakin otelin satışına dair hərracın keçirilməsinə bir-iki gün qalmış T.İsmayılov borclu olduğu "Xalq Bank"la kredit borclarının restruktizasiyasına dair razılaşma əldə edə bildi və hotel üzərində mülkiyyət hüququnu saxladı.

# "Hafka"nın müflis olma prosesi sürətlənir

## Britaniya Vircin adalarının Kommersiya Məhkəməsində "Baghlan Group Limited"ə qarşı iddiaya baxılacaq



**İyulun 13-də Britaniya Vircin adalarının Kommersiya Məhkəməsində "BNP Paribas Trust Corporation UK Limited" şirkətinin "Baghlan Group Limited"ə qarşı məhkəmə iddiasının açıq baxışına başlanılacaq.**

"Turan" bildirir ki, cavabdehin təsisçisi Azərbaycan vətəndaşı, biznes dairələrində "Hafka" kimi tanınan Hafiz Məmmədovdur, ona bir neçə nəqliyyat yükdaşıma şirkəti, kommersiya bankı, futbol komandası və s. məxsusdur.

İddiaçı qismində "Walkers" şirkəti iştirak edir. Bu gün dövlət qəzetindəki elanda qeyd edilir ki, "Baghlan Group Limited" şirkətinin ləğvedicisinin təyin edilməsi barədə vəsatət məhkəməyə bu il iyunun 17-də daxil olub. "Baghlan Group Limited" "Bahar" və "Qum dəniz" yataqlarını işləyən "Bahar Energy Ltd."nin səhm paketi sahibi idi. Amma 2014-cü ildə "Baghlan Group Limited" maliyyə problemi üzündən bu paydan məhrum olub.

Qeyd edək ki, "KSM" şirkətlər qrupu Hafiz Məmmədov və onun iki oğluna məxsusdur. Buraya "Alfa Caspian Shipping", "Logestics group", "BQ trans", "City Bus", "Ramada Hotel & Suites Baku", "Baku fans", "Elit Catering", "Kono Pizza", "Candy Boquet", "Bank of Azerbaijan" və s. daxildir.

2012-ci ildə "Baghlan Group" "BNP Paribas Trust Corporation UK Limited" şirkətinin iştirakı ilə Kayman fond birjasında 150 milyon dollar məbləğində istiqrazlar yerləşdirib. Qiymətli kağızlar bu ilin yayında tam ödənilməlidir. Görünür, Hafiz Məmmədov bu qiymətli kağızların ödənilməsi problemi ilə üzləşib.

YENİ MÜSAVAT
N 143 (6171) 3 iyul 2015

# "Biz YAP olaraq imkan verməərik..."

## Bahar Muradova: "Konkret qrup şəxslərin uğuruna hesablanmış dəyişikliyi heç kəs bizdən gözləməsin"

**Artıq Azərbaycanın siyasi gündəmində parlament seçkiləri əsas mövzu olaraq müzakirə predmetinə çevrilməkdədir. Düzdür, hər bir ölkə üçün mühüm əhəmiyyət kəsb edən ali qanunverici orqanın formalaşdırılması ilə bağlı məsələnin yalnız seçkiyə cəmi dörd ay qalmış gündəmin prioritetə çevrilməsi elə də təqdirolunan hal deyil və burada bir sıra obyektiv məqamlar da yox deyil. Milli Məclisin sədr müavini Bahar Muradova ilə söhbətimizdə əsasən seçkilərdən bəhs etdik.**

***- Bahar xanım, Azərbaycanla beynəlxalq təşkilatların münasibətlərindəki konfrantasiya mühiti hara qədər davam edə bilər? Bu gərginliklərin hakimiyyət dəyişikliklərinə aparıb çıxaracağı barədə iddiaların əsası varmı? Hakim partiyanın təmsilçisi olaraq baş verənlərin məntiqi sonunu necə görürsünüz?***

- İstənilən iqtidar üçün, istənilən hakimiyyətdə olan siyasi qüvvələr üçün onu seçən vətəndaşlar, seçicilər, onun təmsil etdiyi, xalqın ona olan münasibəti əsasdır. Əlbəttə, beynəlxalq aləmdəki, ölkə ətrafındakı mövcud durum, ona münasibət, rəsmi siyasətə olan münasibət də az əhəmiyyətli deyil. Bunu vurğulamaqla yanaşı əsas həlledici məqamın seçicilərin münasibətinin olduğunu qeyd etməliyik. Ona görə də kimlərsə Avropa Parlamentində və yaxud Avropa Şurasında məhdud sayda insanların - Azərbaycan əleyhinə danışanların sayı bir çox hallarda heç 30-35 nəfəri də keçmir - deməsilə Azərbaycanda hakimiyyət dəyişikliyinin olub-olmaması ilə bağlı konkret fikir yürütmək olmaz. Bu, ümumilikdə Azərbaycanı istəməyən - yəni söhbət Azərbaycan hakimiyyətinə rəhbərlik edən şəxslərdən, ölkə iqtidarından getmir - dairələrin daim burada arzuladıqları bir mühiti görmək istədiklərindən səsləndirdikləri fikirlərdir. Qəti şəkildə əminəm ki, hansı iqtidarın hakimiyyətdə nə qədər təmsil olunacağı barədə qərarı yalnız Azərbaycan xalqı verəcək. Ona görə də bu məsələlər ətrafında geniş diskussiyalar açmağa ehtiyac görmürəm və bu cür yanaşmalar cəfəngiyyatdan başqa bir şey deyil. Azərbaycan xalqının mövqeyi də yalnız seçkilərdə bilinir. Yaşayaq, seçkilərdə bu mövqeyi bir daha görəcəyik. Beynəlxalq təşkilatlarla Azərbaycanın konfrantasiya mövqeyində olması ilə bağlı isə vurğulamaq istəyirəm ki, bu, təşkilatlarla Azərbaycan arasında münasibət deyil. Bu münasibət təşkilatlarda özünə kök salmaq istəyən, bu təşkilatların tribunasından öz məqsədlərini reallaşdırmaq istəyən və məqsədlərinin yoluna maneə kimi gördükləri ölkələri qaralamaq istəyən qruplara aid ola bilər. Bu münasibət də ortadadır. Onlar da öz sözünü deyir, biz də. Azərbaycan bütün bu beynəlxalq təşkilatlarda üzvlüyü özü könüllü şəkildə qəbul edib və heç kəsi razı salmaq, heç kimin istəyinə uyğunlaşmaq məqsədi güdmür. Bu, Azərbaycanın tutduğu strateji yola xidmət edən taktiki addımlardır və biz də bu addımlarımızı atırıq, bu təşkilatlarla əməkdaşlığımız davam edəcək. Əməkdaşlıqlar prosesində də hər cürə fikirlər, mövqelər ola bilər. Burada müsbət məqamlar olduqda eyforiyaya uymaq, mənfi məqamlar olduqda ruhdan düşmək düzgün deyil, siyasət elə bu, deməkdir.

**"Hansısa siyahı, kimin harada olub-olmaması ilə bağlı söylənən fikirlər indi yalnız ehtimaldan başqa bir şey deyil"**

***- Parlament seçkiləri ilə bağlı yayılan son xəbər budur ki, YAP 70 deputatın adını namizədlər siyahısına salmayıb. Siz siyahının formalaşdırılması prosesində iştirak edirsinizmi və ümumiyyətlə, bu barədə xəbərlər doğrudurmu?***

- Vallah, bəzi dairələr ictimaiyyətə elə məlumatları yeritməyi çalışır ki, o sahə ilə, o işlə məşğul olan insanlar onu oxuyanda, eşidəndə təəccüblənirlər. Ona görə də mən gündəlik mətbuata diqqət yetirəndə və bir çox xəbərlərlə rastlaşanda təəccüb edirəm. Keçirdiyim hiss-həyəcan təəccübdən o yana keçmir. Seçkilərə hələ bir az qalır. Hansı dairədən kimin namizəd olacağı ilə bağlı əlbəttə, bütün siyasi partiyalar iş aparır. Aparılan təhlillərin nə ilə nəticələnəcəyi isə yalnız həmin partiyaların verdiyi qərar zamanı açıqlanır. Ona görə də hansısa siyahı, kimin harada olub-olmaması ilə bağlı söylənən fikirlər indi yalnız ehtimaldan başqa bir şey deyil. Ehtimalları isə mən şərh etməzdim. Mənim hansısa şərhim sizi maraqlandırırsa, YAP-ın namizədlərlə bağlı siyahısı çap olunandan sonra danışarıq.

***- Hər halda, siz illərdir parlamentin sədarət kürsüsündə əyləşirsiniz, həmkarlarınızın fəaliyyətini də müşayiət edirsiniz. Şəxsi fikrinizi soruşuram, nə qədər deputat yenidən mandat qazanmağı haqq edib?***

- Burda dəyərləndirmələr müxtəlif kriteriyalardan müxtəlif cür ola bilər. Onların heç də hamısı həqiqət olmaya bilər, yaxud subyektivliyin də müəyyən rol oynaması istisna deyil. Ona görə də mən heç zaman belə dəyərləndirmələri etmirəm. Hər kəsin özündə müəyyən fikirlər var və mən fikirləri daha çox lazım olduğu məqamlarda səsləndirməyə üstünlük verən adamam. Mənim fikrim mənim fikrimdir, onu ümumi dövriyyəyə buraxmağın tərəfdarı deyiləm. Mən mövqeyimi yalnız partiya prosedurları səviyyəsində müzakirə olunan zaman söyləyirəm. Ondan qalan vaxtlar biz yalnız partiya qərarlarını yerinə yetirən insanlarıq.

***- İddialar var ki, Qərbin müəyyən dairələri müxalifətin müəyyən sayda mandat qazanmasını təmin etmək, onların nəticələrinin hakimiyyət tərəfindən tanınmasına nail olmaq istəyir. Hakimiyyətə bununla bağlı müraciətlər olmasından məlumatlısınızmı və müxalifətin şansını necə dəyərləndirirsiniz?***

- Şansı dəyərləndirmə kriteriyası seçkidir. Hər kəs özünün şansını qabaqcadan proqnoz olaraq dəyərləndirə, yaxud seçkinin subyekti olacaq insanlarla bağlı kənar dəyərləndirmələr də ola bilər. Bu, yalnız seçki günü seçicilərin münasibətilə təsdiqini tapır. İndi xarici dairələr nə istəyir, müxalifət nümayəndələri necə təmsil olunacaq, seçicilər bunu necə dəyərləndirəcək, bununla bağlı ehtimalları irəli sürməyin tərəfdarı deyiləm. İndi hazırda seçkiyə hazırlığın müəyyən mərhələsidir. Bu mərhələnin işləri ilə məşğul olmaq lazımdır. Təhlilçilər də müəyyən fikirlər söyləyə bilər. Amma biz seçicinin subyekti olacaq bir qurumun nümayəndəsiyik, məsələyə tamamilə başqa kriteriya ilə yanaşırıq. Əgər hər zaman keçirilən seçkilərin nəticələrindən çıxış etsək və bu gün Azərbaycandakı siyasi qüvvələr nisbətini, gücünü, imkanlarını, sosial dayaqlarını nəzərə alsaq, ümumi şəkildə onu vurğulamaq olar ki, müxalifət dairəsinə mənsub olan insanlar yenə də məhdud sayda təmsil oluna bilər. Bunu da seçicilərin münasibətini nəzərə alaraq deyirəm. Çünki hər kəsi imkanlarına görə dəyərləndirmək lazımdır. Dediyim odur ki, YAP bu seçkilərdə yenə üstünlüyü qoruyub-saxlayacaq və biz bunun üçün çalışırıq.

***- Belə çıxır ki, müxalifətin gözləntilərinə baxmayaraq, seçki qanunvericiliyində hər hansı dəyişikliklərin olması real deyil...***



**"Hər kəs imkanlarını, sosial dayaqlarını artırmağı düşünsün, qanunu öz xeyrinə dəyişdirməyə çalışmasın"**

- Seçki qanunvericiliyində konkret olaraq hansısa siyasi qüvvəni, siyasi partiyanı nəzərdə tutaraq dəyişiklik etmək mümkün deyil, mən də bunu mümkünsüz hesab edirəm. Seçki qanunvericiliyi onun bütün subyektləri üçün bərabər imkanlar müəyyənləşdirir. Bu bərabər imkanları, bərabər şəraiti kim necə dəyərləndirəcəksə, bu, artıq onun özünə aid olan məsələdir. Biz hansısa siyasi qüvvəyə hesablanmış dəyişiklikləri qanunvericilikdə edə bilmərik, etmirik və etmək də düzgün deyil. Ona görə də hansısa belə dəyişiklikləri, konkret qrup şəxslərin uğuruna hesablanmış dəyişikliyi heç kəs bizdən gözləməsin. Biz YAP olaraq siyasi partiyalar üçün yaradılacaq bərabər şəraitin dəyişilməsinə imkan verməərik, ona görə ki, biz heç özümüzə qarşı da belə bir üstün şəraitin yaradılmasını istəmirik. Biz bərabər rəqabət mühitində imkanlarımızı ortaya qoyuruq. Bunu dəyişmək lazım deyil, bu, bizim nailiyyətimizdir, bu şəraiti qoruyub-saxlamaq lazımdır. Hər kəs imkanlarını, sosial dayaqlarını artırmağı düşünsün, qanunu öz xeyrinə dəyişdirməyə çalışmasın.

***- Avropa Oyunlarında beynəlxalq aləmdən gələn sərt təpkilər onu göstərdi ki, qarşıdakı siyasi kampaniyalar dövründə, payızdakı parlament seçkilərində də təzyiqlər artan tendensiya üzrə gedəcək, seçkilərə xüsusi diqqət olacaq. Bu mənada təzyiqlərdən qaçmaq üçün hakimiyyət nələri planlaşdırır?***

- Biz parlament və prezident seçkilərinin kifayət qədər diqqət tələb edən bir kampaniya olduğunu dərk edirik, qəbul edirik və bu diqqətin də olmasını istəyirik. Odur ki, biz ATƏT və Avropa Şurası Parlament assambleyalarına bu seçkiləri izləmək üçün müşahidəçi göndərmək barədə müraciət etmişik. Nə qədər böyük diqqət olacaqsa, o qədər aydın olacaq ki, kim hansı imkana malikdir və kim hansı nəticələri əldə edə bilər. Diqqətin olması bizi narahat etmir. Narahatedici məqamlarla bağlı isə fikrimizi hər zaman açıqlayırıq. Əgər bu prosesin özü, qanunvericilik, seçki kampaniyasının sonrakı mərhələləri və seçki nəticələri ilə bağlı qeyri-obyektiv, həqiqəti əks etdirməyən, bu və ya digər siyasi konyukturaya xidmət edən fikirlər olacaqsa, biz bununla bağlı həqiqəti söyləyəcəyik. Yox, əgər obyektiv dəyərləndirəcəklərsə, buna görə təşəkkür edəcəyik və kiminsə rəyinə, mövqeyinə uyğunlaşmağa, kimisə razı salmağa çalışmayacağıq. Ən əsası odur ki, Azərbaycan vətəndaşları bu seçkinin keçirilməsində hansısa siyasi qüvvəyə üstünlük verilməsinin şahidi olmasınlar, hər hansı siyasi partiya özü üçün üstün mövqe və şəraitin yaradılmasını tələb etməsin və buna da gedilməsin, kampaniya qanunun bütün tələblərinə, hər hərfinə, nöqtə-vergülünə əməl olunmaqla getsin. Belə olduğu təqdirdə yalnız güclülər qalib gələcək.

***- Yəni deyirsiniz hakimiyyət daxilində seçilməmək qorxusu olanların narahatlığı, etirazları müşahidə olunmur? Söhbət dəfələrlə mandat qazananlar, yaşı yuxarı olanlar, rektor, biznesmenlərdən gedir...***

- Mən kiminsə hansısa narahatlığının olması ehtimalını bölüşə bilərəm. Çünki hər kəs öz imkanlarını dəyərləndirərək narahat olmalıdır. Üstəlik də seçki belədir ki, burada tam rahat olmaq düzgün olmaz. Biz başqalarının rəyindən asılı olan adamlarıq. Onlar gəlməlidir, bülletenə konkret şəxsin adını yazmalıdır, qutuya atmalıdır. İndi ora kimin adı yazılacaq, əlbəttə, bu, iştirakçıları narahat etməlidir. Onlar öz adının qeydinə qalaraq daha çox işləməli, seçicilərlə ünsiyyətdə olmalıdırlar, problemlərinə yardımçı, diqqətcil olmalıdırlar və öz işlərini məhz bütün bunları nəzərə alaraq qurmalıdırlar. Bu baxımdan narahatlıq hər kəsdə var. Amma kiminsə seçilməməsindən narahatlığı var və o, bunu hansısa amillərə bağlayır, şəxsən mən bunun şahidi olmamışam. Şəxsən mənim gündəlik görüşdüyüm, ünsiyyətdə olduğum millət vəkillərindən hansısa seçilib-seçilməyəcəkləri ilə bağlı narahatlığını bölüşməyib və belə bir şeylər eşitməmişəm.

***- Əminliklə bu seçki bir başqa seçki olacaq, demokratikliyi, əksəriyyətin etimadını qazanan seçki kimi tarixə düşəcək demək olarmı?***

- Mən əminliklə və qətiyyətlə onu vurğulaya bilərəm ki, bu seçkinin Azərbaycan seçki qanunvericiliyinə və beynəlxalq seçki standartlarına uyğun olması üçün hər kəs maksimum çalışacaq. Təbiidir ki, seçkilər belə də keçəcək. Ona görə də mən bunun hansısa məqamlarının əvvəlcədən şübhə altına alınmasını qəbul etmirəm. Hər kəs, bütün iştirakçılar, hətta müşahidəçilərin belə öz işini qanun çərçivəsində quracaqlarına əminəm. Amma bunu kim necə dəyərləndirəcək, bu, onların öz işidir...

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 143 (6171) 3 iyul 2015

**Yazıya sualla giriş vermək istərdim: başlığa çıxarılan problem niyə bu gün bizim üçün belə mühüm əhəmiyyət daşıyır? Ona görə ki, demokratiyanın bütün dünyada, o cümlədən Azərbaycanda inkişafı və yayılması həmin problemin həllindən asılıdır. Çünki demokratik ölkələrin imici inkişaf etməkdə olan ölkələrdə liberal islahatların son hədəfi üçün nümunə olmaqla demokratiya uğrunda qlobal mübarizənin vacib elementlərindən biridir.**



**Hikmət HACIZADƏ,**
politoloq

# Azərbaycanda və dünyada anti-Qərb ovqatı - səbəb, nəticələr...



Faktdır ki, "Soyuq müharibə" bitdikdən sonra demokratik dövlətlərin imici Azərbaycan kimi ölkələrdə kifayət qədər yüksək olub. Əfsus ki, indi o, arzuolunan səviyyədə deyil. Səbəb?

Ondan başlayaq ki, Antiqərb, konkret olaraq anti-Amerika ovqatı dünyada çoxdan mövcuddur. XX əsrdə bu hisslər əhəmiyyətli dərəcədə güclənib. Kəşfiyyat üzrə ABŞ Milli Şurasının *(National Intelligence Council)* direktoru Tomas Finqarın "2025-ci ilin qlobal cərəyanları" (2008) məruzəsində qeyd edilir ki, dünyada ABŞ-ın siyasətindən narazılıq o həddə böyükdür ki, beynəlxalq gündəliklə bağlı irəli sürülən istənilən Amerika ideyası qabaqcadan gözdən salınmış kimidir - yalnız da ona görə ki, o, Amerikaya məxsusdur. Bəs Qərbi Avropaya, ABŞ-a qarşı bu narazılığın, bəzən də nifrətin kökündə nə durur?

Tədqiqatçılar deyir ki, XX əsrdə antiqərb fenomeninin əsas daşıyıcıları sol qüvvələr, ilk növbədə də SSRİ-nin və digər kommunist rejimlərinin hökumətləri, həmçinin də dünyadakı antiimperialist və konservativ dini fəallar olubsa, XXI əsrdə bu nifrət qrupuna Qərbi rəngli inqilabların ixracında suçlayan avtoritar qüvvələrin nümayəndələri də qoşulublar. Yəni əgər ABŞ XX əsrdə antikommunist rejimlərə dəstəkdə ittiham olunurdusa, XXI əsrdə liberal inqilabları yaymaqda suçlanır. Qərbin siyasətindən narazılığın əsas səbəbləri kimi tədqiqatçılar aşağıdakılara diqqət yönəldirlər:

- *Qərbi Avropa və ABŞ-ın dünya dominantlığının qəbul edilməməsi - başqa ölkələrin daxili işlərinə qarışmaq və onların suverenliyini boğmaq;*
- *daha uğurlu sivilizasiya modelinə qarşı qısqanclıq;*
- *guya sırf maddi dəyərlərə əsaslanan kapitalist sisteminin və burjua həyat tərzinin məqbul sayılmaması;*
- *imperializm, müstəmləkəçilik və onların "neo" variantlarında ittiham olunmaq;*
- *liberal həyat tərzinin - qadınların bərabərhüquqluluğunun, "hər şeyə icazəliliyin", "mənəviyyatsızlığın", "narkomanlığın", "fast-fud"un, "iqtisadi qeyri-bərabərliyə dözümlülüyün" və s. qəbul edilməməsi;*
- *öz dominantlığını təmin etməkdən ötrü avtoritar ölkələrdə rəngli inqilabların və bütövlükdə qeyri-sabitliyin təşəbbüsçüsü kimi Qərbə nifrət edilməsi.*

Paradoksallıq ondadır ki, siz bu gün - XXI əsrdə yuxarıda sadalanan motivlərin səbəblərin hamısını arqumentli şəkildə boşa çıxarsanız belə, yenə də Qərbin siyasətindən narazılıq daşıyanlar ona qarşı şübhəli münasibətdən və nifrət hissindən imtina etməyəcəklər. Məsələn, Qərb dünyasının dominantlığı hesabına XX əsrdə azad ölkələrin sayı 10 (!) dəfə artaraq, əsrin başlanğıcındakı 11-dən sonunda 111-ə çatıb *("Freedom Hosuse"nin arayışı)*. Ancaq nədənsə bu fakt sıravi müşahidəçinin şüurunda iz qoymayıb.

Mən hətta gənc amerikalı tələbələrdən və təcrübəli mütəxəssislərdən belə antiamerikanizm söhbəti eşitməli olmuşam ki, bəs Buş - cinayətkardır, Reyqan - əxlaqsız insandır, ABŞ Liviya neftini, Zimbabve almazlarını ələ keçirmək istəyir. Göründüyü kimi, hər bir insanın şüurunda antiqərb hissləri xeyli dərindədir və bəzən hətta aşkar faktlarla da bu ovqata qalib gəlmək mümkün olmur.

### Sıfır Məbləği Oyun ("Zero-Sum Game")

Zənnimizcə, Qərbə qarşı kök atmış narazılıq ictimai şüurun 15 min illik bəşər sivilizasiyası tarixində formalaşmış böyük bir səhvlə bağlıdır. Bu fikir belədir: talançılıq və işğal - insanlar və millətlərarası alaqələrin mütləq qanunudur və yalnız daimi talançılığın və ya kasıbların aldadılması hesabına varlanmaq olar *(Marks və Lenin də bu haqda danışırdılar)*.

İnsanlar və millətlərarası qarşılıqlı münasibətlər - "Sıfır məbləğli oyundur" *("Zero-Sum Game")* - nə vaxt ki, qalibin qazancı həmişə məğlubun itirdiyinə bərabərdir. Və əgər hətta güclü ölkələr başqa dövlətlərə və inkişaf etməkdə olan ölkələrin cəmiyyətlərinə *(QHT-lərə qrantların verilməsi və s.)* maddi və intellektual yardımlar etməyə başlayırsa, yenə düşünülür ki, bu, heç də mərhəmət hissinə görə deyil, konkret ölkədə öz dominantlığını qurmağa və onu daha uğurlu istismar eləməyə görə edilir.

Bu "tarixi qanun"u əsas kimi götürsək, o zaman düşünmək olar ki, ABŞ beynəlxalq arenada nə edir-etsin, bu - yekun etibarilə talan və oğurluqdur. Başqa cür ola bilməz. Ayrı sözlə, Birləşmiş Ştatların *(həm də istənilən başqa ölkənin)* milli marağı soyğunçuluqdur, onlar kasıb ölkələrin hesabına, onların neft və brilyantları hesabına zənginləşir *(necə ki, kapitalistlər də istismar elədikləri fəhlələrin hesabına zənginləşirlər)*. Belə dostlar bizim nəyimizə lazımdır ki?

### Müasir Amerika siyasətinin mənbələri

Marks iddia edirdi ki, "Zero-Sum Game" nəticəsində varlılar daha da varlanacaq, kasıblar isə daha kasıb olacaq və nəticədə kasıblar çıxılmaz vəziyyətdə inqilab edəcək və həm də dünya inqilabı edəcək. Ancaq XIX əsrin sonunda aydın oldu ki, "Zero-Sum Game" qanunu işləmir. Heç kim də düz-əməlli başa düşə bilmədi ki, bu, necə oldu, varlılar yalnız o yerdə varlandılar ki, orada kasıblar da varlanmağa başladılar. İstehsalçılar işçilərin əmək haqqını artırmalı idilər ki, onlar istehsalçıların mallarını alsınlar. Beləcə, kasıblar da varlanırdılar və dünya inqilabı baş vermədi. Mal istehsalında resursların rolunun azalması *(bu gün resurslar dünya istehsalının cəmi 4%-ni təşkil edir)*, əmək bölgüsü və azad bazar "Zero Sum Game"in qaydasını ləğv etdi. Və artıq insanlar və millətlərarası münasibətlərdə başqa bir qanun işləməyə başladı - onu elmi ədəbiyyatda "Sıfır məbləği oyun" *("Positive-sum Game")* adlandırırlar - bu oyunda qarşılıqlı eləqələrdən hər iki tərəf udur.

Bu yeni qaydanın - "Positive-Sum Game"in cəmi 100-ə yaxın yaşı var. "Zero-Sum Game" isə insanların şüurunda 15 min ildir mövcuddur. İndi aydındırmı ki, nədən insanlar Qərbin demək olar, bütün təşəbbüslərini neqativ qarşılayırlar: Qərb sadəcə, əvvəllər olduğu kimi, XIX əsrdəki kimi talançılıqda şübhəli bilinir. Bəlli məsələdir ki, yuxarıda toxunulan yeniliyi başa salmaq və izah etmək ki, 15 min illik qaydalar artıq dəyişib, bundan ötrü olduqca böyük səylər tələb edilir, nəinki ABŞ-ın xarici siyasətini və ya davranışının yeni mənbələrini anlatmaq üçün bu gün göstərilən səylər.

Maraqlıdır, ölkədə İraq və Liviyadakı yaxın dövrün hadisələri ilə bağlı kiminlə söhbət etdimsə, demək olar, hamı tam əmin idi ki, ABŞ onların neftini ələ keçirmək üçün orada hərbi əməliyyatlar aparır. Dünyadakı insanların əksəriyyəti elə belə düşünür. Mən isə həmsöhbətlərimi heç cür inandıra bilmirdim ki, həmin neftin pulları Amerikanın deyil, İraqın və Liviyanın xəzinəsinə axır və İraqda heç ABŞ-ın neft şirkətləri də yoxdur.

### "Posıtıve-Sum game"

"Positive-Sum Game"in müddəalarını daima izah eləmək gərəkdir, çünki bu gün min illər ərzində şüurumuzda kök salmış "Zero-Sum Game" yox, məhz bu qanun ABŞ-ın davranışının əsasında durur. Həmin müddəalar aşağıdakılardır:

- *əməkdaşlıq bu gün daha çox pul gətirir, nəinki soyğunçuluq;*
- *biz sizə ona görə kömək edirik ki, sizə yaxşı olanda bizə də yaxşı olur;*
- *sizin neftiniz və almazınız bizə lazım deyil, biz istəyirik ki, siz stabil inkişaf edəsiniz, zənginləşəsiniz və bizim rentgen aparatlarımızı ala biləsiniz.*

*(Adətən Qərbin xarici siyasətini izah eləmək üçün bu gün istifadə olunan "Biz insanların, malların və ideyaların maneəsiz hərəkətinin tərəfdarlıyıq" frazası cəmiyyətin sıravi üzvləri tərəfindən çətin qəbul olunur).*

### Azərbaycanda anti-amerikanizm

"Ərəb baharı", ələlxüsus da Ukraynadakı Maydan hadisələri başlanandan Azərbaycan əhalisi həm Rusiya, həm də yerli KİV-lər tərəfindən güclü antiqərb təbliğatına məruz qoyulur. Məqsəd - ölkədə demokratik prosesi durdurmaq və rəngli inqilabı mümkünsüz eləməkdir.

Yuxarıda qeyd edildiyi kimi, müstəqillik dövrümüzün başlanğıcında (1990-cı illər) Qərb bizdə olduqca populyar olub və ona az qala, Azərbaycanı sovet imperializmindən qurtaran xilaskar kimi baxılıb. Ancaq çox tezliklə, Azərbaycana erməni təcavüzünə qarşı mübarizədə, habelə demokratiya və insan haqları uğrunda mübarizədə konkret köməyin olmaması nəticəsində Qərbin nüfuzu əriməyə başladı.

Bu proses (təbliğat) "güclülər həmişə talamalı və zəifləri aldatmalıdırlar" kimi "Zero-Sum Game" ideyasından mənbə götürürdü. Belə situasiyada avtoritar strukturların antiqərb təbliğatı uğurlu olmaya bilməz. Onu da qeyd eləmək lazım gəlir ki, Azərbaycanda antiqərb təbliğatı avtomatik şəkildə Rusiyayönlü təbliğata da çevrilmədi: yəni ki, Ağ Ev pisdir, Kreml isə - yaxşı. İş də ondadır ki, belə rəğbət dəyişikliyindən ölkəni müstəqillik uğrunda mübarizənin köhnə yaraları və əlbəttə ki, Moskvanın erməni işğalına verdiyi dəstək xilas elədi.

"FAR CENTRE"-in 2011-ci ildə keçirdiyi rəy sorğusu bu xüsusda diqqətçəkəndir: sorğunun nəticəsindən aydın olur ki, Avropa İttifaqı və ABŞ-ın ölkəmizdəki nüfuzunun yaxşılaşmasına ehtiyacı var *(dost ölkələr: ABŞ - 5.4%, Avropa Birliyi - 7.4%, Türkiyə - 58.6%, Rusiya - 23%, islam ölkələri - 10.7%, İran - 4.2%.)*. Amma eyni zamanda respondentlərin təxminən yarısı (42%) Azərbaycan üçün Qərb demokratik inkişaf yolunun tərəfdarı olduğunu söyləyib ki, bu da ümidvericidir.

***

Təəssüflər olsun ki, ölkənin darmadağın edilmiş demokratik ictimaiyyəti, demək olar, müstəqil medianın yoxluğu yuxarıda toxunduğumuz "Positive-Sum Game"in mahiyyəti ilə bağlı əhali arasında izahat işi aparmağı mümkünsüz edir. Belə vəziyyətdə antiqərb təbliğatına qarşı müqavimətin əsas yükü beynəlxalq demokratik birliyin üzərinə düşür.

Bundan əlavə, Qərb, - əgər ondan ötrü inkişaf etməkdə olan ölkələrin özünə qarşı ictimai rəğbəti önəmlidirsə, - beynəlxalq siyasətdə özünü real və prinsipial güc kimi göstərməlidir. Bundan ötrü o, Ukrayna və Gürcüstana real şəkildə dəstək verməyə başlamalı, həmçinin Azərbaycan, Belarus və Orta Asiya ölkələri kimi ölkələrə münasibətdə ikili standartlardan imtina etməlidir.



# Qızlara niyə vitamin verilmir

Zamin HACI
zaminhaci@gmail.com

"Tartaren yeməyini məhdudlaşdırmağa bəzi başqa ağıllı məşqlər də əlavə etdi. O özünü uzun yürüşlərə alışdırmaq üçün hər səhər dirsəklərini qatlayıb böyrünə qısaraq və qədim insanların adətincə ağzına iki çaylaq daşı alaraq gah cəld, gah da gimnastik addımlarla dalbadal yeddi-səkkiz dəfə şəhəri dövrə vururdu"

**(Alfons Dode, "Taraskonlu Tartarenin qeyri-adi macəraları")**

***

**Artıq 2 aya yaxındır Dövlət Bayraq Meydanı idarəsinə təzə müdir qoyulmuşdur, lakin geniş xalq kütlələri hələ də bu adam haqda məlumatsızdır. Bəlkə dilim-ağzım qurusun, bu da ermənilərlə qohumluq əlaqələrinə malikdir? Bəlkə onun ayaq barmağının biri çoxdur? Nəsli-nəcabəti necədir? Yatanda dişlərini fırçalayırmı? Qurban bayramında qoyun alıb kəsdirirmi? Bayrağımızın rənglərinin mənasını bilirmi? Bunlar hamısı ciddi dövlətçilik məsələləridir, gərək vaxtında öyrənəsən, yoxsa sonra cürbəcür biabırçılıqlar ortaya çıxır.**

Hardasa 15 gün qabaq Moldovada da müəyyən hadisələr baş verdi, mən bunun da təsiri altındayam. Orda Kiril Qaburiç adlı baş nazir istefaya getdi, onunla birgə bütün kabinet də istefa verdi, təsəvvür edin, yerdə diş qurdalamağa bir nazir də qalmadı. Əlbəttə, hardan təsəvvür edəcəksiniz, 20 ildir kresloya diffuziya eləmiş Nazirlər Kabinetinin altında yaşayırsınız. AMEA Tarix İnstitutunun direktoru Yaqub müəllim hətta Böyük Hun İmperatorluğu tarixini Artur Rasizadəni danışdırıb öyrənir, çünki Artur müəllim o dövrün canlı şahidi olmuşdur. Daxili işlər nazirimiz vəzifəyə qoyulanda Stalinqrad uğrunda gərgin döyüşlər gedirdi. Baş prokurorun ilk dəfə təyin olunduğu gün Tunqus meteoriti Sibirə düşmüşdü. Amma təbii ki, bunların heç birisi Sabir Rüstəmxanlının deputat vəzifəsinə qoyulması tarixinə çata bilməz. Sabir müəllim ilk dəfə mandat alan ay ulu babamız azıxantrop Füzuli şəhərindən 16 kilometr aralıda yerləşən mağarada ulu nənəmiz azıxantropun alt çənəsini vurub qırmışdır. Bu da hardasa 400 min il qabaq olmuşdur. Hazırda həmin çənənin maketi Azərbaycan Tarix Muzeyində saxlanılır. Əslini sovet dövründə kiməsə satmışıq.

Bax, mən hələ də fikirləşirəm görəsən Moldovada bütün nazirlər birdən istefa verəndə ölkə camaatı başına haranın daşını salıbdır? Nazirsiz yaşamaq olarmı? Bizim analoqu olmayan Azərbaycanımızda, şükürlər olsun, belə hallar mümkün deyildir. Lap Artur müəllim istefa versə belə o biri nazirlər yerlərində qalarlar. Sözgəlişi, bu Kirill Qaburiç-in adı yəqin sizə tanış gəldi, adam bir neçə il qabaq bizdə "Azərcell"in şefi işləmişdi. Bəs niyə dövlətçilik təcrübəmizi tam əxz eləməyib, qaranlıq qaldı. Bir az əxz eləyib, o da istefa səbəblərindən göründü, çünki diplomu saxta imiş. Amma adam da diploma görə istefa verər? Soxum boyunu yerə. Burnundan gəlsin sənə göndərdiyimiz konturlar. Nə isə, çox əsəblərimi korlamaq da istəmirəm.

Cüdo milli komandamızın Avropa Oyunlarında göstərdiyi uğursuz nəticə, indi isə komanda üzvlərinin narazılıqları da bir tərəfdən ürəyimizi sıxır. Komanda üzvü qızlar deyir ki, onlara hətta vitamin də verilməyibdir! Deyirlər bəs dövlətin ayırdığı pullar hanı, biz kimono paltarını da öz cibimizin pulu ilə alırdıq. Əsasən keçmiş nazir, İsmayıllı alovlarında yanan Füzuli Ələkbərovu qınayırlar. Halbuki Füzuli müəllimin bir günahı yoxdur. Qabaq nazir idi, pul gəlirdi, vitamin alırdı. İndi bağda ərik qurtarıb, bu da sponsorluq edə bilmir. Əgər cüdoya pul istəyirsinizsə gərək Füzuli müəllim təzədən nazir yerinə, onun qardaşı da icra başçısı yerinə qoyula, qardaşı oğlu isə İsmayıllıda hotel aça, hoteldə camaatı söyə, hotel yana, Tofiq Yaqublu təzədən dura gedə rayona və sairə. Ən əsası, bütün bu dövriyyəni təmin eləmək üçün buruqdan axan şeyin qiyməti qalxmalıdır. Yoxsa bu burnufırtıqlı gənclər elə bilir yel əsib qoz tökülübdür. Bizim o biri komandaların hərəsinin bir vedrə medal almasına da paxıllıq eləmək lazım deyil. O idman növlərinə dövlətlər 5-ci dərəcəli idmançı göndərmişdi, çünki önəmsiz turnir idi. Cüdoda isə olimpiyada lisenziyası qazanmaq imkanı vardı, o üzdən güclülər gəldi, bizimkiləri çırpıb getdilər.

# "Ermənistan Kremlin vassalı olsa da, Qərbdən çəkinir"

## Ekspertin fikrincə, Sərkisyan Qərblə əlaqələrini qırmamaq, daha artıq təzyiqlə üzləşməmək üçün etiraz aksiyalarına dözür

**Ermənistanda iyunun 23-də elektrik enerjisi qiymətlərinə etiraz məqsədilə başlamış mitinqlər davam edir. Polisin çağırışlarına baxmayaraq, etirazçılar hələ də Baqramyan prospektində aksiyanı davam etdirirlər. Aksiyaları davam etdirməkdə qərarlı olan qrup meydanda gecələyir.**

İrəvan polisi iştirakçılara müraciət edərək aksiyaya son qoymağa çağırıb. **Sitat:** "Polis aksiyanın təşkilatçı və iştirakçılarını sağlam düşüncə, konstitusiyaya və ölkənin qanunlarına, digər şəxslərin hüquq və qanuni maraqlarına hörmət nümayiş etdirərək könüllü şəkildə Baqramyan prospektinin 10 gündür davam edən blokadasına son qoymağa çağırır" deyə, polisin bəyanatında bildirilir.

Qəribə də olsa, Ermənistan polisi aksiya iştirakçılarına qarşı xeyli humanist davranır. Doğrudur, aksiyanın ilk günlərində polis hücum edərək xeyli etirazçını döyərək həbs etmişdi, 237 nəfər isə polisə aparılmışdı. Ancaq sonradan hökumət geri addım atdı, hökumət geri çəkilib, aksiya iştirakçılarına maneə yaradılmayıb. Baxmayaraq ki, demək olar hər gün polis mitinqin dayandırılması üçün onlara xəbərdarlıq edir. İrəvan polis rəisinin müavini Valeri Osipov aksiyalar icazəsiz olsa da, polisin tədbir görmədiyini bildirir.

Ancaq Ermənistan hakimiyyətinin kütləvi etiraz aksiyasına dözümlü münasibəti maraq doğurur. Məsələ burasındadır ki, 2008-ci ildə prezident seçkilərindən sonra Ermənistanda baş verən kütləvi etiraz aksiyaları zamanı 10 nəfər öldürülmüşdü. Ümumiyyətlə, bu ölkədə hökumətə qarşı etiraz aksiyaları bir qayda olaraq polislə ciddi toqquşmalara səbəb olur. Ancaq indi qəflətən hökumət geri addım ataraq etirazçılara zor tətbiq etmir. Baxmayaraq ki, artıq bir sıra müşahidəçilər bu aksiyaların Sərkisyanın devrilməsinə səbəb olacağını proqnozlaşdırır. Ermənistan prezidentinin birdən-birə daha demokrat və etiraz aksiyalarına dözümlü olmasının səbəbi nədir?

**Siyasi şərhçi, "Trend" agentliyinin direktor müavini Arzu Nağıyev deyir ki, İrəvanda 10 gündür davam edən etiraz aksiyaları yalnız enerji qiymətlərinə etiraz deyil, həm də Sərkisyan hakimiyyətinə qarşı etiraz aksiyasıdır:** "İlk gündən də hiss olunurdu ki, bu mitinq əsasən qərbyönlü bir mitinqdir. Enerji tarifinin qaldırılması məsələsi də bəhanə idi. Bir müddət sonra Avropa İttifaqının bayraqları qaldırıldı. Sonradan Rusiya telekanalları qovuldu, təşvişə düşən Rusiya təcili orduya yardım adı ilə 200 milyon yardım etdiyini bəyan etdi. Yəni bu arada Sərkisyanın Brüsselə getməsi də Rusiyaya bir mesaj oldu. Bu o deməkdir ki, ermənilər və hakimiyyət qərbyönlü siyasət istəyirlər, demokratik dəyərlərə çalışırlar. Rusiya isə heç cürə buna razı ola bilməz. Çünki belə olan tərzdə 102-ci baza oranı tərk etməlidir. Bu baş versə Dağlıq Qarabağ məsələsində müəyyən irəliləyiş ola bilər, daha doğrusu, Cənubi Qafqazda bir müharibə ocağı da söndürülə bilər. Təəssüf ki, Ermənistanda hakimiyyətdə bu gün müharibə, təcavüz üzərində qurulan bir klandır. Bu da rusları qane etsə də Qərbi qane etmir. Yəni necə deyərlər, tərəziyə qoyanda son 20 ildə rusların və Qərbin ermənilərə etdikləri bir ölçüyə gəlmir. Buna görə də Sərkisyan özünü demokrat kimi aparmağa çalışır, çünki onsuz da onun ayağına yazılası qan çoxdur, ruslara tam inamı olmadığı üçün necə deyərlər, gələcək üçün hakimiyyət dəyişikliyi olsa "özünə ayaq yeri" qoyur".



**Arzu Nağıyev deyir ki, Sərkisyan Qərblə əlaqələrini qırmamaq, daha artıq təzyiqlə üzləşməmək üçün etiraz aksiyalarına dözür:** "Yəni zorakılıqla hər hansı bir sakitlik yaransa, Qərb Sərkisyanı qəbul etməyəcək. O, bunu başa düşdüyü üçün belə edir. Yəni hər hansı bir zorakılıq olsa, bəyanatlar başlayacaq, maliyyə yardımları artacaq, diaspora hərəkətə keçəcək. Bu bir tendensiyadır. Qərbin razılığını qazanmaq, narazı salmamaq üçün edir. Əsas məsələ budur. Daha doğrusu, Sərkisyan və ümumilikdə Ermənistan hakimiyyəti rusların vassalı olsa da, Qərbdən çəkinir".

❑ KƏNAN

# Ermənistan Rusiyadan aldığı texnikanı Azərbaycanla sərhədə göndərəcək

**Erməni tərəfinə dövlət ixrac kreditinin verilməsi haqqında Ermənistan-Rusiya hökumətlərarası sazişi çərçivəsində alınmış hərbi texnika erməni-Azərbaycan sərhədlərində silahlanmanı yaxşılaşdırmağa imkan verəcək.**

Oxu.az "Novosti-Armeniya"ya istinadən xəbər verir ki, bu barədə Ermənistan parlamentində iyulun 2-də erməni müdafiə nazirinin müavini Ara Nazaryan "Daşnaksütyun" parlament fraksiyasının deputatı Artsvik Minasyanın alınan hərbi texnikanın erməni-Azərbaycan sərhədində müdafiəni gücləndirməyə imkan verib-verməyəcəyi barədə sualı cavablandırarkən bildirib.

Xatırladaq ki, Rusiya Ermənistana öz istehsalı olan hərbi məhsulların tədarükünün maliyyələşdirilməsi üçün 200 mln. dollar məbləğində dövlət ixrac krediti ayırıb.

# Mahmudov "Kalaşnikov" konserninin sahiblərindən biri oldu



**Rusiyanın Ural Dağ-Metallurgiya Şirkətinin sahibi İsgəndər Mahmudov "Kalaşnikov" silah konserninin sahiblərindən birinə çevrilib.**

ANS PRESS-in məlumatına görə, Mahmudov Rusiyanın "Rostex" dövlət korporasiyasına daxil olan "Kalaşnikov"un səhmlərinin 12,25%-ni öz tərəfdaşı Andrey Bokarevdən satın alıb. Beləliklə, səhmlərin 25%-i İsgəndər Mahmudova məxsusdur. Səhmlərin 51%-i isə "Rostex"də qalıb. Andrey Bokarevin əlində isə səhmlərin 12,25%-i var.

"Turan" xatırladır ki, "Kalaşnikov" konserni 2013-cü ilin avqust ayında qeydiyyatdan keçirilib. O, Rusiyanın İjevsk şəhərində yerləşən iki müəssisənin - "İjmaş"ın və İjevsk Mexanika Zavodunun əsasında yaradılıb. Konserndə avtomat və snayper silahları, idarə olunan artilleriya mərmiləri və geniş çeşiddə mülki məhsullar istehsal edilir.

"Forbes"in məlumatına görə, Rusiyanın 15-ci varlı adamı olan İsgəndər Mahmudovun kapitalı 2,7 milyard dollara bərabərdir. Milliyyətcə özbək olan İsgəndər Mahmudov 1963-cü ildə Buxara şəhərində anadan olub. 1980-ci illərdə Daşkənddə gizli sex sahibi kimi çalışan İsgəndər Mahmudov 1991-ci ildə Moskvaya köçüb və leqal bizneslə məşğul olmağa başlayıb.

# Ukraynanın gürcü naziri Saakaşviliyə görə istefa ərizəsi yazdı

**Ukraynanın səhiyyə naziri Aleksandr Kvitaşvili istefa ərizəsi yazıb. APA-nın UNN-ə istinadən verdiyi məlumata görə, A. Kvitaşvili Odessa vilayətinin qubernatoru Mixail Saakaşvilinin tənqidindən sonra bu addımı atmaq qərarına gəlib.**

Ukrayna parlamentinin "Pyotr Poroşenkonun Bloku" fraksiyasının sədr müavini İqoq Kononenko bildirib ki, hələlik Nazirlər Kabineti A. Kvitaşvilinin ərizəsinə baxmayıb.



Aleksandr Kvitaşvili

Xatırladaq ki, bir neçə gün bundan öncə Saakaşvili Kvitaşvilini istefa verməyə çağırmışdı.




# Bakı separatçıya görə Britaniyaya nota verdi

## Londondan cavab gəldi; Qərblə münasibətlərdəki gərginlik Qarabağı da təhdid edir və separatçı rejimi ruhlandırır...

**Böyük Britaniyanın Azərbaycandakı səfiri iyulun 1-də Xarici İşlər Nazirliyinə (XİN) dəvət olunub. Burada ona rəsmi Bakının notası təqdim edilib. XİN-in mətbuat xidmətindən verilən məlumata görə, nazir müavini Xələf Xələfov diplomata Azərbaycanın işğal altında olan ərazilərində yaradılmış qondarma separatçı rejimin başçısı kimi özünü təqdim edən Bako Saakyan adlı şəxsin Böyük Britaniyaya səfəri və "Chatham House - Kral Beynəlxalq Münasibətlər İnstitutu"nda 8 iyul 2015-ci ildə keçirilməsi nəzərdə tutulan tədbirdə iştirak edəcəyi ilə əlaqədar Azərbaycan hökumətinin qəti etirazı bildirilib.**

Xələfov bu kimi halların Azərbaycan və Böyük Britaniya arasında mövcud olan dostluq və strateji münasibətlərin ruhuna uyğun olmadığını vurğulayıb və Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı yönəlmiş addım kimi qiymətləndirib.

Öz növbəsində səfir İrfan Siddiq Britaniyanın Dağlıq Qarabağdakı rejimi tanımadığını və onunla heç bir əlaqəsinin olmadığını bildirərək, Azərbaycanın narahatlığı barəsində ölkəsinin Xarici İşlər Nazirliyinə məlumat verəcəyini diqqətə çatdırıb.

Həmçinin Xarici İşlər Nazirliyinin təlimatı əsasında Azərbaycan Respublikasının bu ölkədəki səfirliyi tərəfindən məsələ ilə bağlı Böyük Britaniya Xarici İşlər Nazirliyində görüş keçirilib və müvafiq etiraz məktubu təqdim edilib. Azərbaycanın Londondakı səfirliyinin məktubuna cavab olaraq, İngiltərə XİN-in məktubunda bildirilib ki, Böyük Britaniya Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və müstəqilliyini dəstəkləyir, Dağlıq Qarabağda yaradılmış rejimi tanımır və Britaniyanın bu mövqeyi dəyişməz olaraq qalır. Cavab məktubunda habelə separatçı rejimin başçısının Böyük Britaniyaya səfərinin hökumət tərəfindən təşkil edilmədiyi və onun Londonda olacağı müddətdə heç bir hökumət rəsmisi ilə görüşünün olmayacağı xüsusi vurğulanıb.


İrfan Siddiq

Xatırladaq ki, bu il mayın 3-də Fransadan olan bir neçə deputat Dağlıq Qarabağda qanunsuz seçkiləri müşahidə elədiyi üçün Azərbaycan Fransaya etiraz notası təqdim etmişdi. Notada bu faktın Azərbaycanla Fransa arasında dostluq və tərəfdaşlıq münasibətlərinin ruhuna, həmçinin Fransanın ATƏT-in Minsk Qrupunun həmsədri kimi mandatına uyğun gəlmədiyi, münaqişənin həllinə xələl gətirəcəyi vurğulanırdı.

Hərçənd 3 may tarixindəki saxta seçkiləri Rusiyada olan deputatlar da "izləmişdi", üstəgəl, Moskva Cənubi Osetiya "parlamentinin" spikeri Anatoli Bibilovu "müşahidəçi"qismində Xankəndinə göndərmişdi, bununla belə, Bakı Rusiyaya anaoji nota təqdim etməmişdi. Böyük Britaniya isə Fransa və Rusiya kimi vasitəçi dövlət deyil. Fransa və Rusiyadakı kimi separatçı rejimin nümayəndəliyi də Londonda fəaliyyət göstərmir.

Bütün hallarda gerçəklik və təəssürat belədir ki, İngiltərə də daxil, Qərb Qarabağın separatçı liderlərini nədənsə Abxaziya, Cənubi Osetiya, Dnestryanı bölgə, Krım və Donbas separatçılarından 1-2 köynək özünə yaxın sayır. ABŞ isə üstəlik, hər il onlara maliyyə yardımları ayırır. Halbuki postsovet məkanındakı digər separatçı bölgələrin rəhbərlərinə qarşı sərt sanksiya rejimi qüvvədədir, onların Qərb ölkələrinə, ABŞ-a girişi yasaqlanıb.

Bizcə, belə ikili durumun yaranmasında xristian faktoru, güclü erməni diasporunun mövcudluğu *(baxmayaraq ki, İngiltərədə güclü erməni icması yoxdur və bu ölkə bizə Fransadan daha yaxındır)* amili ilə yanaşı, Azərbaycanın müsəlman ölkə olması və bir az da Qərbdən məsafə siyasəti yürütməyə üstünlük verməsi az rol oynamır. Xüsusən də son vaxtlar Bakının Qərblə münasibətlərində müşahidə edilən gərginlikdən Dağlıq Qarabağdakı separatçı rejimin də maksimum faydalanmağa çalışdığı görünür.

Odur ki, nota vermək öz yerində, bir an öncə bu gərginlikdən, Azərbaycanı təcridə aparan yanaşmadan qurtulmaq, Qərblə əlaqələrdə sahman yaratmaq və dialoq haqda düşünmək zamanı da çatıb. İlk addımı rəsmi Bakı atmalıdır. Çünki Azərbaycan Qərbə daha çox möhtacdır, nəinki əksinə. Ən önəmlisi, bunu Dağlıq Qarabağın taleyi diktə edir.

❑ Z.SƏFƏROĞLU

# Almaniyanı Avropa Birliyində güclü edən nədir?

## Ekspert bu dövlətin Avropa komandasının kapitanı olmasının səbəblərini açıqladı

**Almaniya ilə Azərbaycan arasında münasibətlərdə uzun müddətdir hökm sürən gərginlik davam edir. Almaniyadan Azərbaycana tənqidi münasibətin getdikcə artması Avropa Birliyinin (AB) də Azərbaycana münasibətinə təsir göstərməkdədir. Açıq-aydın görünür ki, bu dövlət AB kimi nəhəng beynəlxalq təşkilata ən ciddi təsir gücünə malikdir.**



Bəs onu AB-də güclü, söz sahibi edən nədir? **Siyasi ekspert Şahin Cəfərli** bildirdi ki, hazırda AB-nin iqtisadi baxımdan ən qüdrətli üzvü olan və birliyin büdcəsinə ən böyük töhfəni verən Almaniyadır, ona görə də onun birlik daxilində aparıcı rola malik olması təbiidir: "Tarixə qısaca ekskurs etsək, II Dünya müharibəsindən sonra almanların beynəlxalq siyasətdə şüurlu şəkildə passiv rol seçdiklərini görərik. Faşizmin törətdiyi ağır cinayətlər və bütün qitəyə vurduğu dəhşətli zərbələrdən sonra alman cəmiyyəti günahkarlıq hissinin təsiri ilə daha çox öz içinə qapanıb və yaralarını sarımaqla məşğul olub. Hətta Almaniyanın şərqini ələ keçirərək orada Almaniya Demokratik Respublikası yaradan SSRİ-dən qaynaqlanan real təhlükəyə rəğmən, Almaniya 1949-cu ildə NATO-nun təsis olunmasında iştirak etməyərək yalnız 6 il sonra bu hərbi-siyasi bloka qoşulub. Almaniya SSRİ-nin dağılmasından sonra da beynəlxalq arenada ciddi fəallıq göstərməyib və birləşmədən sonra şərq torpaqlarının ölkənin inkişaf etmiş qərbinə sosial-iqtisadi inteqrasiyasına daha çox diqqət yetirib. Ölkənin Avropa inteqrasiyasındakı roluna gəldikdə isə Almaniya 1951-ci ildə Avropa Polad-Kömür Birliyinin və 1957-ci ildə Avropa İqtisadi Birliyinin təsisçilərindən biri kimi bugünkü Avropa Birliyinin təməlini atan əsas dövlətlərdəndir. Hazırda isə AB-nin iqtisadi baxımdan ən qüdrətli üzvü olan və Avropa Birliyinin büdcəsinə ən böyük töhfəni verən Almaniyanın birlik daxilində aparıcı rola malik olması təbiidir".

**Ş.Cəfərli onu da dedi ki, Almaniya ərazisinə görə bəzi Avropa Birliyi ölkələrindən kiçik olsa da, əhalisinin sayına və ÜDM-in həcminə görə ilk sıradadır:** "Almaniya iqtisadiyyatı durğunluq müşahidə olunan digər Avropa ölkələrindən fərqli olaraq inkişafdadır, Merkel hökuməti mövcud maliyyə ilini kəsirsiz və profisitlə *(gəlirlərin xərcləri üstələməsi)* başa vurmağı nəzərdə tutub. Milli gəlir 2,1 trilyon avronu ötüb, xarici ticarətin həcmi təxminən 2,5 trilyon avro təşkil edir, ixracatın həcmi bu ilin yekunlarına görə 1 trilyon 180 milyard avro həcmində proqnozlaşdırılır. Təbii ki, bu miqyasda iqtisadi gücə malik dövlətin beynəlxalq proseslərdə rol almaması qeyri-mümkündür. Xarici işlər naziri Valter Ştaynmayerin belə bir sözü var ki, Almaniya beynəlxalq siyasətdə dair yalnız şərhlərlə kifayətlənməyəcək qədər böyük dövlətdir. Lakin Almaniyanın hazırda beynəlxalq siyasətdə birtərəfli addımlardan daha çox AB çərçivəsində bir komanda oyunçusu kimi çıxış etməyə üstünlük verdiyini söyləmək doğru olardı. AB müasir dövrdə qlobal oyunçuya çevrilərək beynəlxalq proseslərdə ciddi ağırlığa malikdir və öz iqtisadi gücünə, nüfuzuna görə AB komandasının kapitanı kimi qiymətləndirə biləcəyimiz Almaniyanın qurum daxilində ümumi strategiyaların hazırlanması və həyata keçirilməsində həlledici rolu var. Təsadüfi deyil ki, hazırda istər birlik çərçivəsində ortaya çıxan böhranların *(Yunanıstanın iflası, Britaniyanın birlikdən çıxmaq istəməsi)* qarşısının alınması və birliyin monolitliyinin qorunmasında, istərsə də AB-nin qonşusu olan Ukraynada cərəyan edən münaqişənin həllində ən çox fəallıq göstərən Avropa paytaxtı məhz Berlindir".

Ekspert sonda qeyd etdi ki, yaxın gələcəkdə Almaniyanın beynəlxalq siyasətdə rolunun daha da güclənəceyini söyləmək olar. Ona görə də Azərbaycanın belə bir ölkə ilə münasibətlərinin istiləşməsi ölkəmizin xeyrinə olardı.

❑ Etibar SEYİDAĞA



# Azərbaycanın müdafiə naziri Litvanın baş naziri ilə görüşdü

**Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov Litvanın baş naziri Algirdas Butkeviçius ilə görüşüb. Müdafiə Nazirliyinin saytı bildirir ki, görüşdə iki ölkə arasında əlaqələrin bütün istiqamətlər üzrə müvəffəqiyyətlə inkişaf etdiyi vurğulanıb, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat verilib.**

İkitərəfli əməkdaşlıq sahəsində yaxşı təcrübənin mövcudluğunu qeyd edən müdafiə naziri qarşılıqlı əlaqələrin genişləndirilməsinin Azərbaycan üçün faydalı olduğunu xüsusi vurğulayıb.

Z.Həsənov bildirib ki, ölkələr arasında məsləhətləşmələrin aparılması və əməkdaşlığın genişləndirilməsi Avrasiya məkanında sülhün və təhlükəsizliyin möhkəmləndirilməsinə öz töhfəsini verəcək.

Tərəflər beynəlxalq terrorizm, ekstremizmin bütün növləri, təcavüzkar separatizm və digər bu kimi beynəlxalq təhlükəsizlik və sabitliyə təhlükə törədən ümumi təhdidləri pisləyib və onlara qarşı mübarizədə beynəlxalq səylərin artırılmasının zəruriliyini xüsusi qeyd ediblər.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparılıb.

Sonra Z. Həsənov 1991-ci ildə keçmiş sovetlər birliyindən ayrılaraq Litvanın müstəqillik qazanması uğrunda mübarizədə şəhid olanların xatirəsinə ucaldılmış Müstəqillik abidəsini ziyarət edərək önünə əklil qoyub.

**AXCP-nin Nərimanov təşkilatının sabiq şöbə müdiri, partiyadan qovulan Ağaşirin Tanrıverdioğlu iyulun 1-də axşam saatlarında keçmiş partiyadaşı, qurumun Rəyasət Heyətinin üzvü Sahib Kərimli tərəfindən fiziki təzyiqlərə məruz qaldığını bildirib.**


Ağaşirin Tanrıverdioğlu


Sahib Kərimli

# AXCP-dəki döyülmə faktının şok pərdəarxası...

## Ağaşirin Tanrıverdioğlu “Yeni Müsavat”a sensasion faktlar açıqladı; Sahib Kərimli etdiyi zorakılığa aydınlıq gətirdi

**“Yeni Müsavat”a açıqlamasında A.Tanrıverdioğlu başına gələnləri belə nəql etdi:** “Mən Razi Nurullayevlə görüşdüm. Mənə dedi ki, Sahib Kərimli səndən narazıdır, nə məsələdir? Dedim ki, səbəbini bilmirəm, nə lazımdısa ona etdim. Sadəcə, o, mənə biganəlik etdi. Bildirdim ki, onunla heç bir problemim yoxdur. Razi bəy ondan danışmamağımı xahiş etdi. Söhbət bir həftə əvvəldən olub. Bundan sonra Rafiq Daşdəmirli məni cəbhəçilər olmayan gizli bir yerə çağırdı. O da mənə dedi ki, Sahibin sənə qarşı olan aqressiyasından xəbərdaram. Planlarımızın pozulmaması üçün susmağımı xahiş etdi. Açıq şəkildə dedim ki, Sahib kafedən bayıra çıxmır, narazı elektorat artıq onu qəbul etmir. Yalandan deyir ki, ”filan yerdə 200, nə bilim 300 adamım var". Onun bu qədər gücü olsa, mən də ona yetərincə yardımımı edərəm. Arzuman Məcidlidən başqa o partiyada onun adamı yoxdur. Kiməsə pul verməklə, pivə almaqla nəticə qazanan deyil. Bunları Rafiq bəyə də dedim. Bununla söhbət qapandı. Facebookda satirik status yazdım. Razi, Rafiq və Arzuman bəyin də adı hallanırdı. Arzuman bəy mənə dedi ki, bu söhbət sənə baha başa gələcək. Əhəmiyyət vermədim".

**Sabiq şöbə müdiri döyülmə səbəblərindən də danışdı:** “Baş verənlərdən sonra qərar verdim ki, narazı elektoratı toplayıb, təşkilat yaradaq. Müsavatda da bu cür insanlar var. Xalq gəncləşmə görür, gəncliyi istəyir. Gənc olmasam da, qoca da deyiləm. Cəmiyyətin yeni təşkilat görməsini istədim. Artıq işlərin Sahiblik olmadığını anladım. Bunlar da eləməzlər tənbəllik, hamısını Sahibə çatdırarlar. Sadiq dost hesab etdiklərim Razi Nurullayev, Rafiq Daşdəmirli Sahibə xəbər verərlər. O da zəifləyəcəyini duyub, oturduğum kafedə mənə hücum etdi. Yanında 25 yaşında idmançıya oxşar şəxs də var idi. Salamsız-kəlamsız Sahib mənə dedi ki, Ağaşirin, sən mənə neyləyə bilərsən? Çaya dəvət etdim. Gördüm ki, yanında olan şəxs də üstümə gəlir. Ayağa qalxmaq istəyəndə, başıma zərbə endirdi. Döyməyə başladılar. Ara-sıra cavablarını verirdim. Amma iki nəfər idilər. Camaat aralayandan sonra Sahib açıq şəkildə dedi ki, səni məhv edəcəm. Sonradan kafeyə gələn Arzuman da onu müdafiə etdi.

Qanun çərçivəsində 18-ci polis bölməsinə şikayət etdim. Tibbi ekspertizadan keçdim. Məcbur olub, kirayə qaldığım yeri də dəyişdim. “Yeni Müsavat” vasitəsilə Ramil Usubova, Eldar Mahmudova müraciət edirəm ki, təhlükəsizliyimə təminat versinlər. Sahib və dəstəsi məni öldürə bilər. Onun partiya sədri olmaq şansları itdiyindən bu yola əl atıb. DİN və MTN-ə teleqram vuracam. Çünki AXCP Rəyasət Heyətində ölümümə qərar verilib. Bunu da yerinə yetirəcək şəxs Sahib Kərimlidir. Başıma bir iş gəlsə, hakimiyyətdən görəcəklər. Amma bilin ki, belə deyil. Bu işin arxasında partiya rəhbərliyinin dayandığını deyə bilmərəm. Bu işlərin arxasında Sahib, Rafiq, Arzuman və Razi Nurullayev durur. Bunlar hər an mənə qəsd edə bilərlər. Sahib dövlət məmurları tərəfindən zənginləşib. O, hər şeyi edə, qan da batıra bilər. O, belə işlərdə çox səriştəlidir. Onu bu gün tanımıram. Həbsdə olarkən kreditlərini bağladığımız şəxs indi cangüdənlə gəzir. Güc nazirliklərindən xahiş edirəm ki, təhlükəsizliyimə təminat versinlər. Məni polis bölməsinin müavini qəbul etdi. Ona da dedim ki, Sahibin arxasında hansısa məmur dayanır. Söz verdilər ki, kimin durmasından asılı olmayaraq, məsələ araşdırılacaq".

**Sabiq şöbə müdiri yaxın günlərdə açıqlayacağı faktların anonsunu da verdi:** “Gələn həftə mətbuat və cəmiyyətə real faktlar açıqlayacam. Suraxanıdan üç gənc qovularkən Sahib Kərimli mənə nə dedi? Ondan bir gün sonra AXCP-nin Rəyasət Heyətinin toplantısı keçiriləcək. Həsən Kərimovun evinin qarşısında mən tərəfdən aksiya olmalı idi. Niyə pozuldu? Arzuman Məcidli Sahib Kərimlinin yanında hansı işləri yerinə yetirir? Arzuman bəyin Əli Kərimliyə, Həsən Kərimova, Gözəl Bayramlıya olan nifrəti haradan qaynaqlanır? Onu Sahibə bağlayan nələrdir? Rafiq mənimlə partiyanın bir fraksiya əlinə keçməsi üçün hansı söhbətləri edib? Hansı rayonları aramızda bölüşdürmüşük? İki Rəyasət Heyəti üzvünün Razi Nurullayev və Əli Kərimli ilə olan əlaqələri, onların iç üzünü bazar ertəsi açıqlayacam”.


Gönderi | Fotoğraf / Video

Bir şeyler yaz...

Agasirin Tarverdioglu
22 saat

Sabah AXCP-de elametdar gundur. Neheng kadin herekatinin yaranmasinin 3 ili tamam olur. Bu munasibetle boyuk ziyafet senliyi kecirilecek. Ziyafetin tamadasi Fuad Qehremanli, serpayisi Mammad Ibrahim olacaq. Ziyafet senliyinde gorkamli musiqicilerde istirak edajak. Taninmis mugam ustasi Arzuman Macidlini gitarada Nureddin Memmedli, qarmonda Hesen Karimov, klarnetde Eldar Huseyinov, qosanagarada Ebulfaz Qurbanli musayet edejak. Ilk musiqi nomresi Rafiq Dasdamirlinin ve Sahib Kerimovun serefine vagzali havasiyla baslayajak. Oyun havalarindan yigilan sabas pullarininin 20 faizi Neheng Kadinlar Herekatinin hesabina, 80 faizi ise Azadliq qazetinin iscilerine verilejek.)))

Beğen · Yorum Yap · Paylaş

Cavid Musazade, Elvin Baycan ve Dayanat Babayev bunu beğendi.

Yorum yaz...




**Sahib Kərimli də öz növbəsində iyulun 1-də baş verən hadisələrlə bağlı facebookda status paylaşıb:** “Ağaşirin Tanrıverdioğlu illərlə tanıdığım cəbhəçidir, bu yaxınlarda o partiyadan xaric edilib. Bundan sonra qəzet və saytlara partiya rəhbərliyi haqqında müsahibələr verməyə başlayıb. Mən ona silləni partiya mənafeyini qorumaq üçün və ya fərqli siyasi baxışlarına görə vurmamışam.

Tənqidə dözümlə yanaşmağı daim təbliğ edən bir siyasi xəttim olub, özüm də bəzən çox sərt tənqidlər etmişəm. Ümumiyyətlə, zora qarşıyam, vurduğum sillənin hüquqi qiymət alması vacibdir, bunu mən özüm tələb edirəm.

Hüquq ictimai əxlaqın tənzimləyə bilmədiyi məsələyə müdaxilə edərkən siyasi amilləri nəzərə almamalıdır. Siyasi mövqeyimə görə mənə münasibətdə ifrata varırlarsa, qarşı tərəfin aşağıda açıqlayacağım əməlləri nəzərə alınmazsa, deməli, bu ölkədə söyüşdən əziyyət çəkən iradə sahibləri hallarından məmnundurlar".

**AXCP funksioneri gəlirləri barədə də məlumat verib:**

“Bir neçə biznes sahələrində fəaliyyət göstərmişəm. 1999 - 2004-cü illər ərzində çap məhsullarının istehsalı və satışı ilə məşğul olmuşam. 2006 -2011-ci illər ərzində Mingəçevir şəhərində mobil telefon alış - satışı ilə məşğul olan şərikli biznesim olub. 2011-ci ildə məlum 2 aprel hadisələrinə görə həbs edilmişəm, həbsdə olduğum müddətdə biznesim dayandırılıb, ciddi kredit borcum yaranıb. Bütün əmlakımı *(ev, maşın və s)* sataraq, həbsdən sonra borc öhdəliklərimi qaytarmışam. Hazırda kreditlə bir avtomobilim var və kirayədə yaşayıram. Təqribən 8 aya yaxındır ki, yaxın qohumumla birlikdə, Bakı şəhərində kafe icarəyə götürmüşük. Kafenin zirzəmisindən şəxsi ofis kimi istifadə edirəm, oranın işlədilməsi qohumumun üzərindədir ”.

**Sahib Kərimli sabiq şöbə müdirinə etdiyi köməkdən də danışıb:** “Ağaşirin Tanrıverdioğlu dəfələrlə mənə maddi köməklə bağlı müraciət edib və mən ona köməklik etmişəm. Və bu zaman bunu çox təbii qəbul etmişəm, çünki mən özüm də işləmədiyim *(xüsusilə həbsdən yeni çıxdığım dönəm)* vaxtlarda müxtəlif yaxın adamlardan borc və ya kömək istəmişəm. Təbii ki , problemi həll etdikdən sonra öhdəliklərimi yerinə yetirmək şərtilə. Partiya rəhbərliyi haqqında müxtəlif ifadələr səsləndirməyə, müxtəlif qüvvələrin onu istiqamətləndirməyə başladığı dövrdən sonra Ağaşirin Tanrıverdioğlu tez-tez maddi köməklə bağlı müraciət etməyə başladı. Son vaxtlar isə bunu tələb kimi səsləndirirdi. Bir neçə dəfə kafeyə gələrək pulsuz yeyib - içiblər. Əvvəlcədən mənə zəng edib, kafeni işlədən qohumumun onlardan pul almamasını xahiş edib. Son dönəmlər isə xüsusilə qəzetlərə müsahibələr verdikdən sonra tələbləri şantaj xarakterli idi. Kafeni işlədən qohumum mənə zəng edib bildirdi ki, Ağaşirin və yanındakılar yeyib - içiblər və hesabı ödəməkdən imtina edirlər. Mən Ağaşirin və dostlarına bundan sonra heç bir güzəşt edilməməsi ilə bağlı tapşırıq verdim və telefon zənginə cavab vermədim. Aşağıdakı fotolarda onun müxtəlif nömrələrdən göndərdiyi mesajlar yer alıb. Bundan sonra Ağaşirin Tanrıverdioğlu müxtəlif yerlərdə haqqımda aşağılayıcı ifadələr işlədib, ictimai nüfuzuma zərbə vurmağa çalışdı. Bütün bunlardan sonra mən yenə də müəyyən şəxslər vasitəsilə onu sayğılı olmağa dəvət etdim. Təəssüf ki, məni təhqir etməyə davam etdi. FB - də yazdığı təhqiramiz statusdan sonra *(aşağıda fotolarda)* mən yenə dostlardan xahiş etdim ki, onunla danışsınlar. O isə heç kimə məhəl qoymadan daha da irəli getdi və mənim şəxsiyyətimi alçaldan ifadələr işlətdi. Dünən təsadüfən Nərimanov rayonunun ərazisindəki parkda gəzişərkən Ağaşirini gördüm, ona yaxınlaşıb əməllərindən çəkilməsini məsləhət bildim. ”Əcəb edirəm" dedikdən sonra ona bir sillə vurmuşam. Ona xəsarət yetirmək niyyətim olmayıb, bu sillə Ağaşirin bəy üçün əslində faydalı olacaq. Ondan istifadə edirdilər, yəqin ki, düşünməyə məcbur olacaq".

❑ Cavanşir ABBASLI


Elton Məmmədov

# Ziya Məmmədovun qardaşı Qusardakı qətldən danışdı

## Elton Məmmədov deyib ki, hadisə zamanı qardaşı Nəriman Məmmədovun sarsıntı keçirməsi və dilinin tutulması faktı doğru deyil

**Xəbər verdiyimiz kimi, Qusar rayonu, Çiləgir kəndində 70 yaşlı Ramiz Gülməmməd oğlu Vəliyev odlu silahla qətlə yetirilib. Qətldən sonra məlum olub ki, öldürülən nəqliyyat naziri Ziya Məmmədovun qardaşı Nəriman Məmmədovun qudasıdır və olay zamanı sonuncu hadisə yerində olub. Olayla bağlı mətbuata açıqlama verən nəqliyyat nazirinin deputat qardaşı Elton Məmmədov ziddiyyətli danışıb. Deputat modern.az saytına deyib ki, hadisə zamanı qardaşı Nəriman Məmmədovun sarsıntı keçirməsi və dilinin tutulması faktı doğru deyil. E.Məmmədov bildirib ki, bu məlumatlar yalandır.**

Deputat “qafqazinfo”ya açıqlamasında isə bildirib ki, hazırda hadisə ilə bağlı istintaq gedir: “Bu cinayət araşdırılır. Qətl zamanı qardaşımın orada olduğu bildirilsə də, mən hadisə yerində olmamışam. Heç nə deyə bilmərəm. Dolğun məlumat əldə etmək istəyirsinizsə, Qusar Rayon Prokurorluğuna müraciət edə bilərsiniz. Onlar ehtiyac duyulan məlumatı sizə verəcəklər”.

Xatırladaq ki, bu hadisənin təfərrüatları barədə virtualaz.org saytı məlumat yaymışdı. Məlumatda deyilirdi: “İyunun 30-da Qusar rayonunun Çiləgir kəndində qətl törədilib. Bakı şəhər sakini, 70 yaşlı Ramiz Gülməmməd oğlu Vəliyev odlu silahla qətlə yetirilib.

Yerli sakinlər R.Vəliyevin Eynulla Hacıyev adlı kənd sakini tərəfindən namus üstə öldürüldüyünü bildirir. Hadisə biznesman Ramiz Vəliyevin Çiləgir kəndindəki villasında baş verib. Eynulla Hacıyev bu villada gözətçi, onun bacısı isə qulluqçu işləyirmiş. O, qətli də bacısının şərəfini qorumaq üçün törədib. Sayt Qusardakı mənbələrdən dəqiqləşdirib ki, qətl hadisəsi də nazirin qardaşının yanında baş verib. Mənbənin bildirdiyinə görə, hadisə vaxtı N.Məmmədov qudasının villasında istirahətdə imiş. Gözətçi E.Hacıyev R.Vəliyevi güllələyəndə nazirin qardaşı da ruhi sarsıntı keçirib, onun hətta qorxudan dili tutulub. Onu əvvəlcə rayon xəstəxanasına, oradan isə Bakıya gətiriblər.

Eynulla Hacıyev hüquq-mühafizə orqanları tərəfindən saxlanılıb. “Turan” agentliyinin xəbərində isə deyilir ki, gözətçi öz ailəsinin şərəfini qorumaq üçün R.Vəliyevi güllələyib.

❑ E.HÜSEYNOV

# Rəsul Quliyevdən ateist açıqlamalar

**Parlamentin eks-spikeri, hazırda ABŞ-da mühacirətdə yaşayan Rəsul Quliyev modern.az saytına müsahibə verib. Eks-spiker bu dəfə ənənəvi siyasət mövzusunda deyil, dini mövzulardan danışıb. Və nə qədər qəribə də olsa, din düşmənçiliyi edib.**

## "Namazın fəlsəfəsi artıq klassik əhəmiyyətini itirib. Mən müsəlmançılıqdan uzağam"

R.Quliyevin bu açıqlamaları, bilərəkdən dini ehkamlara qarşı çıxış etməsi onun bir siyasətçi kimi Azərbaycanda prezident postuna iddiaları ilə üst-üstə düşmür, daha doğrusu, bu mövqeyi ilə onun dindar azərbaycanlılar tərəfindən dəstəklənəcəyi qətiyyən mümkün görünmür.

Məsələn, R.Quliyev deyir ki, oruc tutmur və İslamın vacib buyurduğu orucu qəbul etmir. Eyni zamanda namaz qılmadığını deyən keçmiş spiker bununla da qalmayaraq namazın "əhəmiyyətini itirdiyini" iddia edib.

**Sitat:** "Namazın fəlsəfəsi artıq klassik əhəmiyyətini itirib. Mən doqma müsəlmançılıqdan uzağam. İslam aləmində etiraf etməsələr də, azı 70 faiz müsəlman doqmalıqdan uzaqdır. Ona görə də təbii ki, namaz qılmıram".

**Eks-spikerin müsahibəsindən sitatları təqdim edirik:**

..."Qurani-Kərim dini adət-ənənələri müəyyənləşdirən kitabdır. Oruc tutmaq, namaz qılmaq bu kitabın yüzlərlə qanun-qaydalarından cəmi ikisidir. Bunların heç birinə deməli olar ki, əməl etmirəm. Bir çox qayda-qanunlar var ki, onlar sonradan kəşf edilib".

..."Məhərrəmlik, aşura, şaxsey- vaxsey və sair. Onların heç birinə əməl etmirəm. Çünki İslamın fövqündə yaranıb. Mən düşünürəm ki, İslam 500 il, 7-ci əsrdən 12-ci əsrin axırınacan cəmiyyəti yüksək tərəqqiyə aparıb, elmə xüsusi yol açıb. Amma bunlarla yanaşı, İslamın bəzi adət-ənənələrini qəbul edənlərdənəm".



**Parlamentin sabiq sədri sonuncu peyğəmbər gerçəyini də qəbul etmir: "Məhəmməd peyğəmbər kimi yeni bir liderin yetişməsinə və reformaları başlamasına böyük ehtiyac var"**

..."İslam dininə görə, Allah fövqəladə bir qüvvədir, heç bir insan heç vaxt Allah ola bilməz. "Allahın yerdə ancaq vəkili ola bilər" ideyası əsasdır. Müsəlman dini ilk dəfə qadınla kişinin bərabərhüquqlu olmasını, hakimiyyətin varisliklə yox, seçimlə formalaşdırılması prinsipini irəli sürən bir dindir. Onun mütərəqqi olmasını heç kim danmır".

..."Bir çox gizli içən din xadimlərindən fərqli olaraq, müəyyən qonaqlıqlarda və ya toplantılarda az da olsa, içirəm. Fikirləşirəm ki, Azərbaycanda 90 faiz adam spirtli içki içir, ancaq məndən fərqli olaraq çox içirlər və danışıq tərzlərini itirirlər".

..."Mən ateist deyiləm, tək Allahlıq dininə üstünlük verən şəxsəm. İsanın xristianlıqdakı kimi, Allaha çevrilməsi əfsanəsini isə qəbul etmirəm. Məhəmməd peyğəmbərin dahi olduğuna və proqressiv bir din yaratdığına inananlardanam. Amma "İslam mükəmməl dindir, bu dində heç bir şeyi dəyişmək olmaz" kimi fikirləri düzgün hesab etmirəm. Necə yazılıbsa, məsələn, "Günəş yerin ətrafında fırlanır" ideyasını elə də qəbul etməyi əbləhlik sayıram. Söhbət cəmiyyətin formalaşmasında İslam dininin rolundan gedir və bu rol danılmazdır. Ancaq ömrünü nəyəsə sitayişlə keçirsən, həyat keçib gedəcək və sən onu görməyəcəksən".

..."İslam dinində reformaların başlanması çox vacibdir. Xristianlıqda bu, bir neçə dəfə baş verib. İslamdakı "islahatlar" isə bu günə qədər dini daha da radikallaşmağa aparıb. Şiəlik, onun ardınca vəhabilik kimi fundamentalist qüvvələr meydana çıxıb. Hər halda, Məhəmməd peyğəmbər kimi yeni bir liderin yetişməsinə və reformaları başlamasına böyük ehtiyac var. Ola bilər ki, bu tipli islahatlar, məsələn, daha tolerant ölkə olan İndoneziyadan başlasın. Bugünkü doqma İslam dinində inkişafın qarşısını alır".

..."Cənnət, o biri dünya ideyaları insanların ağır yaşamaqları nəticəsində formalaşan üsyankar xarakterlərini cilovlamaq üçün tətbiq olunan ideologiyadır. Bu ideyaların mayası insanların mütiləşməsi, hüquqlarını tələb etməməsi xəmirindən yoğrulub. Sivil ölkədə, qanunların mövcudluğu şəraitində dini qaydalarla yaşamağa edilən çağırışlar cinayət səviyyəsindədir".

❑ **Hazırladı: KƏNAN**

# Əgər ironiya olmasaydı...



**Hüseynbala SƏLİMOV**

**Sizə heç də qəribə gəlməsin. Nə az, nə çox, düz 23 il sərasər siyasətdən yazandan sonra gəldiyim əsas nəticə odur ki, mən bu siyasət deyilən məsələdən heç nə anlamıram. Ona görə ki, mən həmişə onun içində məntiq və əxlaq axtarmışam. Amma sonradan bəlli olub ki, məhz bu iki şeyə siyasətdə ən az təsadüf edilir və kimsə siyasətdə onları aramaqla məşğuldursa, bilin ki, o, məğlub olmağa məhkumdur...**

Sizdən yaxşı olmasın. Bir yaxşı dostum vardı. O, da həmişə deyirdi ki, tsinizm siyasətdə adamı dəli olmaqdan qoruyur. Elə doğrudan da adam siyasətin "dürlü mətləbləri" haqqında düşündükcə bir də baxıb görür ki, ayaqları yerdən üzülüb...

Elə bu səbəbdən də salamatı, düzgünü siyasət haqqında yalnız ironik tonda yazmaq və danışmaqdır. Ən azı o səbəbdən ki, o, bundan artığına layiq deyil. Mən hələ bu vaxta qədər elə adama rast gəlməmişəm ki, siyasət qarşısında heyrətdən donmuş olsun. Ən yaxşı halında, hətta fövqəl halında belə o, bizi yalnız və yalnız bir "şeytan əməli" kimi heyrətləndirir...

Qərəz, çox da uzağa getməyək, keçək mətləbə. Avropanın içində bir Belarus var. O Belarus ki, bu ilin payızında özünün növbəti prezident seçkisinə hazırlaşır. Artıq ölkənin "əsas" seçki komissiyası da prezident seçkilərilə bağlı kampaniyanın başlanmasına start verib...

Bəli, bizim Belarus o ölkələrdəndir ki, hələ də özünün birinci prezidentindən ayrıla bilmir. 1994-cü ildə hakimiyyətə gələn həmin prezident - A.Lukaşenko nəhayət ki, bu dəfə legitim prezident olacağını düşünür. Fikir verin. O, 21 ildən sonra öz postu ilə vidalaşmaq haqqında düşünmür, əksinə Avropanın da tanıyacağı legitim prezident olmaq arzusu ilə yaşayır...

Qərəz, "Yaşayır" deyəndə ki, Belarus prezidenti o adamlardandır ki, "Xoşbəxt olmaq istəyirsənsə ol!" fəlsəfəsi ilə düşünür. Onun xoşbəxtliyi ölkənin Mərkəzi Seçki Komissiyasından, Mərkəzi Seçki Komissiyasının adamlarının xoşbəxtliyi isə ondan asılıdır...

Böyük bir xətaya varmadan güman edirik ki, Belarus prezidenti bu dəfə də arzusuna çatacaq, çünki Rusiya mediasının "Belarusbaşı" adlandırdığı bu adamı ölkədə çoxları sadəcə, "batka" deyə çağırır. Bundan əvvəlki seçkilərdə hətta Rusiya onun hakimiyyətdən getməsini istəyirdi, çünki o, Rusiya oliqarxlarını ölkəsinə buraxmadığına görə onların bərk qəzəbinə tuş gəlmişdi. Amma "batka" ilə bacarmadılar...

Baxanda indi şərait bir az da əlverişlidir. Hətta nə qədər qəribə olsa da, bizim Minsk bir çox mənalarda Avropa siyasətinin mərkəzlərindən birinə çevrilir-burada Avropanı təmsil edən böyük siyasət adamlarına axır vaxtlar çox tez-tez təsadüf etmək olur...

Ona görə "bizim Minsk" yazıram ki, bizim əsas problemimiz-Qarabağ problemi də düz 23 ildir ki, məhz Minsk Qrupu tərəfindən çözülür. Amma nə yazıqlar ki, çözüb qurtara bilmirlər ki, bilmirlər...

Xülasə, Qoca Dünya-Avropa azacıq da olsa Belarus prezidentinə qarşı loyallaşıb. Bu da artıq qeyd etdiyimiz kimi, prezidentin ümidlərini artırır. 21 il hakimiyyətdə olmaq, Avropanın içində avtoritar ada yaratmaq elə də asan məsələ deyil-Belarus prezidentinin bu "bacarığ"ını təbii ki, qiymətləndirmək lazımdır. Elə ona görə də tamamilə səmimi şəkildə deyirik ki, Belarus prezidentini də "sadə bəndə" hesab etmirik...

Onun bioqrafiyasına baxanda hər şey çox adidir-Pedaqoji İnstitutun tarix fakültəsi və qiyabi Kənd Təsərrüfatı Akademiyası...

Fəqət, bir mühüm detal var ki, o, dərhal nəzərə çarpır və onu qeyd etməmək olmur. Belarus prezidenti ən gənc yaşlarından DTK-nın instruktoru vəzifəsində işləməyə başlayıb və görünür, DTK məktəbi o qədər də faydasız ötüşməyib; bu məktəb özünün daha bir "istedadlı cocuğ"unu yetişdirə bilib...

Sözsüz ki, burada proqnoz verməkdən uzağıq. Ona görə ki, hər şeyi, elə o cümlədən proqnozları da Belarus prezidentinin özü verir. Payızda o, növbəti dəfə prezident "seçiləcək"...

Bunu dırnaqsız da yazmaq olardı. Avtoritar ölkələrdə adətən güclü müxalifət olmur, çünki ona güclü olmağa sadəcə, imkan vermirlər - "şeytan əməli" deyilən siyasətin o qədər dürlü üsulları var ki...

Elə bu səbəbdən də Qoca Dünya da barışmaq zorundadır. Səbəbi də çox sadədir. Dünyada problem o qədər çoxdur ki, onları sıralamaq lazım gəlir və bir də baxıb görürsən ki, Belarus və onun prezidenti bu cərgədə lap aşağı yerlərdən birini tutur...

Neyləmək olar? Siyasətdir, daha doğrusu, "şeytan əməli"dir...

# "Məhkəmədə deyəcəyəm ki..."

## Tural Mustafayev Xədicə İsmayılın məhkəməsində nə deyəcəyini açıqladı

**Xəbər verildiyi kimi, AzadlıqRadiosunun əməkdaşı Xədicə İsmayılla bağlı aparılan istintaq yekunlaşıb. Bu barədə xanım jurnalistin vəkili Fariz Namazlı bizə açıqlamasında detallı bilgi verib.**

Amma verdiyi şikayət ərizəsi əsasında X.İsmayılın həbsinə səbəb olan radionun keçmiş əməkdaşı, jurnalist Tural Mustafayev də facebook profilində istintaqın bitməsi ilə bağlı Respublika Prokurorluğuna çağırıldığını xəbər verib.

"Yeni Müsavat"a kiçik müsahibəsində T.Mustafayev bu barədə detallı danışdı. Müsahibimiz öncə prokurorluğun çağırışına əsasən idarəyə gedib-getməməsinə aydınlıq gətirdi.

- Bəli, məni prokurorluğa çağırmışdılar, amma getmədim. Bu həftənin şənbə günü yenidən çağırıblar, şənbə günü gedəcəyəm.

***- Siz Xədicə İsmayıla qarşı şikayətinizi geri götürdüyünüzü daha öncə bəyan etmişdiniz. Bu halda niyə sizi hələ də zərərçəkən hesab edib, jurnalistə qarşı "özünü öldürmə həddinə çatdırma" maddəsi ilə ittihamı saxlayıblar?***

- Mən imtina etmişəm şikayətimdən. Amma istintaqdan məktub gəlib ki, istintaq yekunlaşıb, gəlməlisiniz. Bakı Şəhər Prokurorluğu məni hələ də zərərçəkmiş qismində tanıyır. Ona görə də iş Ağır Cinayətlərə verildən sonra bu məsələdə problemlər yaranıb - Bakı Şəhər Prokurorluğu məni zərərçəkən kimi tanıdığı üçün. Anlamıram ki, məni nəyə görə çağırırlar.

***- Hüquqşünaslarla məsləhətləşmisinizmi? Əgər siz şikayətinizi geri götürmüsünüzsə, qanun hələ də sizi zərərçəkmiş kimi tanımağa imkan verirmi?***

- Hüquqşünasla məsləhətləşməmişəm. Əslində şikayət ərizəsini geri götürmüşəm. Bilmirəm, bu halda məni zərərçəkən kimi saxlamağa qanun icazə verir, ya yox. Amma mən Xədicə xanımdan şikayətçi deyiləm. Təzyiq altında şikayət etmişəm.



**Tural Mustafayev**

***- Hesab edək ki, iş məhkəməyə qədər uzananda da sizi prosesə şahid qismində dəvət etdilər. Bu halda məhkəmədə necə ifadə verəcəksiz?***

- Mən şikayətimdən imtina ərizəmdə bütün gerçəkləri yazmışam. Əgər məhkəməyə çağırılsam, gedib orda həqiqəti danışacağam. Məhkəmədə deyəcəyəm ki, Bakı Şəhər Prokurorluğunun iki əməkdaşı, Bakı şəhər prokurorunun birinci müavini və MTN tərəfindən məcbur olunmuşam ki, şikayət edim. Şantaj ediblər, təzyiq göstəriblər. Sübut olaraq da dekabrın 27-də mən Göyçayda yaşadığım ünvandan oğurlanmışam. Fevral ayına qədər bir neçə yerdə saxlanmışam.

***- Həbsdə olduğu müddətdə Xədicə İsmayıla da bu yaşadıqlarınızla bağlı hər hansı xəbər çatdırmısınızmı?***

- Xədicə xanıma hər hansı xəbər çatdırmamışam. Yəqin ki, vəkilləri bu barədə məlumat veriblər ki, məni şikayət etməyə məcbur ediblər. Bu, ictimailəşmiş və həm də ona ünvanlanmış mesaj idi. Mən bu mesajla bildirmək istəmişdim ki, mənim heç bir günahım yoxdur, mənə təzyiqlər olub. Ondan da mənə heç bir xəbər, mesaj gəlməyib.

❑ **Sevinc TELMANQIZI**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Kəlbəcərli girovların məsələsi ATƏT PA-da qaldırılacaq

## Azərbaycan parlamentinin vitse-spikeri: "Beynəlxalq ictimaiyyətin də qorxduğu ondan ibarətdir ki, münaqişənin bir gün aktiv fazaya keçməsi mümkündür..."

**ATƏT Parlament Assambleyasının (PA) iyulun 5-9-da Helsinkidə keçiriləcək illik sessiyasının plenar iclasında müzakirəyə çıxarılacaq qətnamə layihəsində "dondurulmuş" münaqişələrin həlli ilə bağlı hissədə Moldova (Dnestryanı), Gürcüstan (Cənubi Osetiya, Abxaziya), Ukrayna ilə yanaşı, Azərbaycan (Dağlıq Qarabağ) məsələsi də əksini tapıb. Bu barədə APA-nın yaydığı məlumatda deyilir. ATƏT PA-nın rəsmi saytına istinadən verilən məlumata görə, təşkilatın Siyasi Komitəsində müzakirə olunacaq qətnamə layihəsində isə "Cənubi Qafqazdakı münaqişələr" adlı hissə yer alıb.**

Qarabağda hərbi əməliyyatların başlanacağı ilə bağlı davamlı informasiyaların yayılması fonunda beynəlxalq qurumların məsələnin dinc yolla çözülməsi istiqamətində hansısa addımlar atmağa nəhayət ki, qərar verəcəyi məntiqlə gözlənilendir. Xüsusilə də ATƏT-in Minsk Qrupunun ölü quruma çevrilməsindən sonra Azərbaycanda dinc yolla tənzimlənməyə ümidsizliyini ifadə etməsi beynəlxalq təşkilatlara da yaxşı bəllidir. Ancaq belə görünür ki, hələlik hansısa ciddi addımı gözləməyə dəyməz.

**Milli Məclis sədrinin müavini, Azərbaycanın ATƏT PA-da nümayəndə heyətinin rəhbəri Bahar Muradova "Yeni Müsavat"a bildirdi ki, növbəti illik sessiyada qətnamə layihələri komitələrdə müzakirə olunacaq və sonda əlavə bəndlər nəzərdə tutulmaqla ümumi Helsinki bəyannaməsi qəbul olunacaq:** "ATƏT regionunda və dünyada gedən proseslər, çoxsaylı problemlər və bu problemlər ətrafındakı müzakirələr burda üstünlük təşkil edəcək. Son illərin əsas mövzusu Ukrayna ilə bağlıdır. Ukrayna məsələsinin müzakirəsi kontekstində ATƏT regionundakı digər münaqişələrlə bağlı da təbii ki, müzakirələr olacaq. Konkret olaraq Qarabağ məsələsi ilə bağlı ayrıca bir sənədin qəbulu gözlənilmir. Amma biz bütün beynəlxalq tədbirlərdə müzakirə olunan məsələlərə məhz bu kontekstdən yanaşırıq və bizi narahat edən məqamları gündəmə gətiririk. Əsas olan odur ki, həm qətnamə layihələrində ərazi işğalı ilə nəticələnən münaqişələrə münasibətdə əsas formalaşmış mövqe - hansı ki, bir neçə il əvvəl bu mövqeyi söyləyən və sənədlərə daxil etmək istəyənlərin sayı o qədər də çox deyildi - ondan ibarətdir ki, bəli, ölkələrin ərazi bütövlüyü və güc yolu ilə ərazilərin dəyişdirilməsi, dövlətlərin ərazi bütövlüyünün pozulması mümkün deyil və bunu qəbul etmək olmaz. Bu məsələlər Helsinki Yekun Aktının və beynəlxalq hüququn prinsipləri əsasında həllini tapmalıdır. Qəbul ediləcək sənədlərdəki müsbət məqam bundan ibarətdir. Əvvəllər bəziləri bunu yalnız bizim mövqeyimiz kimi qəbul edirdi və bu tələbləri bir çox hallarda biz irəli sürürdük. Amma Ukrayna hadisələrindən sonrakı proseslərdə ölkələr anlamağa başladı ki, beynəlxalq hüququn əsas aparıcı, fundamental prinsipləri pozulduqda dünyanın bütün nizamı pozulur və bu təhlükəni artıq hər kəs hiss etməyə başlayıb".

**B.Muradova qeyd etdi ki, Qarabağ məsələsi ilə bağlı hətta hansısa sənədin qəbulu ilə bağlı təşəbbüs göstəriləndə beynəlxalq təşkilatlarda onunla bağlı ciddi problemlər yaranır:** "Elə bugünlərdə AŞ PA-da məruzənin qəbulu zamanı Dağlıq Qarabağ probleminin sənəddəki əksi bir çox dəyişikliklər təklifi ilə müzakirə olundu. Orda neytral "formulirovka" seçildi ki, bəli, Avropa Şurası Dağlıq Qarabağ probleminin mövcudluğundan məlumatlıdır. Bu, münaqişənin həllinə nə dərəcədə kömək edə bilər, aydındır, çox böyük şübhə doğurur. Bu mənada mən ATƏT PA-da bununla bağlı hansısa bir ifadənin olub-olmamasının məsələyə elə ciddi təsir göstərəcəyini düşünmürəm. Əksinə, prinsipial yanaşma olaraq ərazi bütövlüyünün vurğulanmasının özünü müsbət məqam kimi qeyd etmək olar".

**Son vaxtlar davamlı şəkildə müzakirəsi gedən müharibə ehtimalına toxunan vitse-spiker bunları bildirdi:** "Biz əgər müharibə vəziyyətində yaşayırıqsa, gündəlik təmas xəttində insidentlər olursa, insanlar həyatını itirirsə, Azərbaycan əraziləri getdikcə daha artıq tar-mar edilirsə, nə vaxtsa sülh yolu ilə həllə nail olunmadığı təqdirdə müharibənin qaçılmaz olduğunu hər kəs bilir. Beynəlxalq ictimaiyyətin də çəkindiyi, qorxduğu ondan ibarətdir ki, heç də dondurulmuş olmayan, hər gün qurbanlarla və insidentlərlə müşayiət olunan bu münaqişənin bir gün aktiv fazaya keçməsi mümkündür. Bu ehtimalı hər kəs qəbul edir, bu, yalnız Azərbaycan vətəndaşlarının düşüncəsi deyil. ATƏT PA-da da belə düşünənlər çoxdur".

**B.Muradovanın sözlərinə görə, ATƏT-in Minsk Qrupunun fəaliyyətini analiz edəndə gəlinən əsas qənaət ondan ibarət olur ki, qurumun işi yenidən döyüşlərin bərpa olunmasının və məsələnin müharibə fazasına keçməsinin qarşısını almaqdan ibarətdir:** "Yəni onlar məsələnin həllindən daha çox, buna səy göstərirlər, bu da bizi narazı salır. Ona görə də Minsk Qrupunun fəaliyyətindən imtina barədə Azərbaycan cəmiyyətində haqlı olaraq fikirlər səslənir. Amma Minsk Qrupundan imtina etdikdən sonra yerində nə olacaq, bu məsələni də düşünmək lazımdır. Qrupdan imtina etməkdənsə, onun fəaliyyətini artırmasını və qurumun fəaliyyətinə yeni mexanizmlərin daxil olmasının tərəfdarıyam. Bu imkanlardan istifadə ediləcəyi təqdirdə məsələni həll etmək olar".



**Vitse-spiker sessiyada kəlbəcərli girovlar Dilqəm Əsgərov və Şahbaz Quliyevlə bağlı da məsələ qaldıracaqlarını söylədi:** "Orda təqdim olunan layihə sənədlərində Rusiya ərazisində Ukrayna vətəndaşının konkret ad çəkilməklə saxlanılması məsələsinin qəbulolunmazlığı fikri əksini tapır, onları girov hesab edirlər. Nədənsə həmin qüvvələr öz ata yurduna gedən Azərbaycan vətəndaşlarının Azərbaycan ərazisində girovluğu məsələsində susqunluq nümayiş etdirirlər. Bununla bağlı əlbəttə ki, məruzənin və qətnamənin müəllifinə mövqeyimizi açıqlayacağıq. Ukrayna nümayəndəsinin adının qalacağı təqdirdə digər adların da ora daxil edilməsini təklif edəcəyik. Lakin qərar çoxluq tərəfindən qəbul edilir. Ona görə də bəribaşdan nəticə haqda qəti söz deyə bilmirəm".

Xatırladaq ki, ermənilərin Kəlbəcər rayonunda girov götürdükləri azərbaycanlı Dilqəm Əsgərov və Şahbaz Quliyev 1 ildir ki, terrorçuların əlindədir. Qardaşı Sahib Əsgərovun dediyinə görə, D.Əsgərov ailəsinə son məktubunda bildirib ki, Beynəlxalq Qızıl Xaç Komitəsinin vasitəçiliyi ilə göndərilən məktubda D. Əsgərov Şuşa şəhərində olduğunu qeyd edib: **"Hər kəsə salam deyin. Vəziyyətim yaxşıdır. Beynəlxalq Qızıl Xaç Komitəsinin nümayəndəsi Tomas mənə gəlib baş çəkdi. Həftədə bir dəfə hamam olur. Gündə bir saat gəzinti olur. Köhnə tanışlarıma salam deyin. Hazırda Şuşadayam. Kamerada yanımda su kranı var. "Məhkəmə"lərim tamamlanıb. Yuxumda meşəçi Əllədini görmüşəm. Vəziyyəti necədir?"**

Dilqəm Əsgərov ömürlük həbs, Şahbaz Quliyev isə 22 il müddətinə azadlıqdan məhrum edilib.



# "Ermənistanda vəziyyətin onlar üçün ürəkaçan olmadığını dərk edirlər"

## Üzeyir Cəfərov: "Qarabağ savaşı başlayacağı təqdirdə, Rusiya 90-cı illərdə olduğu kimi, proseslərə müdaxilə etmək iqtidarında olmayacaq"

**"Artıq Birinci Avropa Oyunları arxada qaldı və necə deyərlər, indi həm böyük təşviş içində olan Ermənistanda, həm də elə ölkəmizin özündə hamını bir sual çox maraqlandırır: görəsən, Qarabağ cəbhəsində nə baş verəcək? Ən çox narahat olan tərəf sözsüz ki, bədnam Ermənistanın siyasi və hərbi rəhbərliyidir. Təsadüfi deyil ki, prezident Serj Sarkisyanın əlaltısı sayılan müdafiə naziri Seyran Ohanyan dərhal cəbhə bölgəsinə gəldi və işğalçı ordunun zabit və əsgərlərinə bəzi təlimatları çatdırdı".**

**Hərbi ekspert Üzeyir Cəfərov** bunu "Yeni Müsavat"a cəbhədəki son durumu dəyərləndirərkən söylədi. Ü.Cəfərovun sözlərinə görə, Ermənistanda vəziyyətin onlar üçün heç də ürəkaçan olmadığını dərk edirlər: "Daxildə etiraz aksiyaları, xaricdə bir sıra ciddi hadisələr onların yuxusuna haram qatıb. Ən çox ümid bəslədikləri Rusiya tərəfindən hərbi əməliyyatlar başlayacağı təqdirdə onların hansı şərtlər çərçivəsində Sərkisyan və komandasına dəstək ola biləcəyi bəlli deyil. Hətta son etiraz aksiyaları fonunda Ermənistanda Rusiyanın necə seçim etdiyi də açıq şəkildə hiss edilməkdədir. Dünya birliyi də artıq ermənilərin vay-şivəninə, hay-həşirinə əvvəlki illərdə olduğu kimi çox inanmır. Qafqaz kimi vacib bir regionda Azərbaycanın üç Cənubi Qafqaz respublikalarından biri kimi bütün sahələrdə öz sözünü daha ötkəm, daha prinsipial, ən əsası isə müstəqil şəkildə deməyi bacaran bir qüvvəyə çevrildiyinin fərqində olanların sayı da artmaqdadır. Ona görə də Ermənistanın ağır günlərinin çox da uzaqda olmadığı haqqında bəzi mülahizələr və fikirlər söyləmək olar".

**Hərbi ekspert əməliyyatların başlanacağı təqdirdə Moskvanın hansı mövqedə dayanacağı barədə də təxminlərini bölüşdü:** "Qarabağ savaşı başlayacağı təqdirdə, Rusiya 90-cı illərdə olduğu kimi, proseslərə müdaxilə etmək iqtidarında olmayacaq. Bu, birmənalıdır. Diplomatik formada ola bilsin ki, hansısa isterik bəyanatlar, narahatlıqlar və sairə olsun. Amma şəxsən mən inanmıram ki, rus əsgəri rəsmi qaydada gəlib Azərbaycanın beynəlxalq miqyasda tanınan ərazilərində əlində silah ermənilərin əvəzindən vuruşsun, həyatını qurban versin. Həm də budəfəki mücadilə əvvəlkilərdən qat-qat fərqlənəcək. Fərqli müharibə görəcəyik. İndi bəzi dostlarımız həm mətbuat, həm də sosial şəbəkələrdə hələ də ovaxtkı qorxu və təlaş hissindən uzaqlaşa bilməyiblər. İndi zaman da başqadır, Silahlı Qüvvələrimiz və onun imkanları da tamam fərqlidir. Sadəcə, bir az işləmək lazımdır. Əvvəlki illərdə əlində bircə "dayandolurumla" vəhşi muzdlu erməni-rus başkəsənlərinə qarşı döyüşən əsgər və zabitlərimizdən indi sadəcə və sadəcə bir az özünə tam inam və psixoloji cəhətdən hazırlaşmaq tələb olunur".

**Rusiyanın Ermənistana növbəti dəfə 200 milyon civarında silah-sursat yardımına gəldikdə, Ü.Cəfərov hesab edir ki, bu, uzaqlaşan qatarın arxasınca qaçmağa bənzəyən bir addımdır:** "Mən o qədər də sadəlövh deyiləm ki, bu məqamı ciddiyə almayım. Amma burada açıqlanması lazım olmayan bəlli məsələlərə görə hesab edirəm ki, bu, artıq o qədər də mühüm əhəmiyyət kəsb etməyəcək. Elə iyunun 25-də Silahlı Qüvvələr günü ilə bağlı hərbi hissənin açılışında çıxış edən ölkə başçısının, ardınca müdafiə nazirinin bəzi açıqlamaları onu deməyə əsas verir ki, Ermənistan rəhbərliyi nə qədər tez və ağıllı şəkildə qərarlar qəbul etsə, bu onlar üçün yaxşı olar. Bu mövzuda pessimist hisslərlə yaşayan dostlara da məsləhətim budur ki, həm özümüzə, həm də Silahlı Qüvvələrimizin hazırlığına inansınlar və əmin olsunlar ki, həm beynəlxalq hüquq və normalar, həm də Allahın nəzər-diqqəti üstümüzdə olacaq".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 143 (6171) 3 iyul 2015




# Generalın həbsdəki qardaşı ev dustaqlığına buraxılmayıb

## 15 nəfərin ölümünə səbəb olan yanğından 40 gündən çox vaxt ötsə də, faciənin hansı səbəbdən baş verməsi haqda rəy hələ də ortada yoxdur...

**Binəqədidə yanan bina ilə bağlı saxlanan Binəqədi İcra Hakimiyyəti başçısının keçmiş müavini Qəzənfər Novruzov ev dustaqlığına buraxılmayıb. Bu haqda Baş Prokurorluğun mətbuat xidmətindən sorğumuza verilən cavabda bildirilib. Qeyd olunur ki, Q.Novruzovun barəsində seçilən həbs-qətimkan tədbiri qüvvədədir: "Seçilmiş həbs-qətimkan tədbirinin dəyişdirilməsi həqiqəti əks etdirmir. Məhkəmənin qərarı dəyişdirilməyib. Hazırda iş üzrə istintaq əməliyyat qrupu tərəfindən zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir". Qeyd edək ki, Qəzənfər Novruzovun daha bir qardaşı general-mayor Səbuhi Novruzov Naxçıvan MR daxili işlər nazirinin müavinidir.**

Mayın 19-da 15 nəfərin ölümünə, 56 nəfərin xəsarət almasına gətirib çıxaran yanğından 1 aydan artıq vaxt ötür. Amma yanğının hansı səbəbdən baş verməsi haqda rəy ortada yoxdur. Bu gün də bilinmir ki, bina təsadüfi qığılcımdan alışıb, yoxsa bilərəkdən yandırılıb? Baş Prokurorluğun əvvəlki rəsmi açıqlamalarında qeyd olunur ki, yanğının başvermə səbəbləri, yanğın nəticəsində vurulmuş ziyanın müəyyənləşdirilməsi məqsədi ilə iş üzrə məhkəmə-yanğın-texniki, tikinti-texniki, fiziki-kimyəvi, məhkəmə-tibbi və digər ekspertizalar təyin edilib. Ekspertizaların niyə bu cür ləng aparılmasının səbəbi məlum deyil.

Yada salaq ki, iş üzrə binanın poliuretan materialla üzlənməsi işlərinə nəzarət funksiyalarını həyata keçirməli olan, 2012-2013-cü illərdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini işləmiş Qəzənfər Novruzovla yanaşı Xətaidəki poliuretan üzlüklə binanı



Qəzənfər Novruzov

üzləmiş "TNH" səlahiyyətlisi Fərid Sadıqov, şirkətin direktoru Zaur Əşrəfov, şirkət direktorunun tikinti işləri üzrə müavini Nüsrət Muxtarov da saxlanaraq barələrində 4 ay müddətinə həbs-qətimkan tədbiri seçilib. Binəqədidə və Xətaidə binalarda baş verən yanğınlarla bağlı işlər eyni icraatda birləşdirilərək Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində araşdırılır.

Bu həbsləri ekspertlər, həmçinin ictimaiyyət yetərli hesab etmir. Əsas arqument kimi tutulan şəxslərin səlahiyyət hədlərinin çox aşağı olması göstərilir. Başqa sözlə desək, tutulanların binalara üzlük vurulmasında texniki işçilər olduğu vurğulanır. Qeyd olunur ki, bu şəxslər istəsəydilər belə binaların poliuretanla üzlənməsini özbaşına təmin edə bilməzdilər.

Yanğın əcaib mənzərəni ortaya çıxarıb. Binanı üzləyən şirkətə müvafiq qurumların bu fəaliyyətlə məşğul olmasına icazə vermədiyi aydınlaşıb. Bəs binanın üzlənməsinə dövlət büdcəsindən vəsait ayrılıbmı?

"Yeni Müsavat" bu və digər suallara aydınlıq gətirilməsi üçün mayın 23-də Maliyyə Nazirliyinə informasiya sorğusu yollayıb. Həmin sorğuda aşağıdakı suallara aydınlıq gətirilməsi istənilib:

*1. Binəqədi rayonunda binaların üzlənməsinə dövlət büdcəsindən 2015-ci ilə qədər hər il nə qədər vəsait ayrılıb?*

*2. Vəsaitin təyinatı üzrə xərclənib-xərclənməməsinin auditi hansı nəticələr verib?*

*3. Ayrılmış vəsaitdən bilavasitə yanmış binanın üzlənməsinə nə qədər vəsait xərclənib?*

*4. Həmin binaya ayrılan vəsaitin təyinatı üzrə xərclənib-xərclənməməsinin auditi həyata keçirilibmi?*

*5. Keçirilibsə, nəticəsi necə olub?*

Maliyyə Nazirliyinin mətbuat katibi, informasiya azadlığı üzrə məsul şəxs Mais Piriyev müvafiq araşdırmalardan sonra sorğumuza mayın 29-da cavab verəcəklərini bildirmişdi. İyulun 3-dür, hələ də sorğumuz cavabsızdır...

❑ **E.MƏMMƏDƏLİYEV**

# Ev fırıldaqçılarının mühakiməsi başlayır

## "Sevil Massivi" MTK-dan zərərçəkənlərin pulunu kim və hansı hesabdan ödəyəcək?

**İyulun 8-də Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Əfqan Hacıyevin sədrliyi ilə "Sevil Massivi" MTK-nın vəzifəli şəxslərinin işi üzrə məhkəməyə hazırlıq iclası keçiriləcək. Müttəhimlər kürsüsünə MTK-nın təsisçisi Aynur Zeynalov, direktoru Elçin İsmayılov və digərləri çıxarılacaqlar. İş üzrə tutulanlar qanunsuz sahibkarlıqda, vergi ödəməkdən yayınmada, rüşvət almada ittiham olunurlar.**

Ötən ilin bu günlərində Baş Prokurorluğun mətbuat xidməti "Sevil Massivi" MTK-da baş verənlərlər bağlı məlumat yaymışdı. Həmin məlumatda qeyd olunurdu ki, külli miqdarda vergilərin dövlət büdcəsinə ödənilməsindən yayındırılması faktına əsasən Vergilər Nazirliyində başlanmış cinayət işi üzrə istintaq aidiyyəti üzrə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində davam etdirilib. Kooperativin təsisçisi Aynur Zeynalovun kooperativin direktoru Elçin İsmayılov və digərləri ilə qabaqcadan əlbir olub 2013-2014-cü illərdə 172 min 507 manat məbləğində sadələşdirilmiş vergini dövlət büdcəsinə ödəməkdən yayınmalarında, habelə xüsusi razılıq (lisenziya) tələb olunduğu halda belə razılıq alınmadan qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olaraq 99 min 597 manat məbləğində gəlir əldə etmələrində şübhələr üçün əsaslar olduğundan Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti tərəfindən onlara Cinayət Məcəlləsinin 192.2.2 (qanunsuz sahibkarlıq) və 213.2.2-ci (vergi ödəməkdən yayınma) maddələri ilə ittiham elan edilməklə barələrində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib. Qeyd edilənlərlə yanaşı, Abşeron rayon Hökməli bələdiyyəsinin sədri Mirnamat Miradiyevin bələdiyyə ərazisində yerləşən torpaq sahələrini A.Zeynalov və E.İsmayılovun bilavasitə şərait yaratmaları ilə müxtəlif şəxslərə sataraq ümumilikdə sonunculardan 170 min manat məbləğində rüşvət almasında şübhələr üçün əsaslar olduğundan Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti tərəfindən ona Cinayət Məcəlləsinin 311.3.3-cü (rüşvət alma) maddəsi ilə ittiham elan edilməklə ağır xəstəliyi ilə əla-




qədar barəsində həbslə bağlı olmayan qətimkan tədbiri seçilib. İstintaqla həmçinin müəyyən edilib ki, "Sevil Massivi" MTK-nın məsul şəxsləri Abşeron rayon Hökməli bələdiyyəsinin sədri M. Miradiyevlə əldə etdikləri şifahi razılaşmaya əsasən, bələdiyyənin mülkiyyətində olan 30 hektar perspektiv inkişaf torpaqlarını, eləcə də ayrı-ayrı şəxslərin mülkiyyətində olan "At yalı" və "Sonalı sahəsi" adlandırılan 110 hektar örüş torpaqlarını qanunsuz olaraq zəbt edərək həmin torpaqların vətəndaşlara faizsiz kreditlə satışını həyata keçiriblər. Vətəndaşlar tərəfindən isə həmin torpaq sahələrində layihə-smeta sənədləri olmadan, dövlət qeydiyyatına alınmadan 200 fərdi yaşayış evinin tikintisi həyata keçirilib. Kredit ödənişləri başa çatdıqdan sonra bələdiyyəyə məxsus olmayan sahələr bələdiyyə tərəfindən hərraca çıxarılmaqla satılaraq vətəndaşların adlarına rəsmiləşdirilib. Bundan başqa, "Sevil Massivi" MTK tərəfindən qeyd olunan ərazinin təyinatına uyğun olmadan orada 100-dən artıq çoxmənzilli yaşayış binalarının tikintisi nəzərdə tutulub, həmçinin müvafiq dövlət qurumları ilə razılaşdırılmadan, o cümlədən qanunsuz olaraq aparılan tikinti işlərinin dayandırılması barədə Fövqəladə Hallar Nazirliyinin rəsmi xəbərdarlıqlarına məhəl qoymayaraq, binaların 14-nün özülü qazılmaqla, onlardan 4-də ilkin tikinti işləri həyata keçirilib. Bununla belə, təyinatına görə örüş torpaqları olan həmin sahələrdə qanunsuz tikiləcək çoxmənzilli yaşayış binalarından vətəndaşlara mənzillər satılıb.

Rəsmi məlumatdan belə aydın olurdu ki, iş üzrə azı 300 nəfər zərərçəkən var.

Hazırda ən aktual suallardan biri də MTK rəsmilərinin həbsləri və məhkəmə qarşısına çıxarılmaları zərərçəkənlərin hüquqlarının bərpa olunması ilə nəticələnəcəkmi? Pul ödəyib MTK-dan tikilən mənzilə görə sənədlər alan vətəndaşın külli miqdarda vəsaiti geri qaytarılacaqmı?

Son illər ərzində "Sevil Massivi" MTK-da baş verənlərə oxşar olaylar kifayət qədər yaşanıb. Ən müxtəlif MTK-lara külli miqdarda pul ödəyən sadə vətəndaşlar sonda əllərində quru kağız parçası - mənzilə aid orderlə baş-başa qalıblar. "Sevil Massivi" MTK-nın işi üzrə zərərçəkən Mais Əfəndiyev kimi. Ona MTK-dan aldığı torpağın sənədi verilib. Ancaq indi bu sənəd heç nəyə yaramır.

**"Deyirlər, apar sıx suyunu iç... Heç nəyə yaramır... Etibarsızdır... O sənədi Hökməli bələdiyyəsi pulla düzəltdirib adamlara paylayıbmış. Biz nə biləydik ki, bu boyda saxtakarlığa gedə bilərlər..."** - deyə zərərçəkən AzadlıqRadiosuna bildirib. Mais Əfəndiyevin vaxtilə torpağa görə ödədiyi və indi tələb etdiyi məbləğ 32 min manatdır...

Bu illər ərzində MTK-lar tərəfindən aldadılan vətəndaşların sayı bilinmir. İstintaq orqanları, məhkəmələr belə işlər üzrə zərərçəkənlərin bir hissəsinin vəsaitini yarımçıq geri ödətməklə işini bitmiş sayır. Halbuki vətəndaşların MTK-lara pul ödəməsini şərtləndirən əsas amillərdən biri də vətəndaşın dövlət orqanlarına inamı olub. Bu səbəbsiz deyil - ölkənin elə bir regionu yoxdur ki, sadə vətəndaş bir daşı o birinin üstünə qoyub özünə balaca bir daxma tikməyə başlasın və ən müxtəlif dövlət orqanlarını təmsil edən nümayəndələr onun başının üstünü kəsdirməsin. Belə bir halda vətəndaş "Sevil Massivi" MTK-da qanunsuz tikintinin aparılmasına necə inana bilərdi? 150 hektar sahəni hasarlayıb, səhər-axşam telekanallarda torpaq satışı reklam olunan MTK-nın dələduzluq edəcəyinə kim inanardı?

Əmralı Hüseynov telekanallardakı reklamlardan "Sevil Massivi" MTK-nın telefon nömrələrini götürüb. Zəng edib. Deməsinə görə, 2 il əvvəl elə "incə qızların səsləri" onu tikinti aparılan massivə yaxın ofisinə çəkib aparıb. 20 sot torpaq sahəsinə görə azı 16 min manat xərci çıxıb...

Əgər MTK dələduzdursa, onun efirdə nə işi var? Yalançı reklam etmə maddəsi MTK rəsmilərinə, həmin yalançı reklamla məşğul olanlara niyə şamil olunmur?

Hazırda adı iş üzrə zərərçəkən qismində keçənlərin əksəriyyəti məhz həmin reklamlar vasitəsilə MTK-ya üz tutub bugünkü duruma düşüblər.

"Sevil Massivi" MTK-nın bu illər ərzində fəaliyyətinə göz yuman rəsmilər niyə istintaqdan kənarda qalıb? Niyə onlar müttəhimlər kürsüsünü MTK rəsmiləri ilə bölüşmürlər? Axı onların hərəkətsizliyi üzündən iş üzrə bu qədər vətəndaş zərərçəkənə çevrilib.

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 143 (6171) 3 iyul 2015




## Cümə söhbətləri

**Bismilləhir-Rahmənir-Rahim!**
**Ramazan ayının dualarının içində keçən mətləblər, əslində bizim üçün ilboyu necə yaşamamızı, nələr istəməmizi ehtiva edir. Məsələn, 12-ci günün duasında keçən önəmli nöqtələrdən biri budur ki, Allahdan bizim günahlarımızı örtməsini istəyirik. "İlahi, məni bu gün günahdan qoruyub, iffətli olmaqla zinətləndir! Mənə kifayət edən halal mal ver və məni qənaət libası ilə geyindir! Məni belə bir gündə ədalət və insafla yaşamağa müvəffəq et! Məni qorxduğum işlərdən amanda saxla! Ey, qorxanların İsməti və Qoruyanı!"**

# İffətlilik, çox düşünmək, qəlbin orucu, ədalət və insaf - mənəvi səfərin azuqələri

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı



Göründüyü kimi, Allahdan günahlarımızı örtməklə, gizlətməklə bizi zinətləndirməsini istəyirik. Allahın insanı günahdan qoruması nə deməkdir? Bu, necə baş verə bilər? Nə zaman Allah-Təala bizim eyiblərimizin üstünü örtür? Bu, bizim Allaha tərəf yönəldiyimiz vaxt olur. Çünki insan Allaha tərəf qayıdanda, Allah da insana tərəf qayıdır. Allahın insana tərəf qayıtması isə onun günahlarının, eyiblərinin üstünü örtməsi ilə təzahür tapır. Amma bunun üçün insanın da etməli olduğu şeylər var.

Bəs həmin etməlilər nədən ibarətdir? Bunun cavabı isə Məsumlardan (ə) nəql olunan hədislərdə keçir. Həzrət Əlidən (ə) belə nəql edirlər: **"Kim (Allaha tərəf) qayıtsa, Allah da ona (tərəf) qayıdar və onun bədən üzvlərinə və yerin hər bir parçasına onun abrını qorumaq, eyiblərinin üstünü örtmək və əməlləri qoruyan mələklərin onun barəsində yazdıqları günahların onların yadlarından çıxarılması əmr edilər".** Deməli, insan Allaha tərəf qayıtsa, Onun dediklərini etsə, Onun razılığını əsas götürsə, Allah da onun eyiblərinin üstünü örtər və onu yenidən günaha bulaşmaqdan amanda saxlayar. Allah-Təala bizlərə bu Ramazan ayında həqiqi tövbəni, Allaha tərəf qayıtmanı nəsib etsin ki, nəticədə eyiblərimizin üstü örtülsün, inşallah.

## İffət və həya - imanın göstəricisidir

Duada istədiyimiz önəmli nöqtələrdən biri də Allahdan bizi iffətlə zinətləndirməsini istəməyimizdir. İffət və həya - çox önəmli mövzulardır. Təəssüflər olsun ki, hətta sovet vaxtı Azərbaycan insanın həyat tərzinin ayrılmaz hissəsi olan bu anlayışlar indi artıq öz həssasiyyətini itirir. Sovet dağılandan sonra ideoloji anlamda şeytanın (lən) bir başqa rənglərlə topluma daxil olması ilə, bəzi insanlar tərəfindən iffət və həya kimi anlayışların gerilik, köhnəlik, mənasını itirmiş şeylər kimi göstərilməsinə başlanıldı. Amma müsəlmanın önəmli mövzularından biri də həya və iffətdir. İmam Əlidən (ə) bu mövzuda nəql edirlər: **"Həya və iffət - imanın xislətlərindəndir. Bunun ikisi də azadələrin təbiəti və yaxşı insanların xasiyyətidir".** Həya - müsəlmanın imanının göstəricisidir. Allaha psevdo və fraqmental olaraq deyil, həqiqi mənada imanı olan bir insanın həyasız, iffətsiz olması mümkün deyil.

## Qənaətcillik Allahın razılığına səbəb olur

Duada keçən növbəti önəmli nöqtə qənaətçilik və israfla bağlıdır. Belə ki, duanın növbəti hissəsində buyurulur: "...Mənə kifayət edən halal mal ver və məni qənaət libası ilə geyindir!" İslam Peyğəmbərindən (s) nəql edirlər: "Allah-Təala bir ailənin xeyrini istəyən zaman onları (bu ailənin üzvlərini) dində agah və dərrakəli edər, kiçikləri böyüklərinə hörmətlə yanaşar, ailədə bir-birinə qarşı mülayim olmağı və nəvaziş göstərməyi, ailə xərclərində qənaətcilliyi və israf etməməyi onlara nəsib edər. Onları öz eyiblərindən agah edər ki, nöqsanlarından əl çəkib tövbə etsinlər. Əgər Allah- Təala bir ailənin xeyrini istəməsə, onları özbaşına buraxar". Deməli, insanın qənaətcil olması, israfçı olmaması - əslində Allah-Təalanın artıq həmin insanın xeyrini istəməsi anlamına gəlir. Allahdan istəyirik ki, bizlərə ailə xərclərində qənaətçiliyi nəsib etsin və israfdan uzaq olmağı nəsib etsin. Ailələrimizi kiçiklərin böyüklərə hörmət etdiyi ailələrdən qərar versin. Və bizlərə öz nöqsanlarımızdan, eyiblərimizdən agah olmağı nəsib etsin, inşallah.

Duadakı bir ayrı mətləb də ədalətli və insaflı rəftarla bağlıdır. Ədalət və insaf - toplumu ayaqda saxlayan xüsusiyyətlərdəndir. Bu barədə İmam Əlidən (ə) belə nəql edirlər: **"Başqaları ilə insafla, möminlərlə isə fədakarlıqla davran".** Görürük ki, həqiqi mömin və müsəlman, Allaha həqiqi inanan insan ədalətli və insaflı olmalıdır. Hətta bu, səninlə bir ideologiyada olmayan, başqa bir dünyagörüşdə olan insana münasibətində də öz təzahürünü tapmalıdır. Təəssüflər olsun ki, insanlar arasında biz bunun əksinin şahidi oluruq. Bizim toplum nəinki başqaları ilə, özününkülərlə insafla davranmayan bir durumdadır. Bu da bizim hələ də həqiqi İslamdan çox uzaq olmağımız anlamına gəlir.

Mübarək Ramazan ayının 13-cü gününün duasında da bəzi önəmli nöqtələr var: **"İlahi, bu gün məni günahların kəsafət və çirkinliyindən təmizlə! Qəzavü-qədərə uyğun bu gün baş verən hadisələrdə məni səbirli et! Bu gün məni təqvaya və yaxşı insanların söhbətinə müvəffəq et! Yardımına and verirəm, ey çarəsizlərin gözünün işığı!"**

Günün duasından da gördüyümüz kimi, bu gün Allah-Təaladan səbirli olma, yaxşı insanlarla ünsiyyətdə olma diləyirik. Əslində elə insanlarla münasibətdə də səbrin çox incə bir çaları var. Allah Rəsulu (s) buyurur: **"Camaatla ünsiyyətdə olub onların əziyyətlərinə səbir edən mömin camaatla ünsiyyətdə olmayıb, onların əziyyətlərinə dözməyən mömindən daha üstündür".** Təbii ki, insanlarla ünsiyyət saxlamanın müəyyən çətinlikləri var. Həmişə elə deyil ki, hər şey qaydasında olacaq. Amma bizim dinimiz insanların biri-biri ilə ünsiyyətdə olmasını xüsusilə tövsiyə edən dindir. Camaatla olmağı, insanlarla ünsiyyət saxlamağı, insanlarla rəftarlara fikir verməyi tövsiyə edən dindir. Olan çətinliklərdə də dinimiz səbir etməyi tövsiyə edir. Dinimiz tərki-dünyalığa, özünə qapanmağa mənfi baxır. O toplumlarda ki, möminlər toplumla ünsiyyətdə olmurlar - deməli, bunlar müsəlman camiəsinin dərdlərini də bölüşmürlər, dərdlərindən də xəbərləri olmur. Nəticədə də, başlarına bəla və müsibət gələndə bir şey edə bilmirlər, dağınıq, pərakəndə halda olurlar, birgə hərəkət etmə vərdişləri olmur. Çünki ünsiyyət saxlamayıblar. Ona görə müsəlman toplumu mütləq insanlarla ünsiyyətdə olmalıdır.

## Sən görürsən, amma səndən əvvəl Allah görür

Səbirlə bağlı bir önəmli xüsusiyyət də budur ki, səbir ağılla əlaqəlidir. İmam Əlidən (ə) belə nəql edirlər: **"Ağıllı insanın yarısını dözüm və səbir, digər yarısını isə göz yummaq təşkil edir".** Yəni ağıllı insan iki cür davranmalıdır: birinci səbir etməli, yumşaq davranmalıdır, dözümlü olmalıdır. İkinci də təğafül etməlidir, hər şeyə baş qoşmalı deyil, hər şeyə reaksiya verməli deyil. Uşaqla ünsiyyətdə, ailə ilə ünsiyyətdə, digər insanlarla da ünsiyyətdə bəzən özünü qəflətə vurmalıdır. Guya heç görmədi. Buna deyirlər, "görsə də, görmür", "eşitsə də, eşitmir". Hədisdən göründüyü kimi, Əmirəl-möminin (ə) məntiqində ağılın təzahürlərindən biri - səbir və təğafüldür. Xüsusən də ailə daxilində, uşaq tərbiyəsində buna riayət edilməlidir. Məsələn, bəzən uşağın etdiyi hərəkətlərə səbir göstərmək və onu görməməzlikdən irəli gəlmək lazımdır. Uşağa hər dəqiqə "etmə!", "eləmə!" demək, valideynin sözünün yerə düşməsinə səbəb olacaq. Deməsə, ondan yaxşıdır. Uşaq öyrəşsə ki, valideyn daima irad tutur, o da öz bildiyini edir - bundan böyük problem yoxdur. Hər dəfə deyib, sözünün yerə düşməsindənsə, bəzən özünü görməməzliyə vurub, bəzən də deyib, icra elətdirmək lazımdır. Ailə münasibətlərində insanın hər bir şeyi görməsi, hər bir xətanı, səhvi görməsi lazım deyil, buna reaksiya verməsi lazım deyil. Dinimiz deyir ki, gərək təğafül edəsən, çünki bunun ağılla əlaqəsi var. İnsan gərək fərdi həyatında bəzi məsələlərdə güzəştə getsin, özünü bilməzliyə vursun. İnsan gərək unutmasın ki, əgər kiminsə səhvini, xətasını görürsə, Allah ondan öncə də hər şeyi görür. Sən heç kimi bağışlaya bilmirsən, onda Allah da səni bağışlamaz. Sən insanlar üçün fərdi həyatda heç nə keçə bilmirsənsə, o zaman Allahdan niyə bağışlanma istəyirsən?!

Dinimizin yanaşması budur ki, insan gərək fərdi müstəvidə bağışlayan olsun. İctimai xətaların isə elə ictimai da qiymətləndirilməsi, ictimai üzrxahlığı, ictimai cəzalandırılması var. Amma fərdi həyatda güzəştə riayət etmək lazımdır. Məsələn, bəzən fərdi səviyyədə bir-birini danışdırmama, bir-birindən küsmə halları olur. Dinimiz deyir ki, hətta haqlı da olsa, birinci gedib barışan - qazanmış olur. Mübarək ayda insanda bağışlamaq mədəniyyəti formalaşmalıdır. Xüsusən də üzümüzə gələn Qədr gecələrinə qədər gərək insanları fərdi müstəvidə bağışlaya ki, Allah da onu həmin gecə bağışlasın. Təəssüflər olsun ki, insanlar ictimai zülmlərə göz yumur, amma fərdi məsələləri qabardırlar. Amma dinimizə görə, əksinədir. Fərdi, şəxsi məsələlərin üstündən keçməyi bacar. İctimai məsələ isə topluma aid bir məsələdir ki, ictimai qiymətləndirilməsi də lazımdır. Amma fərdi müstəvidə hətta təqsir səndə də olsa, qabağa düşməlisən. Əgər Allahın razılığını istəyirsənsə, bil ki, Allahın razılığı bundadır.

## Allah Rəsulunun (s) dilində Ramazan ayının qiyməti

Allahın Peyğəmbərinin (s) Ramazan ayının qiymətilə bağlı belə buyurduğunu nəql edirlər: **"Əgər bəndə Ramazan ayının qiymətini bilərsə, ilin başdan-başa Ramazan (ayı) olmasını istər".** Əgər biz Ramazan ayının davamlığını istəmiriksə, deməli, dəyərini bilmirik. Çünki əgər dəyərini bilsək, il boyu Ramazan ayının olmasını, islah olunmaq üçün, Allah bəndəsi olmaq üçün belə bir fürsətin olmasını istəyərik. Kim istəməz ki, Allah bəndəsi olmaq üçün bir fürsəti olsun?! Amma təəssüf ki, reallıqda buna uyğun hərəkət etmirik. Bir də ay qurtarandan sonra ayılırıq ki, bəs Ramazan ayı nə tez keçib getdi.

Bir başqa yerdə Allahın Peyğəmbərindən (s) belə nəql edirlər: **"Kim Ramazan ayını yaşasa və bağışlanmasa, Allah-Təala onu Öz rəhmətindən uzaqlaşdırar".** Ramazan ayı - bağışlanma ayıdır, Allah eləməsin, əgər bu ayda bağışlanmasaq, vay olsun halımıza. Hədisdən anlaşılır ki, Ramazan ayında bağışlanmaq - müsəlman üçün ən vacib məsələ olmalıdır. İnsan hər an Allahdan qəflətinə görə bağışlanma diləməlidir. Bunu il boyu etməlidir. Amma Ramazan ayının fərqliliyi burasındadır ki, Allah-Təala bu ayda o qədər bərəkət qoyub ki, bəndənin istifadə etməsi öz bacarığına qalır. Digər aylardan fərqliliyi bundadır ki, bu ayda bağışlanmamaq müqabilində Allah insanı Öz rəhmətindən uzaqlaşdırır. Allahın rəhmətindən uzaq olmaq isə gerçək bədbəxtlikdir. Allahın Peyğəmbərindən (s) nəql olunan hədisdə də məhz gerçək bədbəxtlərdən söhbət açılır: **"Bu böyük ayda Allahın bağışlanmasından məhrum olan kimsə - bədbəxtdir".** Həqiqi bədbəxt - dünya nemətlərindən məhrum olan adam deyil. İnsanlar adətən bədbəxt o adama deyirlər ki, dünya nemətləri ilə çətinliyi var. Amma Peyğəmbərimiz (s) bizə həqiqi bədbəxtin kim olmasını çatdırır: bu, Ramazana ayında bağışlanmayan şəxsdir. Gərək insan o qədər bacarıqsız, o qədər səriştəsiz olsun ki, bu ayda bağışlana bilməsin.

## Əxlaq ustadlarının tövsiyələri

Sonda əxlaq ustadlarının mübarək Ramazan ayından daha səmərəli istifadə etmək üçün xüsusi tövsiyələrinə toxunmağa ehtiyac var. Birinci tövsiyə bu idi ki, münasib və uyğun qidalanmaya diqqət etmək lazımdır. Çünki səfər uzun səfərdir, yol uzun yoldur. Ona görə də qida proqramı yerində olmalıdır ki, insan axıra gedib çata bilsin.

Çox mühüm tövsiyələrdən biri bu idi ki, mədə orucu öz yerində, göz, qulaq və dil ilə yanaşı, qəlbin orucunu etmək lazımdır. İlahi övliyalar göz, qulaq və dil ilə yanaşı, qəlblərini də bu ayda oruc tutdurarlar. Təkcə orucluqda deyil, həmişə insan gözünü haramdan, dilini yalandan, böhtandan, qulaqlarını qeybətdən uzaq etməlidir. Amma bu ayda xüsusi diqqət etməlidir. Çünki bu ay - fürsətlər ayıdır. Bu ayda digər aylar üçün də bir imkan yaranır ki, insan özündə bir vərdiş formalaşdırsın ki, bunun sayəsində gözünü, dilini, qulağını haramdan qorusun. Bütün bunlarla yanaşı, əxlaq ustadları bir də buyurur ki, qəlblər də oruc tutmalıdır. Yəni qəlbə dostdan kənar heç kim buraxılmamalıdır. Qəlbin bir dostu var, o da - Allahdır.

Əxlaq ustadlarının buyurduğu üçüncü mühüm nöqtə bundan ibarətdir ki, mübarək Ramazan ayı - Qurani-Kərimin baharıdır. Qurani-Kərim məhz bu ayda nazil olub. Ona görə də diqqət və hövsələ ilə, gündəlik Qurani-Kərimin bir hissəsini tilavət etməyə səy edilməlidir. Bununla yanaşı, imkan daxilində mənasına və təfsiri çalarlarına da diqqət edilməlidir.

Əxlaq ustadlarının proqramında mübarək Ramazan ayı - daxili paklanma ayıdır. Mənəvi və ruhi səfa tapmaq ayıdır. Ustadlar buyururlar ki, insan bu ayda xüsusi münacat proqramlarının olması, Allahla raz-niyaz etmək, istiğfar etmək proqramlarının olması istiqamətində səy etməlidir.

Bu ayda mənəvi məclislərdə iştirak etmək və bu fürsətlərdən maksimum faydalanmaq - əxlaq ustadlarının buyurduğu bir başqa mühüm nöqtə idi.

Mübarək Ramazan ayı proqramında əxlaq ustadlarının buyurduğu bir mühüm nöqtə də - dünyadan getmiş mömin və möminələri, rəhmətə gedənləri unutmamaq, onlar üçün bağışlanma diləmək və Quran tilavətlərimizin savabını onlara hədiyyə etmək, onları da bu savaba şərik etmək idi.

Ən əsas tövsiyələrdən biri - az danışmaq və çox düşünməkdən ibarət idi.

**Öz rəftar və davranışlarımızın, əxlaqımızın daha yaxşı olması üçün səy göstərmək - bu ayın ən mühüm əməllərindəndir. Və ən nəhayət, sonuncu nöqtə - Mübarək Ramazan ayının sayəsində hasil olan mənəvi və ruhani haləti, imkan daxilində özümüzdə uzun müddət qorumağa çalışmaq idi.**

**Allah-Təala bizləri bu işlərdə müvəffəq qərar versin. Amin!**

# Azərbaycan Avropadan neçə saat geri qalır...

## Dünyada bir-biri ilə elə qonşu adalar və ölkələr var ki, onların arasındakı zaman fərqi 23 saatdır





**Təbiətin dəyişməz qanunlarından biri də ölkələr arasındakı saat fərqidir. Hansısa xarici ölkəyə gedərkən və ya elə Azərbaycanda oturub xarici ölkələrdə yaşayan dostlarınızla yazışarkən saat fərqini göz önünə almaq mütləqdir. Azərbaycanla Avropa, Qərb ölkələri arasında saat fərqi olduqca çoxdur.**

Bunun çətinliklərini insanlar idman yarışlarını izləmək üçün yuxusuz gecələr keçirərkən hiss edirlər. Çünki bu ölkələrdə axşam saatları olanda və hələ də canlanma davam edəndə bizdə artıq gecə yarı olur. Biz bunu I Avropa Oyunları zamanı da müşahidə etdik. Ev sahibi olaraq Avropanın saat fərqini nəzərə alaraq oyunlara başlanıldı. Bir il öncə Braziliyada keçirilən dünya kuboku yarışında da azərbaycanlı futbolsevərlər yuxusuz gecələr keçirməli oldular. Belə ki, Cənubi Amerikada start götürən dünya çempionatının başlama vaxtı ilə ölkəmiz arasındakı vaxt fərqi 8 saatdan çox idi. Xarici ölkələrə səfər edənlər də saat fərqinə görə getdikləri ölkədə müəyyən qədər əziyyət çəkir, yuxusuzluq problemi yaşayırlar. Ümumiyyətlə, canlıların hamısında bədən funksiyalarına nəzarət edən bioloji bir “daxili saat” mövcuddur. Bu, istilik və gün işığı kimi xarici faktorlardan təsirlənir. Xüsusilə uzun səyahətlərdə qarşılaşdığımız bədən saatı ilə zamanın uyğunlaşmadığı hallar “jet lag” dediyimiz vəziyyəti meydana gətirir. Belə bir vəziyyət isə yalnız 7-8 saatlıq bir zaman fərqi olan ölkəyə getdiyimiz zaman yarana bilər. Beynimizin ortasında olan mərcimək boyda olan epifiz bədəndə saat funksiyasını yerinə yetirir. Bu hissədən melatonin adlı maddə ifraz olunur. Bu maddə hava qaraldıqdan sonra qana axmağa başlayır, işıqlandıqda isə axını dayanır. Bu maddə sayəsində beynimizlə yanaşı, bədənimizin bütün orqanları gecə ilə gündüzü ayırd edə bilir. Buna görə də insanlar Avropaya, Qərbə səyahətlər edərkən şəraitə tez adaptasiya olur, nəinki şərqə edilən səyahətlərə.

Azərbaycanla digər ölkələr arasındakı saat fərqinə gəlincə, internet üzərindən apardığımız kiçik araşdırmadan məlum oldu ki, Azərbaycanla ən az saat fərqi olan İran və Hindistandır. Onların arasındakı saat fərqi 30 dəqiqədir. Ən çox saat fərqi isə ABŞ və Kanada ilədir; 11 saat. Saat zolaqlarının sayı ən çox olan ölkə Fransadır. Bu ölkə 12 saat zolağında yerləşir. ABŞ 11 saat zolağını, Rusiya 9 saat zolağını əhatə edir.

Azərbaycanla digər ölkələr arasındakı saat fərqləri belədir: Azərbaycan saatı Türkiyə, Rusiya, Finlandiya, Yunanıstan, Bolqarıstan, Latviya saatlarından 2 saat, Almaniya, Fransa, Hollandiya, Danimarka, Macarıstan saatlarından 3 saat, ABŞ, Kanada saatlarından 11 saat, Meksika, Brazilya saatından 10 saat, Gürcüstan saatından 1 saat, İran, Hindistan saatından 30 dəqiqə irəlidir. Çin saatından isə 3 saat, Tayland saatından 2 saat, Avstraliya saatından 5 saat geridir. İspaniya saatından 4 saat irəli, Yaponiya saatından 4 saat geri, Qazaxıstan saatından 1 saat geri, Yunanıstan saatından isə 1 saat 59 dəqiqə irəlidir.

Bir-biri ilə elə qonşu adalar və ölkələr var ki, onların arasındakı saat fərqi 23 saatdır. Bu adalardan biri Alyaska və Sibiri bir-birindən ayıran Berinq boğazının ortasında yerləşən iki qayadan ibarət Diomida adalarıdır. Diomida adalarının uzunluğu 3,8 kilometrdir və Rusiya ilə ABŞ arasında beynəlxalq sərhədin göstəricisidir. Böyük Diomida Rusiyaya məxsusdur, kiçik Diomida isə ABŞ-a aiddir. Bu iki ada arasında 23 saat vaxt fərqi var. Məhz buna görə adalardan biri simvolik olaraq “sabah”, digəri isə “dünən” adlandırılır.

Xarici ölkələrə səyahət edən zaman saat fərqləri bizdə müəyyən qədər durğunluq və əsəb yaratsa belə bunun yaxşı tərəfləri də var. İnsanda sanki zamanı oğurlaya və ya dayandıra bilmək kimi bir hiss yaranır. Misal üçün, Gürcüstandan səhər saat 6-da təyyarəyə minib İstanbula da səhər saat 6-da çatmaq insanda həyatdan zamanı oğurlamış və ya heç zaman keçməmiş, saat irəliləməmiş kimi yaxşı bir hiss yaradır.

❑ **Günel MANAFLI**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Elan**

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**

**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 185 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-40.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**

**Tel: (050) 210-50-74**

**Özəl tibb müəssisəsinə 3-5 saata gündə işləmək üçün təqaüddə olan, damara iynə vura bilən tibb bacısı tələb olunur.**

**Tel: (012) 437-88-05 (13:00-dan sonra)**
**(050) 213-88-05 (13:00-dan sonra 17:00-dək)**

**Oğuz rayonunun Calut kəndində “Azpetrol”la üzbəüz dağın ətəyində 4 hektar özəl sahədə yerləşən ferma satılır. İşərisində çoban evi, ofisi, yem dəyirmanı, istirahət guşəsi, daimi işığı və suyu var. Əlavə olaraq 5 hektar özəl torpaq sahəsi və bundan başqa müqavilə ilə 6 hektar biçin sahəsi və 126 hektar otlaq sahəsi var. Bunların hamısı birlikdə 450 min manat.**

**Əlaqə nömrəsi:**
**(055) 206-14-61,**
**(070) 335-90-15,**
**(050) 371-01-60**

**Dünyaca məşhur olan Qırğızıstan balı və müalicəvi bal məhsulları Azərbaycanda**

- *Arı südü*
- *Mumiya*
- *Möhtəşəm ağ bal*
- *İssık-Kul balı*
- *Esparset balı*
- Çayek balı
- *Karkıra balı və s.*

**RAMAZAN AYI İLƏ ƏLQAƏDAR OLARAQ ORUC TUTANLARA ENDİRİM**

**Xalisi yalnız bu ünvanda:** Bakı şəhəri, Neftçi Qurban küçəsi 119
**Tel:** (012) 491-23-82; (051) 922-15-71

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur “Karl Etorts” firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**
Tel: (055) 776-70-34

YENİ MÜSAVAT

Son səhifə

N 143 (6171) 3 iyul 2015



## Sevgisiz böyüyən uşaqların boyu balaca olur

Uşaqların boy problemi günümüzün aktual mövzularından biridir. Türkiyənin Nəcməddin Ərbakan Universiteti professoru Mehmet Emre Atabek bildirib ki, uşaqların boyu ana qarnında artmağa başlayır və yeniyetməlik dövrünün sonuna qədər davam edir. Uşaqlarda qısaboyluluğun müxtəlif səbəbləri olduğunu deyən professorun sözlərinə görə, xüsusən xroniki xəstəliklər və yetərsiz qidalanma da boy problemi yaradır.

Amma maraqlıdır ki, boy probleminin səbəbləri sırasında sevgisizlik də yer alır: "Valideynləri tərəfindən sevilməyən, sosial problemləri çox olan ailələrin uşaqlarında boy problemi xüsusən müşahidə olunur. Ata-anadan ayrı böyüyən ya da valideynləri ayrılmış uşaqlar xüsusən sevgisiz böyüyürlər. Bu uşaqların boy artımında bir fasilə görünür. Sevgi görməyən uşaqlar xəstəxanaya gəndəriləndə isə onlar heç dərmandan istifadə etmədən boy problemi yoluna qoyulur. Burada uşağa sevgi, psixoloji dəstək verilir. Professor deyib ki, sevgi olmayanda böyüməni təmin edən proteinlərdə də dəyişikliklər yaşanır.

# Sevgilisinə görə 7 ildir dayanacaqda yaşayır

**İzmirdə sevgilisi tərəfindən tərk edilən, bu ayrılığın səbəbini öyrənə bilməyən, bu səbəbdən də həyatdan küsən Doğukan Kaya adlı gənc 7 ildir ki, bir avtobus dayanacağının üstündə yaşayır. Sevgilisi Doğukanı 2008-ci ildə İstanbulda tərk edib. O isə bu ayrılığa tab gətirmədiyi üçün İzmirə köçüb.**




Yerli mediaya açıqlamasında Doğukan deyib ki, əslində bir qıza çox aşiq olandan sonra sanki dəli olub: "İndi də gecələr çox gəzirəm ki, özümü yorum. Onu düşünməyə vaxtım qalmasın, dayanacağa çatan kimi yuxum gəlsin, yatım. Bir dostumun hərdən etdiyi yardımlarla yaşamağa çalışıram. Görənlər çaşır, amma bu da mənim həyatım. Ayrılıqdan dəli olanlar var. Mən də sevgimin ucbatından dayanacaqda yaşayıram".

# Yaddaşını itirən arvadına ikinci dəfə toy edəcək

**Amerikanın Tennesi ştatının sakini amneziyadan əziyyət çəkən həyat yoldaşı üçün yenidən toy mərasimi keçirməyə qərar verib. Amerika mətbuatının yazdığına görə, Ceremi və Castis Stamper ötən ilin 1 avqustunda nikaha giriblər. Toydan bir neçə həftə sonra isə qadın yol qəzasına düşüb və nəticədə onda çoxlu zədə və yaddaş itməsi müşahidə olunub. Uzun müalicədən sonra qadın düzəlib. Amma bir ay sonra Castis ərinə deyib ki, toy mərasimi də daxil olmaqla, qəzadan əvvəlki 5 həftəni tamam unudub. Qadın saatlarla toy şəkillərinə baxsa da, toy videosunu izləsə də, bu mənzərələr onun yaddaşına yardım edə bilməyib. Bu səbəbdən Ceremi toy mərasimini təkrarlamağa qərar verib.**

Amma romantik ərin bu mərasim üçün pulu olmadığından internetdə insanlardan 5 min dollar yığmaları üçün xahiş edib. Bu xahişin necə nəticə verəcəyi isə sual doğurur. Toy mərasimi avqustun 1-də keçirilməlidir.





## Qəzaya uğradı, 2 sutka maşında qaldı

ABŞ-ın Texas ştatının sakini qəzaya uğradığı maşının içində 2 sutka keçirib. Lenta.ru saytının yaydığı xəbərə görə, qəza iyunun 26-da baş verib. 75 yaşlı Vanda Mobli ailəsinin yanına gedəndə qarşıdan gələn maşınla toqquşmamaq üçün qəfil dönüş edib və toqquşub. Nəticədə maşın uçuruma yuvarlanıb. Moblinin dediyinə görə, yoldan gedən maşınların səsini eşidirmiş, amma maşından çıxıb zəng etmək, yardım istəmək üçün gücü olmayıb. Günorta havanın temperaturu 32 dərəcəyə qədər artdığından qadın maşınında qalan az miqdarda sudan qənaətlə istifadə edirmiş. Qadının axtarışı ilə ona aramsız zəng edib, cavab ala bilməyən qohumları məşğul olub. Bazar günü nəvəsinin həyat yoldaşı şossedə maşınla vurularaq əzilmiş bir yol nişanı görəndə şübhələnib. Yol nişanından bir az aralıdakı uçurumda isə nənəsinin maşınını görüb. Hazırda 75 yaşlı qadın xəstəxanada müalicə olunur.




**QOÇ** - Proseslərin axarı sizi qane edəcək. Xırdaçılığa yol verməsəniz, dedi-qodudan, qeybətdən yayınsanız, istər fəaliyyətdə, istərsə də münasibətlər zəminində hər şey normal olacaq.

**BUĞA** - İxtiyarınızda olan bu təqvimdən qeyri-adi nəsə gözləməyin. Bütün ciddi planları başqa vaxta saxlayın. Maddi durumunuzu yüksəltmək istəyirsinizsə, saat 15-17 aralığını seçin.

**ƏKİZLƏR** - Başınızda daima ziddiyyətli fikirlər olur, bəzən bu, hətta münasibətlərin pozulmasına da rəvac verir. Heç olmasa, bu gün obyektiv olun. İşlərinizə vicdanla yanaşın.

**XƏRÇƏNG** - Yaxın on gündə görəcəyiniz işlərin həllinə bu gündən start verməlisiniz. Lazım gəlsə, etibarlı tərəfdaşlarınızın köməyindən də yararlana bilərsiniz. Gün şüasından qorunun.

**ŞİR** - Həmkarlarınızla münasibətdə soyuqluq yaranmasını istəmirsinizsə, onların ədalətli mövqeyi ilə razılaşın. Vəzifələrinizə isə məsuliyyətlə yanaşın. Dənizə getmək və ya səyahətə çıxmaq olar.

**QIZ** - İndiki ağır zamanda dostlarla, qohumlarla münasibətlərə xələl gətirmək savablarınızı azalda bilər. Hər bir prosesə obyektiv yanaşın. Yalnız bu halda ulduzlar sizi uğurlara çatdıra bilər. Bu gün istirahətə də vaxt ayırın.

**TƏRƏZİ** - Üzərinizə götürdüyünüz öhdəliklərə məsuliyyətlə yanaşın. Hər hansı səhlənkarlıq sizi gözdən sala bilər. Hər boş sözdən çılğınlaşmayın. Doğmalarınızla mütləq əlaqə saxlayın.

**ƏQRƏB** - Hər mənada uğurlu gün hesab etmək olar. Sadəcə olaraq, günün nəbzini tutmağı bacarmalısınız. Yay istirahətinə başlamaq üçün çox münasibdir. Cibiniz boş deyilsə, hərəkətə keçin.

**OXATAN** - Təxminən saat 17-yə qədər yalnız adi, gündəlik işlərinizlə məşğul olun. Qeyri-adi və ya hər hansı risklərə yol verməyin. Bununla yanaşı, səhhətinizə də fikir verməlisiniz.

**OĞLAQ** - Gələcək planlarınızı reallaşdırmaq üçün etibar etdiyiniz təcrübəli insanlarla danışıqlar aparmağa dəyər. Amma gərək hər bir məsələdə ədalət prinsiplərini əsas tutasınız. Yeri gəlsə, risk də etmək olar.

**SUTÖKƏN** - Qarşınızda duran vəzifələri ləyaqətlə yerinə yetirsəniz, qarşınızda duran təqvimdən razı qalacaqsınız. Bu gün şəxsi büdcənizi artırmaq üçün fəallaşmalısınız. Uzaq yola çıxmayın.

**BALIQLAR** - İlk növbədə ünsiyyət məsələlərində səbr nümayiş etdirin ki, ümumi ovqatınız yüksək olsun. Heç bir maliyyə sövdələşmələrində iştirak etməyin. İşlə bağlı vəziyyət normal olacaq.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Ölən babası ilə selfi çəkdirdi

**Səudiyyə Ərəbistanında adı açıqlanmayan bir istifadəçi ölən babası ilə selfi çəkdirərək, sosial şəbəkədə paylaşıb. Paylaşımını "özünü çox qəmgin duyur" anonsu ilə paylaşan uşaq ciddi etirazlara səbəb olub. Hadisə ilə bağlı araşdırmaya başlanılıb. Araşdırma zamanı bu məsuliyyətsiz və düşüncəsiz hərəkətdə xəstəxana rəhbərliyinin suçu da ortaya çıxarılacaq. Belə ki, ölmüş bir xəstənin yanına hamının məsuliyyətsizcəsinə girməsi və mənəviyyata uyğun olmayan hərəkətlər etməsi xəstəxana rəhbərliyinin günahı kimi qiymətləndirilir.**



Mədinədə baş vermiş bu hadisə ilə bağlı açıqlama verən Səhiyyə Nazirliyi nümayəndəsi Hadef Told əl Varan bildirib ki, "cəmiyyət dəyərlərini aşağılayan, məsuliyyətsiz bir davranış"dan sonra xəstəxanalarda təhlükəsizlik tədbirləri gücləndiriləcək. Bu hərəkəti edən uşaq isə psixoloq və pedaqoqlar tərəfindən söhbətə cəlb olunacaq.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.300